barmaq **ərkən. arnaq.**

barmaq -**ikinci barmağın** ucun, **baş barmağa** ilişdirərək vurulan vurqu: çirtmə vurmaq: çırtma vurmaq.

barmaq -qalay **barmaq** olur: necə barurqa olur. necə ulmaq olur. necə gedmək olur. **/.** -**barmaq başqa demə**, biləyi birsə.
-bir biləyi qoruyar, **dəng olmayan beş barmaq**.

barmaqa **barmağa. barırqa**. gedməyə. -**barırqa** arac istər.

barmaqca əlcək barmaqlığı.

barmaqçı olmaq gedməli olmaq. gedmək istəmək. -siz hara **barmaqçısız**: siz hara gedməlisiz **(**gedmək istərsiz**)**. -**barmaqçıyam**: gedməliyəm. -qayerə **barmaqçısız**: hara gedməlisz.

barmaqı **-barmağı başqa demə**, biləyi birdir. (bir yerdən su içir).

barmaqım **-mart, gözünə barmağım**, yaza çıxdı oylağım.

barmaqın **-**bal tutan **barmağın yalar**.

barmaqla **-dolun ay barmaq ilə imlənməz**. (aydın nərsədən danışanda deyilir).

barmaqları **-barmaqları titrədən könül** (həvəs) sağlığına.

barmaqları **-**bilək birsə, **barmaqları balçama**. (**balçama**: parçama: ayırma. ayrı, başqa görmə).

barmaqlıq **1**. aldığ. alığ. nərdə. mə'cər. mərcər. **1**. dərəbə (dərilmiş). (eyvan önündə, pillə qırağında) ara ara dərilmiş çubuqlar. nərdə.

barmaqsız -**əl ayağı barmaqsız olan**: kötəc.

barmaqtansa **-**tox deyib tülküyə barmaqdansa, ac deyib qurda var. (tox olan tülküyə barmaqdansa, ac olan qurda var). (kişilikdə tülkülük, yırtıcılıqdan qat qat yamandır)**.**

barman mübəlliğ. muxbir. xəbərçi. jurnalist.

barmanla -**baydın, işi barmanla**, **yoxdun, işi yalmanla**. (**barman**: para, mülk) (**yalman**:əmək. zəhmət) (bəy (zəngin) işi, varıyla, yoxsul işi əməgi ilə görür).

barmarqın **-**bilən bilənin işlər, **bilməyən barmarğın dişlər**.

barmasa **-sağlığında əl barmasa berməyə**, qıymazılar qalanlar qol gərməyə. (durmuşda dururkən əlin gəlmərsə verməyə, səndən sonrakılar necə qıyarlar əl uzatsınlar verməyə).

barmaz **barmaç**. çıxmaz. bünbəst.

barnaq sığnaq. pənahqah.

barnama barıntıq. yollanan yükün pitiyi, kağazı.

barramaq **barlatmaq**. yetişdirmək. oluğdurtmaq. pişdirtmək.

barranmaq **barlanmaq**. yetişmək. olğunmaq. pişmək.

bars **burs.** (< **burmaq**). şiş. amas.
-**özüvü bars bilsən** özgəni arslan bil.

bars pələng.-pişan! **barsların anısın**, kişilərə balasın. (**bars**: pələng). (**balasın**: sevimlisin). (pişiklər barslardan yadgardır, insanlara sevimlilərdir).

barsamaq **barığsamaq.** gedmək istəmək.

barsamaq **basramaq**. **barsamaq**. əsrəmək. kökətmək.

barsanı hərkəsi. -kiçgənə qurd, yediyi tut, barsanı geyindirir, geyənləri sevindirir. **(**bilməcə**)**. **(yemiş)**.

barsın -**yas barsın**: allah rəhmət eləsin.

barsız önməs.

barsız önümsüz. hasılsız. nəticəsiz.

barslanları -pişanlar, **barslanları andıran**, kişiləri baydıran. (**barslanları**: arslan pələhləri). (baydıran: ləzzət verən, sevindirən).

barşıq sülh. -**barlış barşıq**: bolluq sülh.

barşqan ılaşqan. sülhtələb.

barşqlı mərdümdar. mərdümi.

barşu barışçı. sülhpərvər.

bart **1**. **balt. parç**. kil. peymanə. **1**. bırt. pırt. birdən. -**bart** dedi düşdü.
-**bart bart**: dalbadal. padar. durmadan. -**bart bart** nə deyinirsin.
-tüstü göz qıpımında **bart burt** tutdu.

barta **barda. 1.** pillə. -**barda barda**: pillə pillə -bir **barda**, iki **barda**. -**bardalı.** pilləli. **1**. dərcə. -hündür **bardalı**: ulu dərcəli.

bartaq **bardaq. 1**. **burdaq**. girdə, uzunsov bağac, qab, zərf çeşidi. **1**. küpə. livan. -**küpə salmaq**: **küpə çəkmək**: bardaq ile sırt ağrılarına uyqulanan otaçılıq. **1**. üzlük. çanaq. içtəkən. -küp **(**küzə**)** qırılınca, çox üzlüklər qırılar**..**
-içgi bardağı: sağır. gilas.

bartaqar **bardağar**. **1**. yüklü. dolu. -**bardağar** söz: yüklü, anlamlı söz. **bardağar** fikir. **1**. qalın. ətli. -**bardağar** parça.

bartala **bardala**. balabala. gedgedə.

bartalanmaq **bardalanmaq**. bərdələnmək. paydalanmaq. maydalanmaq. (bir pay götermək). işdələnmək. -keçdi ömur bardalanmadan, barın bərdələnin. ılindəkindən işdələnmədi. -**maydalı** işlər.

bartan **bardan**. -**ertə bardan**: ertə dardan: ertə zardan: ertə qardan: ertə yardan: dan yarmadan: dan atmadan. ertə tezdən. irtə ir. ertə ir. səhər açmadan.

bartaş **bardaş**. **barğaş**. **baraş**. yoldaş. həmayağ. həmrah.

bartı **bardı.** fayda.
-**bardı ərən**, qonağ görüb, qutqa sağar, qaldı alığ, oyuğ görüb evin yıxar. (**bardı**: geddi) (xoş düşünər), (**alığ**: səfeh gədə). (**oyuğ görüb**: qaraltı görcək). (geddilər o kişilər ki qonağın gəlməyin qutluq sanardılar, qaldılar hüllük küllük kişilər ki, bir qaraltını qonağ sanıban kəndi evin yıxır).

bartıq **bardıq**. **vardıq**. **barlıq**. **varlıq**. mocudluq. movcudluq. movcudiyyət.

bartıqca **bardıqca**. gedgedə. bala bala.

bartılar **bardılar.** -beş yaşa **barınca**, təbrizə **bardılar**: beş yaşa **çatanda**, təbrizə **gıldilər**.

bartın hər nəyin bar olan, bulunduğu, üstündə oturduğu kökü, yeri, təməli. (zirsaxt).

bartın -keçi izlədin, dağa **bardın**, yadı izlədin, gora **bardın**, dili izlədın, elə **bardın**!.

bartın -**bartın sağası sağlıq**. (hər nəyin dəvamı, durmusu sağlıqdır).

bartınqar **bardınqar.** əlbəttə ki (hətmən) barqınar: amaca, mənzilə çatar. -yolun tutan, **bardınqar**, ağız güdən, **aldınqar**. (**aldınqar**: əlbəttə ki (hətmən) mə'təl, avara qalar).

bartır **bardır**. -yetişdi qız, **ərə bardır**, yetişsə ər, **qıza bardır**.

bartırmaq **bardırmaq.** yetirmək. yetgizmək. ibarmaq. aparmaq. yubarmaq. götürmək.

bartısız **bardısız.** faydasız.

bartuq var dövlət.

bartur **bardur.** apar. çatdır. yetir.

bartuvan **barduvan**. yaduğan. nərdüvan. basqıc. çatu. çatuq.

baru **buruc. burc.** (< **burmaq**). hörülüb, burulub göyə uzanan nərsə. minarə.

baruq şərəf yablıq.

baruq -**baruq yaruq:** dolum**.** zin yaraq. yaraq quşaq. gərək yaraq. yatıq yaraq. qaruv yaraq. yaraq yasaq. (məlzumat o əsləhə. saz o bərg. alat ədəvat).

baruqluq təşrifati. şərəf yablıq işləri, törəni.

barur cərəyan.

barurqa -**qalay barurqa olur**: necə barmaq olur. necə ulmaq olur. necə gedmək olur.

baruti çalma. kiçik boylu çay çeşiti.

baryar gedir.

baryoq **baryox. varyox.** həst nist.

bas **-ayağın bas yerə bərk**, qaldır izin..
-erməni başın, bas poxa..
-tütənlərə: -mator ol! **düdü bas dışarı**, yox içəri, boğar səni!.(**tütənlərə**: tüstüçülərə).

bas -**bas keçmək**: **> vaz keçmək**. basıb (örtüb) keçmək. göz yummaq**..**
-dəmiri, **tavında bas**.**.**
-sözə qulaq as, oylab **yola bas**.

bas **-**doğuzu bataqda bas. (**bataqda: batlaqda**).
-düşmanı bas, itgi varsa as. (itgi varsa: ziyan yetirirsə).

bas **-**odu özünə bas, ötməzsə ötgəsinə**. (ötgəsinə:** özgəsinə)**.**

bas saxla. -özünü **bas**: özüvü saxla.

basa **1**. pillə. -on **basalı basma**: on pilləli pilləkan. **1**. sora. sonra. -məndən **basa**. -sizdən **basa**. -hançından **basa. -**bundan **basa.**

basabar! cum!. həmlə!.

basabas **1**.basırığ. basığ.**1.**sıdırqasığa. sıtrasığa.

basabas təpətəp. tünətün. (çox şuluğ).

basacaqı -**nərdüvan basacağı, pilləsi:**çıt. çıp.

basaq **1**. **(**< **basmaq**: ağzına dək dolu**)**. tox. **1**. **(**< **basmaq**: ağzın qapatmaq**)**. oruc **(**< **avuc**: tutuq**)**. **1**. **(tutuq)**. pərhiz. -yemək **basağı**. **1**. məhfuz. mübərra. -suçdan **basaq**. **1**. tə'yid, təsdiq olunmuş. **1**. mütəbərrək. mubarək. muqəddəs. **1**. nərdüvan. **1**. **bazaq**. ayağ basılan yer. pillə. **1**. **basağ**. təzyiq. **1**.**basaq**. tədfin.**1**.quylaq. gömlük. qəbistan.

basaq **basağ**. **basağa**. **basağu**. **astana**. **astan**. **(**< **ast**: alt**)**. **1**. ağız. hər nəyin başlanqıcı. **1**. ərəfə. **1**. sərhəd. **1**. dərgah. **1**. giriş. **1**. ən azı. lap azı. həddi əqəll. həddəqəl. -**astanası** diyeydin mənə. -astanası neçolur **(**neçə olur**)**. -bu ki eləmiş **astanasıydı**, allah çoxundan gözləsin. **1**. heyn. an. dəm. durbal. qınıs. -elə bu **astanda** gəlib çıxdı.. -**astanası çox uca**: çox göydən gedən.

basaq **başaq.** başmaq. basmaq. ötük.

basaqa **basağa**. **basağ**. **basağu**. **astana**. **astan**. **(**< **ast**: alt**)**. **1**. ağız. hər nəyin başlanqıcı. **1**. ərəfə. **1**. sərhəd. **1**. dərgah. **1**. giriş. **1**. ən azı. lap azı. həddi əqəll. həddəqəl. -**astanası** diyeydin mənə. -astanası neçolur **(**neçə olur**)**. -bu ki eləmiş **astanasıydı**, allah çoxundan gözləsin. **1**. heyn. an. dəm. durbal. qınıs. -elə bu **astanda** gəlib çıxdı.. -**astanası çox uca**: çox göydən gedən.

basaqarıb altalayıb. alta qoyub. gizgələdib. **-**kəndivi altalayıb, güzgü baltalama. (**güzgü düzün**: düz olan güzgünü). (man səndədir, güzgüdə yox). (kəndi dalqa keçirib, güzgünü yazğıtma) (**yazğıtma**: ittiham edmə).

basaqlamaq **basağlamaq. basalamaq.** döğüb əzmək. döğüb leh edmək.

basaqlamaq oruc tutmaq. rejim tutmaq.

basaqu **basağu**. **basağ**. **basağa**. **astana**. **astan**. **(**< **ast**: alt**)**. **1**. ağız. hər nəyin başlanqıcı. **1**. ərəfə. **1**. sərhəd. **1**. dərgah. **1**. giriş. **1**. ən azı. lap azı. həddi əqəll. həddəqəl. -**astanası** diyeydin mənə. -astanası neçolur **(**neçə olur**)**. -bu ki eləmiş **astanasıydı**, allah çoxundan gözləsin. **1**. heyn. an. dəm. durbal. qınıs. -elə bu **astanda** gəlib çıxdı.. -**astanası çox uca**: çox göydən gedən.

basalamaq **basağlamaq.** döğüb əzmək. döğüb leh edmək.

basalqa təzyiq.

basam aşam. qonuq. evrə. mərhələ.

basama dərəcə. dərcə. pillə. -bir **basama** yuxarı bir **basama** aşağı.

basamaq **basamıq**. **basmıq**. pillə. nərdüvan, pilləkan pilləsi.

basamıq **1**. səki. səkgi. **1**. **basamaq**. **basmıq**. pillə. nərdüvan, pilləkan pilləsi.

basan **1**. üstən. üsləyən. üstələyən. qalib. fateh. piruz. **1**. yoğa. ölünü basdırandan sonra verilən yemək. **1**. paçan. sıxan, basan, çırpan, atan aracın qolu. -qısqacın **paçan** qırılmış. -yoğun **basanlı** çəkiş..
-**seyrək basan**: **seyrək basağlı (**bacağlı**)**: uzun qıçlı.

basan **-**acıların ucuz satan, **süycülərin yerə basan dünya**.(**süycülərin**: dadlıların)

basan -**ayaq basan**: 1. ged gəl eliyən. 1. qədəm qoyan.

basan -**bir anlıq hirsin basan**, yüz il dincin yatar.

basan qıran.**-**yav**basan**: cav**basan**. düşmən**qıran:** yov**qıran.**
-qadanın içinə qaçan itirdi, **dışına basan apardı**.

basancaq **basğancaq**. nərdüvan.

basar **1**.alar. çalar. qələbə qazanar. şikəs verər. -arxalı it, qurd **alar**.**1.**sındırar. **-**gəldi çağı sıxılmış, **ölüm basar qurtarar**.
-qundaqçı gücü, **taxt yiyəsinkin basar**. {yaşkən əkit, ulasun igid. (uşaqkən becət, böyüyüncə qorxmaz, yərdəcər gənc olsun. (**yərdəcər**: yararlı. başarcanğ)}.

basar **-**ağır əğin, kovğa topraq, **iz basar**.
-iz basar: iz qoyar.
-**izə basar**: dala gedər.

basar -**elbasar**: işgalçı. basqınçı.

basar **-**ev yoldaşın yamansa, **tütün basar qır qutar**.
-köpəçini küpçü küpə basar, torbaçı torbalar. (**köpəçi**. köpə yürən. tamahkar). (**küpçü: küpəçi**. torbaçı. kələkçi).
-irtovçular **gertovçunu gur basar**. (erkən qalxanlar, gerkənçiləri (gec qalxanları) ağır basar, çox çox geridə qoyar).

basar **-**qan sudan ağır basar. (qanla su ölçüştürüləməz)..
-enik küçük qurd basar. (enik küçük qurd təpər). (tula qurda atılar. tula, qodukluğuna görə (kudəkliyinə görə) qurdu enmək istər. niyə çünkü qoduğdur (kudəkdir), qanmır ki, qurddan əmi çıxmaz)..
-yar yara durmasa dayaq, **yadda əzib, basar ayaq**.

basar **-**ulu qayğını iş, **kiçi qayğını aş basar**. (qayğı, iç bulğa önündə işsiz oturmamalı)

basar töhmət. -yalançılq **basarı**: (töhməti).
-**qızıqlını uşütmə basar**, soyuq tər axar. (**qızığ**: sıtma). (sıtma kəsəlli üşüyüb, soyuq tərlər).
-qapından keçən arxı **çöp basar**. (əldə olan danğa (ne'mətə) gərəyi dəğər verilməz)

basarmış -arzu yolların **basarmış kol**.

basaşımaq dışaşmaq (dışaşışmaq). sapaşmaq (sapaşışmaq). düşgürüşmək. dışdalışmaq. su' istfadə edmək (suyi istfadə edmək).

basatı icbari. məcburi.

basatlamaq bəllətmək. müəyyənlətmək. -toprağı ayırıb **basatladılar**.

basavlıq zoruğluq demə. təzyiq.

basaylamaq basaraq sürtmək.

basba (**basbağ)**.çapxana. mətbəə.

bası çap.

bası hilə. kələk. yalan. təzvir. təsənnü'. oyun. zahir sazlıq. abartıq olan **(**iğraq amiz**)**. {qeyri səmimi taarüf, tə'rif, övgü **(**mədh**))**. basma qalıb. kilişə. **bası bükə**: yalan dolan..
-**bası sözlər**: tematik, simbolik sözlər. müstələh sözlər. -onun **basılı sözlərinə** inanma. -onun bu **basılı** sözləri səni eşşək eləmək üçündür..
-**bası qaratmaq**: iddia edmək. yapmaçılıq yapmaq. şişirtmək. təzahür, va nəmud edmək.

basıb durmaq ayaq üsdə durmaq.

basıb **-basıb götürüb aparmaq:** ilətmək. -su geçidi (köprünü) **ilətdi**.

basıb -bir ayağın asıb durar, bir ayağın basıb durar, hər bazara barıb durar (tapmaca) (**tərazı**).

basıb -**basıb vermək:** dümdüz düzəltmək. -buğların **basıb vermiş.**

basıc **1**. düzəy. səviyyə. dərəcə. yer. hədd. səth. -bu **basıc** yamanlıq. -bu **basıca**: bu **səthə**. -onun **basıcın**: onun **dərəcəsin**. **1**. **basğıc**. nərdüvan.

basıcı **salıcı**. **1**. yalançı. ötrükçü. kəzzab. **1**. aldaq. aldatıcı. **1**. mütəqəllib. dəğəl.

basıq **1**. **basırığ.** basabas. **1**. **basırığ.** tıxac. tırafik. **1**. yasıq. yansıq. qıysım. qıysar. qıysır. əğri. əyri. **1**. yerə, toprağa tikilmiş çubuq, dirək, mil.
-**ağzı basıq**: sır qoran. söz qoruyan.

basıq **basığ** **1**. təzyiq. **1**. zülm. -**basıq basmaq**: **1**. döğmək. **1**. təzyiq, zülm edmək. **1**. dar. -**basıq** ətək. **1**. qıssa. güdə. -boydan **basıq**. **1**. çapa. boğaz. təngə. dar keçid. -bu bir **basıqdan** ayağa keçmək olmaz. **1**. dərd. hüzn. -**basıq** tozu qonmuş üzünə. **1**. iztirab. -**basıq** çəkmək. **1**. boğnaq. tıxıq. xəfə. -**basıq** hava. **1**. sönük. -**basıq** köz. **1**. ixtinaq. -siyasi **basıq**. **1**. qaxınc. sərkub. -qaxınc olar başıva. **1**. müsirr. ləcuc. mübrəm. -sözündə, işində **basıq**. **1**. fişar. -qan **basığı**. **1**. izdiham. cəmiyyət. -bu **basıqda** kim kimədir. **1**. kilişə. -bu necə **basığdır**. **1**. kopi. -kitab **basığı**. **1**. müztər. iztirablı. -**basıq** ürək. **1**. buyruq. əmr. -**basıq** gəldi ki. **1**. çətin. güc. -**basıq** yağday: çətin şərayit. **1**. **baslığ**. amacqah. cumma, ilqar, həmlə yeri. -**basığlara** basqına keçdi..
-**basığ pusuğ**: **1**. gizli örtülü olan. **1**. bur bucaq.

basıq küdük. alçaq .

basıq qəhr. qəzəb.

basıq fişar. -qan basıq: qan.

basıqın **basqın.** təcavüz.

basıqmaq **basığmaq**.pusuğmaq. şişmək. yoğunmaq.yoğunlamaq.

basıl fişar. təzyiq. -qan **basılım** oral (normal).

basılaq **baslaq**. **(**< **basmaq)**. basma pənir. küp pəniri. oğma pənir. oğulub küpdə saxlanılan pənir.

basılan **baslan**. **(**puslan. pusulan**)**. həzimət, şikəs görmüş. -**baslan** ellər: sınan ölkələr, məmləkətlər. **(basğan**: qalib**)**.

basılan yüklənən. çağlanan. çağılan. taxılan. soxulan. -**gecə yüklənən**, günüz balalar. (gecə **çağlanan**, günüz çağalar). (gecə basılan, günüz doğar). (gecə **çağılı**, günüz çağalı). (**çağılı:** taxılı**.** yüklü. hamilə). (**çağalı**: balalı).

basılar -yaman asılar, **yavaş basılar**.

basılı -**əngəl gülə basılı**, əngəl güldən asılı, gül olmasa, əngəl başı yazılı. (**başı yazılı**: məhkum).

basılı -qadın ilqarı, deyir kişidən asılı, **kişi ilqarı deyir, vardan basılı**.

basılıb zorlanıb. -**pəsə** qaldıq. (zoranıb dalı qaldıq)

basılır -aşa yaman asılır, **aşa yuvaş basılır.**(**aşa**: artıq. çox**).**

basılmaq fişar çəkmək. təzyiq görmək.

basılmaq qoymaq. bərtərəf olmaq. -susınım **basılmadı**: yanqım qoymadı. -ağrısı **basıldı**: ağrısı qoydu.

basılmış basılmış olan. bastıq**.** məqhur. -tanrı **bastıqları**.

basıltın **basıldın**. -**qoyun oldun basıldın**, birin sevdin, asıldın, birlik qurdun, yasıldın. (yasıldın: ağ günə çıxdın. rəhmətə, bolluğa uğradın).

basım fişar. təzyiq.

basım icbar. təzyiq.

basımçı çapçı. çapgər. mətbəəçi.

basımlıq yeğinlik.

basın mətbuat.

basın saxlaş.
-**''**doğru''nun **başın vursan**, 'oğru' qalar.
-işləyən başın əlayağı iş bulur, işləməz başın əlayağın don urur. (işləyən başın əlayağı iş tutur)

basın! aram!. tiniş!. sakit!. sərin!.

basın! sərin!. aram!. sakit!. tiniş!.

basın! tiniş!. sakit!. aram!. sərin!.

basına -oğru asılınca, **doğru basınca**, çox iş olar.

basınc fişar.

basınılmaq **basğınılmaq**. keçrilib aparılmaq, sındırılmaq. şikəst verilmək. -arxa ola elinə, **basğınılmayar** yağıya**. -**çalış ağlı qoyub, arzulara **basınılma** (**basğınılma**). -hirsə, qızqınlığa, tamaha onu **basğınıldı** (qapıldı).

basınqa **basınğa** > **paşna > {paşne** (fars)}. daban. nərsənin yerə basılan, təpilən alt bölümü.

basınmaq **1. basğınmaq.** güc görsətmək. yügürmək. zorlamaq. -o harda dilsiz əlsiz görsə **basınar**. -özündən düşgünə (acizə. zəifə) **basınma**. **1.** güc, zor göstərmək. -hər gələylə danışma, əlsizlərə **basınma**. (**əlsizlərə:** acizlərə).

basınmaq bükünmək. xəfələnmək.

basıp tutulmaz bastırılmaz. zəpt olunmaz.

basır -**biri basır**, biri yasır..

-**biri** kəsər, **biri** asar.

basırıb -günü ətək bilə **basırıb olmaz**.

basırıq **basırığ. basığ. 1**. basabas. **1**. tıxac. tırafik.

basırıq dəfinə. quylanıb, örtülmüş yer, nərsə.

basırıq **tıxac**. sıx tırafik.

basırqanmaq **basırğanmaq**. fişarda, zorda olmaq.

basırqanmaq **basırğanmaq**. sərsəm tutmaq. qara basmaq.

basırlamaq **1**. **(**inandırmaq üçün, içində olmadığını gözə basma, soxmaq**)**. şəbeh çıxartmaq. oxşalatmaq. bənzəlitmək. bənizətmək. bənzətim yapmaq. yansılamaq. ədasın çıxartmaq. öyküləmək. təqlid edmək. **1**. **(**nərsəni olduğundan artıq şişirtmək, böyütmaq**)** qabartmaq. mubaliğə edmək. **1**. **(**aldatmaq üçün**)** içində olduğun basıb, örtüb gizlətmək. qayırlamaq. **1**. təzahür edmək. **1**. iddia edmək. **1**. mahana gətirmək. üzr gətirmək. **1**. haşiyəduzluq edmək. -bu köynəvin yenlərin (qollarının

ətəyin) **basırla** tez yırtılmasın..
-**ört basırlamaq**: gizlətmək. yascalamaq örtmək.

basırmaq **basqurmaq. basuqtmaq**. **basdırmaq**. **1**.bərkitmək. möhkəmlətmək. istehkam vermək. **1**. üzərinə ağır nəsə qoyub təprəşməzin bərkitmək. -tanrı dağ ilə yeri **basırdı**.

basırmaq korramaq. korlamaq. quylamaq. örtmək.

basırmaq kökləmək. dəğəlləmək. təyəlləmək. (**< dəğmək**). aralı aralı tikmək. **1**. **bəsirmək**. **bəsləmək**. yedirmək..
-**kök basırmaq**: kökərtmək..
-**tikmə basırmaq**: kökərtmək. tikmə basırmaq. (**tikmə**: başqa bir yerə tikilmək üçün, bulunduğu yerdən çıxarılan taza ağac). ağac əkmək.

basırtı **basırdı**. gizlətdi. kor mollaya kitab verdilər, **basırdı tapanmadı**. {kitabı, yazını yiyəsinə, biləsinə çatdırın. (**biləsinə**: dərək (qədir) bilənə, verənə)}.

basış **basqı**. həmlə. fişar. məziqə. məşəqqət.

basış -**çığ bası: şçığlıq**. bağrıq. fəryad.

basıtmaq aşıtmaq**.** örtmək. -qamuğ ıssın **aşıtan**: hammının eybin örtən. (**ıssın**: iysizin. uysuzun).

basıv **basuv**. zor. zülm. -bu **basuva** kim dözər.

basqac **basğac**. **1**. **basğıc**. nərdüvan. **1**. nərdüvan. dil bilimin açarı, ağlın basğacı.

basqaç azığ. bic. bij. bijqo. qırıq. qırqan **(qırıqqan < qırıq**: qopuq. bütün olmayan. **+ qan)**. çapanoğlu. > köpeyoğlu. köpəyoğlu. kəsəoğlu. eloğlu. küçəoğlu. göbəl¸ qabal. soysuz. zina cocuğu. atasız. cümertəsi cocuğu. sındıra. səndərə **(**< sınıq**)**. haramzada. zinazada. zinazadə.

basqal **paçqal**. (sıxan, qıran, basan, çırpan, atan) aracın qolun basan, sıxan.

basqamaq təzyiq edmək.

basqamal (**bas** + **qamal**: örtük). butal (bud, qıç bölümünə geyilən bürgə) > fitə. fota.
pagne (**fırans**): butluq. qalça dan dizə dək olan bürgə.

basqamıt saxta. **1**. (buncul).

basqan **basğan**. **1**. qalib. **1**. saldıran. **1**. zalim.

basqancaq **basğancaq**. **basancaq**. nərdüvan.

basqarılış başarma. başarı.

basqatınmaq **basğatınmaq**. məcbur edilmək.

basqı **basış**. həmlə. fişar. məziqə. məşəqqət.

basqı **-basqı aracı**: çomağı. **-**qolçomaq bir əlin çomağı, bir əlin qolçağı olur. (**qolçomaq**: quldur. lotu) (**qolçağı**: oyunçağı.).

basqıc **basğıc**. **1**. **basğac**. **basıc**. nərdüvan. **1**. hər çeşit bəsləyən, gücədən, doyuran nərsə, qıda, qəza. təqviyəti. **1**. basıb, çalan, sıxan güc.

basqıc etgi. təpgi. tə'sir.

basqıc nərdüvan. yaduğan. barduvan. çatu. çatuq.

basqıl təzyiq. təhdid. məhdudiyyət.

basqıl mətbuat, nəşriyyat idarəsi.

basqılamaq xorlamaq. təpgiləmək. zülm, sitəm edmək.

basqılamaq təzyiq edmək.

basqılıq **basquluq**. əsasnamə.

basqın **1**.**basıqın.** təcavüz.**1.**üstün. güclü. -**basqın çıxmaq**: üstün çıxmaq. güclü çıxmaq.

basqın axqın. daşqın. (təcavüz).

basqınçı elbasar. işgalçı.

basqınılmaq **basğınılmaq**. **basınılmaq.** keçrilib aparılmaq, sındırılmaq. şikəst verilmək. -arxa ola elinə, **basğınılmayar** yağıya**. -**çalış ağlı qoyub, arzulara **basınılma** (**basğınılma**). -hirsə, qızqınlığa, tamaha onu **basğınıldı** (qapıldı).

basqınmaq **basğınmaq. basınmaq. 1.** güc görsətmək. yügürmək. zorlamaq. -o harda dilsiz əlsiz görsə **basınar**. -özündən düşgünə (acizə. zəifə) **basınma**.

basqış təqəlla. -nə üçün böylə **basqış**.

basqıt baykut.

basqıtaqı **basqıdakı**. dəfinədəki**. -basqıdakı altından**, asqıdakı salxım yeğ.

basqof (gizli yapılan nərsə).rüşvət.

basqol bir yerdə, nərsədə ana dirək, sutun.

basqu **basqu**. qala. istehkam.

basqu həmlə. hicum.

basqul zerzəmi. padval.

basquluq **basqılıq**. əsasnamə.

basqur **basğur**. bağ, avlu kimi yerin çevrəsinə çəkilən çəpər, alçaq duvar, hisar. -yel baxca **basqurun** yıxmış. -gecə çağı nəisə içəri atlandı. -**basqur** hörmək.

basqur iskilet.

basqurmaq **basuqtmaq**. **basdırmaq**. **basırmaq**. **1**.bərkitmək. möhkəmlətmək. istehkam vermək. **1**. üzərinə ağır nəsə qoyub təpreşməzin bərkitmək. -tanrı dağ ilə yeri **basırdı**.

basqut əsas. baza.

baslaq **basılaq**. **(**< **basmaq)**. basma pənir. küp pəniri. oğma pənir. oğulub küpdə saxlanılan pənir.

baslamaq **basramaq**. **asramaq**. **əsrəmək əsləmək**. **bəsrəmək**. **bəsləmək**. becərtmək.

baslan **basılan**. **(**puslan. pusulan**)**. həzimət, şikəs görmüş. -**baslan** ellər: sınan ölkələr, məmləkətlər. **(basğan**: qalib**)**.

baslı **-boslu baslı:** əriz o təvil.

baslıtmaq fişara qoymaq. təzyiq edmək.

basma **1**. qamışdan qurulmuş avlu, baxça qapısı. **1**. yalan. qoşdurum. kof. kofa. kofan. kofda. koftan. kolan. gop. **1**. kərmə. yapba. **1**. qopça. çalkeçit. ərkək dişili olub, biribirinin içinə keçməklə bağlanan düğmə. -**qopçalamaq**: qopça ilə tutturmaq. **1**. qalağ. koma. **1**. arx, kiçik gədik üzərində, bütün dirəklə salınan kiçik körpü, keçit. **1**. suvat. suçal. çaydan, axardan su götürmək üçün düzədilən yer. -

suvatda malqara suvarılar, paltar yuğular. **1**. suvatda, dayaqlıq olaraq taxılan dəğənək. **1**. yol ayrıcı, dalqıcı. **1**. ovlaq. avlaq. ov yeri. şikarqah. **1**. yüklənən odun, tayların şəllənib (əğrilib ağırlıq edib) aşmamağın sağlamaq üçün üstünə qoyulub bağlanan dirək, ağac. **1**. bir yaba, şənə ağzı qədər. bir bağ, dəsdə. **1**.basma. bir yaba, şənə ağzı qədər. bir bağ, dəsdə.

basma **1**. pilləkan. -on **basalı basma**: on pilləli pilləkan. **1**. möhür. **1**. çap. qullabi. təqəllübi. **1**. yapışdırılmış. çap. doğal, doğma olmayan**..**
-qara basma: qara qapış (> kabus**)**.

basma -**basma düğmə:**qırıp. girip. xırda parçadan basılaraq yapılan düğmə, giltə.

basma mətbuat. nəşriyyat.

basma nəşr. -**bersimli basma**: müsəlsəl nəşr.

basmaçı naşir.

basmadan -**basmadan yuxu**, yerivi sal.

basmaxana basımevi.

basmaq **1**. yerimək. qədəm götürmək. -**izləy basmaq**: yavaşca izləmək. **1**. çapaq. (nəqşə) qalıb..
-**daş bassın!**: ağır olsun!..
-**qara basmaq**: qara çalmaq..
-**orun basmaq**. yerin basmaq. yerin almaq. yerləşmək. məqbul düşmək. -yaxcı olsa qayata, **orun basar** tez gəlin..
-**bas!**: qaz ver!..
-**yan basmaq**: yanlamaq. dallamaq. qollamaq. tərəfdardıq edmək.

basmaq çalmaq. çapmaq. vurmaq. **1.** döğmək. -uşağı yaman **basdı**. **1**. toxumaq. quraşdırmaq. **1. basqatmaq**. **basqıtmaq**. keçib aparmaq, sındırmaq. şikəst vermək. **1.** təcavuz edmək. saldırıb yıxmaq. (sikmək). -güclü gücsüzü **basarda** yaxarda. -iki kişi bir qızı **basmış**. **1. başmaq.** başaq. basaq. ötük.

basmaq çalmaq**.** yıxmaq. düşürmək. sırdırmaq. şikəst vermək.

basmaq -**gop basmaq:** qaslamaq.

basmaq -**qara basmaq:** basırğanmaq. sərsəm tutmaq.

basmaq -**qaranlıq basmaq**: hava iyicə qararmaq, tünərmək..
-**tük basmaq**. tükcərmək..
-**toz basmaq:** tozaşmaq. əsgişmək.

basmaq qələbə çalmaq. -qıcığın **basmaq**: hirsin yenmək. -bir anlıq hirsin basan, yüz il dincin yatar. **1**. şikəst vermək. -kim kimi **basdı**.

basmaq qığmaq. tıxmaq. çapamaq.

basmaq çapamaq. əzmək.

basmaqalıb alışılmış.

basmatan **-**baxma eloğlunun uyruğuna, **bilinməz, basmadan quyruğuna**(uyruğna: üzü yolalığına. uyqarlığına. mədəniliyinə).

basmatıqca **basmadıqca.**-baxma adam oğlunun uyruğuna, **tanıyanmazsın, basmadıqca quyruğuna**. (-**uyruğuna**: uyqalığına. mədəniliyinə).

basmatlamaq pəsmətləmək. pismətləmək. danlamaq. qıycırtmaq. məzəmmət edmək.

basmıq **basamaq**. **basamıq**. pillə. nərdüvan, pilləkan pilləsi.

basmıq mətbuat. nəşriyyat. -**baylıq basmıq**: devlət nəşriyyatı.

basmış **-güclü bilək birin basmış**, güclü bilik minin.

basnağaş icbar. məcbuluq.

basnağut fişar maşını. pires dəsqahı.

basnaq **basnağ**. fişar. zor.

basnaq **basnağ.** zülm.

basnamaq itnəmək. zor, fişar vermək.

basnatmaq fişara, zora qoymaq. məcbur edmək.

basnıq **basnığ**. **1**. sakin. dingin. **1**. soyuğqanlı. sərinqanlı.

basnıq **basnığ**.sərinqanlı soyuğqanlı.

basnılmaq **1.** itnilmək. təcavüzlə qarşılanmaq.

basramaq **baslamaq**. **asramaq**. **əsrəmək əsləmək**. **bəsrəmək**. **bəsləmək**. becərtmək.

basramaq **basramaq**. **barsamaq**. əsrəmək. kökətmək.

basrıqı **basrığı.** ağırlığı. -**yer basrığı dağ**, bodun basrığı bağ. (**bodun**: el). (toprağın, zəngilgi dağları ilə, ellərində ağırlığı, ucalığı, böyüklüyü bəyləri, bakanlanları, bilginləri, böyükləri ilə, tanınır.

basruq ağır. giran. səngin. -yer **basrığı** dağ, bodun (el) **basrığı** bağ (bəğ. bəy).

bassa **basda**. birdən. iti. yeyin. tüt. (# **yassa**: **yasda**. asda. yasıca. yassıca. yavaşca). -**bassa** oturdu: birdən oturdu. -**bassa** yürən yorulmuş, **yassa** yürən yorulmaz.

bassa **-**sılağ təkin yüz **bassa**, sılağ gəlsə əllidir. (sılağ təkin yüz gəlsə, sılağ gəlsə əllidir). (**sılaq**: sıylaq: sayqı) (sayqı, hörmətsiz sevgi yaramaz).

bassın -qanmazları, qanandaki, tov bassın! (**tov**: güc).

basta busda yavaş gizli. -**basta busda** gəlib çıxdı ocağ başına.

basta **-basda yürü, yetirsin**, əkdə suvar, dərirsin.

bastac zorba. müstəbidd.

bastaçı təcavüzçü. təcavüzkar.

bastağı keçmiş. -**bastağı tay**: əsgisi kimi. -**bastağı tay** görməz gözüm.

bastaq **basdağ**. **1**.qayət zor. **1**. müfdəsinə çətin, güc işlər gördürülmə. biqarlıq. **1**. > **bəstə**. **1**. təcavüz. həmlə. hucum. -**bastağa** keçmək.

bastaqa bastağa. zorakılığa. şiddətə. -**bastağa** son.

bastaqa -**keçirsə bastağa qurd**, çobanın olduğun unut. (**bastağa**:yürüş. həmlə). (qurd saldırmanı aldısa gözə, çoban salınmaz sana). (**sana**: hesaba).

bastaqan **bastağan**. mütəcaviz.

bastaqlamaq **bastağlamaq**. **1**. döğsələyiib əzmək. **1**. bastağ (bastağ) düzəltmək. **1**. bəstəbətlik eləmək.

bastalamaq məcbur edmək.

bastalamaq təcavüz edmək.

bastalanmaq təcavüzə mə'ruz qalmaq.

bastalatmaq təcavüzə mə'ruz qoymaq.

bastalatmaq zorlaşdırmaq.

bastalı zoraki.

bastamaq **basdamaq**. zülm edmək. zor demək. zülm edmək. -bəsdi **basdadın**.

bastanaq məcburiyyət. icbar.

bastanmaq məcbur olmaq.

bastaş **basdaş**. **bəsdəş**. qınac. qınac. qıynıc. qıyac. qıyıc. qoşuc. rəqib. -təkinə yaşaq olur, **basdaşsız** yarışmaq olmaz.

bastatmaq kökdəmək. (bünyan qoymaq).

bastav **basdav**. zor demə. zülm edmə. -**basdava** son qoymaq.

bastı **basdı**. icbar..
-ağ sular çöndü qara suya, **basdı veyranı**.

bastı **basdı**. **yağbasdı**: yağda qızartılmış. **külbasdı**: küldə qızartılmış. -**közbasdı**: közdə qızartılmış. -**odbasdı**: odda qızartılmış.

bastıq basılmış olan. məqhur. -tanrı **bastıqları**.

bastılmaq zorlaşmaq.

bastında **zorunda**.

bastınmaq zorda qalmaq.

bastırılmış (basdırılmış).təpəngi. çörəyi yumşaq saxlamaq üçün qapaqlı örtülü çörək qabı.

bastırın nəhayi. konkuluzif (conclusive).

bastırma **1**. dam. ardal. arğı. **1**. ardal. arğı. (**arğdal**). (< **arx. ard**). dam. **1**. **basdırma**. təhçin.

bastırmaq **basdırmaq**. **1**. **posdurmaq**. dalı vurmaq. **1**. söndürmək. **1**. kökətmək. (altın üstün) yağlamaq. -yeməkləri **kökətib** sundular. **1**. bəzəyib düzəmək. -**dəvə basdırmaq**: ərkək dəvəni qoşanışa şirnətmək üçün, dişi dəviyə qırmız, ala bula parçalar geyindirmək.

bastırmaq **basdırmaq**. **basqurmaq. basuqtmaq**. **basırmaq**. **1**.bərkitmək. möhkəmlətmək. istehkam vermək. **1**. üzərinə ağır nəsə qoyub təprəşməzin bərkitmək. -tanrı dağ ilə yeri **basırdı**.

bastırmaq **basdırmaq.** qımıldamağa, təprəşməyə qoymazın, kipcə bağlayıb, örtüb qoymaq.

bastırmaq **basdırmaq**. pusdurmaq. busdurmaq. gizlətmək. örtmək. -**basdır pusdur**.

bastuq yapı. bina. saxtman. bətiman. imöbl.

basu **pazu. bazu.** dirsəkdən çiğinə dək qolun ən yoğun bölümü. əğin (**. əkin**: yoğun. əkili).

basuq **1. basqu**. qala. istehkam. **1. basuğ. basur**. güp. gürüz. dəmir toxmaq.

basuq basuğ. məziqə. sıxıltı. darlıq.

basuqtmaq **basqurmaq. basdırmaq**. **basırmaq**. **1**.bərkitmək. möhkəmlətmək. istehkam vermək. **1**. üzərinə ağır nəsə qoyub təprəşməzin bərkitmək. -tanrı dağ ilə yeri **basırdı**.

basun sanğ (sərvət. kan).

basun topluluq. cəmaat. xalq.

basur **basuğ**. güp. gürüz. dəmir toxmaq.

basurmaq təəddi edmək.

basut duruğ. pənahqah.

basut himayət. hamilik. püştibanlıq.

basuv **basıv**. zor. zülm. -bu **basuva** kim dözər.

baş bilik **. -bilik bilikdən üstün**. (baş başdan üstün). **-**dağ görkü daş, **baş görkü saç**, göz görkü qaş. (**görkü**: gözəlliyi. bəzəyi. yarğaşı)**.**

-əldəkinə ürək onsa, **baş bildiyin edər**. (**onsa**: razı olsa)**.**

-hər nəyin ortası, **baş yanı**: sinə**..**

-mən bu yola **baş qoyaram**, ayaq yox**..**

-aylanan baş yönün bilməz. (**aylanan**: dönən. gicələn) (**bilməz**: tanımaz)**..**

-baş başdan üstün. (bilik bilikdən üstün)..

-**baş boşludur daşa**, birdə üstəlik..

-başa gələni, göz görsün, **baş duysun**.**.**

-daş başı unutmuş, baş daşı yox..

-diləgizə **baş əyirəm**..

-**duyduğun baş ağrıtmaz**. (artıq eşitmən, itgi (zərər) verməz)**..**

-duyduğuva **baş qoşma**..

-hər nədən doyulur aşqdan başqa, **könül baş çevrilir** aşqdan aşqa..

-**açıq baş**, daşa tuş .(**açıq**: gizlənməmiş). (**tuş**: yem)**.**

-baş bilməz: baş bilməyən. səfeh. axmaq..

-baş daş ilə dənənməsin, **daş baş ilə** dənənsin!..

-**baş pozuq**, başçı pozuq**..**

-baş tanımırsa daşı, daş neyləsin..

-bir başa bir göz yetər, **baş olmasa**, min göz belə nə edər..

-çobansız sürü **baş tutmaz**, bakansız ölkə**..**

-durursa baş qınında, çıxmaz qılıc qınından..

-**durursa baş qınında**, götdə bilər neyləsin. (baş dinc dura, götün bir yerə qoyub düşnsə, işlərə yol tapılar). (götün tikib yerə, bir iş üzrə dərinləşmək)**.**

-könül üçünə güvən.-**baş**, əl, ayaq ..

-dağ görkü daş, **baş görkü saç**.

baş yumalı **baş yuğalı**. quslulu.

baş **1.** baş sözü bir sözə əkləndikdə ona çoxluq, böyüklük, üstünlük anlamı yüklür. **1**. saç. -**başın** yağlamış. -**başını** yağlamış: birini toğlamış. -**başın** dara. 2. ovsar. -**başın yığ**: ovsarın çək. **1**. axır. -**başdan**: axırdan. **1**. başaq. uc. **1**. şəxs. -bu **başı** tanırmısın: bu **şəxsi** tanırmısın. -bu **başdan** kişi çıxmaz. -bu **başlar**: bu **şəxslər**. -**başlar** gəlib gedib, genə dünya yerindədir. (**başlar:** çoxlar. çox şəxslər**)** (umud qırma evrəndən, köçürsəndə, əkdiyin yerindədir, yaşam sürür, kişi çağiylə yürür).
-baş sancağı: çalqıl.
-işsiz baş, başına daş. (açıq başı qada diş qoymaz)
-üst baş: çaqçur. taqtur. saqqur. saqtur.
-coğabaş: çavuş**.** sərdəsdə.
-bilikli dos **baş ulatır**. (**ulatır**: ucatır)
-birlik tapan baş olur.
-kitabsız baş daşı neylir!.
-könül yaşın unutsa, **baş qalmaz**.
-**özbaş**: boş**.** -**boş** at.
-**baş sağ** olsa təlpək tapılar. (**təlpək**: papaq)**.**
-baş düz olursa, qoymaz ayaq caymağa.
-**börklülərdə baş yox**, başlılarda börk.
-**dilsiz baş**, başsız gövdə.
-ər altun ilə ölçülməz, ərdəmli baş, dil gərək. (**dil**: söz. düşüncə)**.**

-qorumaq üçün topraqla daş, **güclü istək, güvənli baş**.
-**başağırlıq**: **başçəki**: bir nərsədə ağrığın, vəznin ən yüksək dərcəsi. -başusda: usdaların ən bilgini.
-**başoda**: **başqonağ**: bir yerin ən önəmli, böyük olan otağı.
-**könül hara baş ora**. **baş hara**, ayaq ora. göz hara, qulaq ora.
-otuz iki qalalı dil var olsun. iki qulaq arasında oturan **yalançı baş yox olsun**. (dilin suçu yox, dildə yalan yox). (**otuz iki qalalı**: otuz iki qapılı. hər diş bir qapı).
-**baş almaq:** başlanmaq**.** üz tutmaq. bettəlmək. bet almaq. -isti düşmədən yaylağa **başlanar** obalar.
-ay çevrəyə oyunçaq, **könüldə baş doluncaq**. (baş onmayıb, inanmayınca könül əsəcək). (**onmayıb**: hinməyib, razılaşmayıb).

baş **1.** başçı. iş aparan. işbaşçı**.** -dişə aş, **işə baş gərək**. **1.** pay. -on **paylıq**: on başlıq. -**pay pay:** baş baş**..**

-baş göz olmaq: göz qulaq olmaq**..**

-bilikli baş, biləksiz qalmaz. (**bilik**: bilim. ilim). (**bilək**: güc). (işləyirsə baş, gərəyin tapar, bildiyin yapar)..

-**bir baş əlində** qalmasın iki əl..

-**baş var** düşür dara, **başda var** çəkilir dara..

-**işləyirsə baş**, gərəyin tapar, bildiyin yapar..

-**baş məəllim**: **məəllim başı**: sorata..

-**baş qaçırmaq**. başdan eləmək. burcutmaq..

-**ikinci barmağın** ucun, **baş barmağa** ilişdirərək vurulan vurqu: çirtmə vurmaq: çırtma vurmaq..

-könül istəyincə, **baş dönməməli**, duyub, düşünməlidir..

-**qarşında baş əyirəm**, əllərindən öpürəm..

-**baş qaçırmaq**: başdan eləmək. burcutmaq -**burcutmadan** işə qol çəkdi. -**burcutmağın** nə anlamı var, diyeydin bir başa, istəməm artıq..

-**oy baş**: fikir xiyal. -**oy başın aratıb**, baş atıb yatıb. (**oy başın aratıb**: fikir xiyalın təmizləyib, dincəldib)..

-könül çəksə, **baş durmaz**!, könül çəksin, **baş duysun**! (**durmaz**: dayanamaz. muqavimət edəməz)..

-adız tanış ürəkdə, **anırsamır baş məndə**. (**anırsamır**: yadına gətirmir)..

-könül çəkər, **baş ölçər**. (könül istər, baş hesab verər)..

-**könül hara, baş ora**, könül qara, **baş** qara. baş haradır, ayaqda!, göz haradır, qulaqda!..

-könül tovğac, **baş duyğac** (olmalı). (**tovğac**. batur. cəsarətli). **(duyğac**. ehtiyatlı. düşüncəli). bu söz kişini könül sevər xoş olurluğa çağırıb, ardındanda, başı untmamağa yönəldir. könül saysana (hesab kitab) bilməz, başda tutduğun verməz**.**

-Istədiyin söyləyən, istənməzi eşidər!, **papağ altda baş yoxsa**, eşitdiyin keşidər (uzadar)..

-asılan qulaq, **baş asdırmaz**. (qulaq asanın, başı sağ qalar). (**qulaq asmaq**: söz eşitmək.). {eşidən qulağ (eşitdiyin doğruca açıqlamış, qavramış kişi), başın dardan qurtarar, başın dara verməz.}. (qulaq asmaz, asıtdı baş) (asmaz qulaq, asıdar baş)..

-**baş düşünər, könül inanar.** (kişini iki yol ayratır. (ayrıdır, ayrı, aralı salır, fərqləndirir).

düşünüb inanma, inanıb düşünmə.(**1**. düşünürsən, inanma, inandınsa, düşünmə). (**1**.düşünüb inanma, inanıb düşünmə). (düşünürsə inanmır, inanırsa, düşünmür). (düşüncənin sonu, inancdır!. (**sonu**: ölümü). (**inancdır**: inanmaqdır). (düşünəndə inanc qalmaz, inanmışsa, düşünc almaz.(düşünc almaz: oylanmaz. fikirləşməz). düşünən inanc almaz. (**inanc almaz**: inanmaz). düşünən kişi, inanmamış, inanclar, düşüncəyə qalmamış. (inanmağa (inanmaq üçün) düşünməyə gərək deyir.)..

-eşidən qulağ, baş ağrıtmaz. (bu kişini, qulağı işə tutmağı, qulaqdan iş çəkməyi öğrədir.).

-kişi, yaşamaqla dəğişir, **baş, çəkə çəkə ərişir**. {yaşamaq, durmuş, öz etgisin, istər istəməz kişi üzərinə bıraxır, baş gördükləri, taşrıvalar, təcrübələr ilə yetişir.(durmuş : həyat) (baş: ağıl) (ərişir: yetimləşir. pişir)}..

-qorxmaz iyid, yaş almaz, **ağrıyan baş, qocalmaz**.(dəli qanlı qaya (bəliya) düşər, qada quda axdaran baş tez ölər). (**yaş almaz**: çox yaşamaz)..

-**ürək durur, baş unudur**. (**ürək durur**: könül saxlır). (**baş**: ağıl). (**ürək, könül**: anılar ambarı). (acıq dadıq, könüldə yer salır, başda yox) (**acıq dadıq**: acılar dadlılar). (başa gələnləri baş unudurda, könül arar, unutmaz).

baş **1.** doluğ**.** -kişi **doluğa** on tümən: adam başına on tümən. 1. yara. -**ürək töründəki baş açılmasın**. (ürək başındakı yara açılmasın).

-başda baş. (başdı, daşdı, aşdır). (kişiyə ilkin baş, qoraq topraq, var yemək gərəkdir)**.**

-**başa baş doldurmaq:** dolşqurmaq. doşqurmaq.

-bir ulcağın dincliyi, min alçağın **baş ağrısı**. (**alçaq**: əsgik. namət) (**ulçaq**: kişi. mət).

-çəkini bilmək **ərdəmçilikdə baş söz**. (həddini bilmək, adamçılıqda birinci yeri tutur).

-kəsilən baş geri bitməz, son ökünüş assı edməz. (**son ökünüş**: son peşmanlıq) (**assı edməz**: fayda verməz) (**bitmək:** yapışmaq. qaynaşmaq).

-papağa baş tap, çarığa ayaq. (hər dəğərə, görəvə, işə, yerə, məqama, uyqun uyqarın tap).

-yaz olmasa, yağ olmaz, **dil olmasa, baş olmaz**. (**baş olmaz**: düşünmək olmaz).

-aşsız baş dolanmaz.

-baş dildən, qoy boğazdan **səmrər**. (**qoy** : qoyun). (**səmrər**: becərər).

-daş qatı, **baş qatı**, **baş** daşdan qatı.

-könül başdan, **baş könüldən su içsin**. (sinik sanıq birbirinə yoluxsun. sinik say sana bir birində tam qopmasın, ayrılmasın. (**sinik**: atifə) (**say sana**: hesab kitab) (bir başa maddəçi olmamaq).

-görməz yarın, **baş işləməz ac qarın**. (başı işləməz ac qarının, yarını açmaz).

-bizlərdə soru **'baş' deyil**, 'papaq'dır.

-yamanda yeğ aran, **baş verib börk almış**. (**yeğ aran**: iyilik gəzən) (kötüdən uman, götündə bulur).

-sorulsa söz baş şişər, sorulsa su, iç şişər.

-baş dartmaq:. danmaq.

-alcağlardan baş alan dursun, ulcağlardan daş alan. (**dursun: gəlsin**: yaşasın).

baş **1**.(# **bat**: dib). -**başından** girib **batından** çıxdı. **1**.mənbə'. sərçeşmə. **1**. dolqu **(**baş kimi girdə biçimli nərsə**). 1**. tərəf. **1**. ağıl. -**baş yetməz**: baş ərməz. ağıl çatmaz. **1**. uc. kəllə. -ucu **əğri** çivi. **1**. dolqa. **1**. təpə. **1**. (# **aş**. **as**: alt). yuxari..

-**qoşunun, səfin başı**: öngə. başsıra..

-**təpiyə, başa çırpma**: təpətiş. (sərzəniş. sərkuft)..

-**uçurum başı**: yar yaxa..

-**baş mürəbbi** :ataxan. (bir yerdə, işdə böyüklük, yönətçilik edən). müdür**..**

-baş bağıt: sər məqalə**..**

-baş şalı: baş üsdə salınan geyim. **çalma**.**.**

-qarabaş: {**1**. evlənməyib yaşam dura subay qalan kimsə. məsih din qulluqçularıda böylə yaparlar. **1**. (başlıqı qara olan). papas. keşiş. (qara başlıqlı kəpəngli (ləbbadəli) olanməsih din qulluqçuları)}**..**

-başı açıq: yalınbaş**..**

-baş ağrısı: başavur..

-**başı soyuq**: ayğal. (gəzib dolnşığında olan). səhlənkar**..**

-iki baş: ikit.qoşqa**..**

-başı ağzında: ağnağız. ağnağaz. həvərə. -**ağnağız** öğütmək: **ağnağız** basmaq: ağzına gələni söyləmək. çaxanlamaq. qozalamaq. koplamaq. laflamaq. boşuna danışmaq. gəzafə (< qozalağ) danışmaq. iğraq edmək..

-**başı bağlı**: başaq..

-**baş olsun**: şükr olsun..

-**adam başı:** sayca. sayalı. sayılı..

-**altın baş**. çox ərdəmli yordamlı olan..

-**atbaşı:** çiğin çiğinə, yan yana oluşanlara, gəlişənlərə, duruşanlara söylənir. (. -**atbaşı** sana durdular. -**atbaşı** duran ağaclar. -**atbaşı** gəlib, **atbaşı** qayıtdılar)..

-dərələr çatışarsada, **iki dağ başı** birbirinə çatmaz,.

-**topbaş:** iyi buğda çeşiti..

-baş hardadır, göt də orda. **(baş**: ağıl**)**..

-**başa girmək**: **başa düşmək**. anlamaq..

-**başı boş olmaq**: **boynu boş olmaq**: boş çağı olmaq..

-dildir ağzın qalası, dildir **başın** qadası **(**bəlası**)**..

-**ağlı başında**: anlı. tantıl..

-**başı dumanlı**: əsrik..

-**başı yuvar**, **girdə olan**: turmac. burnac..

-**başınla düşün**, börkünlə qonuş..

-**başdan sona**: əkin tökün. ilkin tükün..

-**başın qatmaq**: **(**öz başın qatmaq**)**. oyalanmaq. avalanmaq. məşqul olmaq..

-**(**birinin**) başın qatmaq**: oyalatmaq. avalatmaq. məşqul edmək..

-**başı soyuq**: savaq..

-**başı soyuq**: uçurt..

-**irəklə başla**: kəndi istəğiylə. canla başla..

-**baş açmaq**: baş yarmaq. böyük istəklə bir işə, nəyə qaçmaq..

-**baş götürmək**: baş kəsilmək..

-**gecə başı**: axşam..

-**baş sancağı**: saç qısqıç..

-bu **başa** gəl. -o **başdan** tut..

-**baş qamandır**: aldarqa. albaşçı. alyorqa. fəmandehi kull..

-**baş qatmaq**: toxlaşmaq. məşqul olmaq..

-**baş müdür:** atabay. atabəy..

-**başa salmaq**: anığlatmaq..

-qana qan, dişə diş, qola qol, **başa baş** demişlər?, deməmişlər?!..

-qan qana, diş dişə, qol qola, **baş başa** çalmaq **(**canla könüldən birləşdilər**)**..

-başdan eləmək: sovsalamaq..

-**sapbaş**: başı, ucu sapıq, əğri..

-**tək başına**: salıq..

-**ayrı baş çəkmək**: **ayırqaşmaq**: topluluqdan ayrılıb kəndi başına iş yapmaq..

-**baş konu**: çağıt. -başqa konuları bırax keç **çağıta**..

-**öz başına**: ayrat**..**

-ən baş: ən yuxarı. alqa. -**alqa duran** tanrım..

-**başı qaymaq**: başı dönmək başı gedmək. başı aylanmaq. başı fırlanmaq**..**

-subaşı: subay. subəyi. mirab**..**

-bilgəli baş, yük olmamış ayağa(**bilgəli** :ağıllı). -**bilgəsiz baş**, ağır yükmüş ayağa**..**

-atbaş: qurra. məğrur**..**

-baş kəsmək: kəllə uçurmaq**..**

-baş rəhbər: başqurğan. başöndər. böyük lider**..**

-başı kovlu: başı bəlalı**..**

-bibaşa: **bir başa**. bidilim. bidilimə**..**

-hər nəyin başı baştın. başda olan.

baş birinci. aldal. əvvəl. -**başay**: birinci ay.

-**boydan baş:** hamısı. -**boydan baş** birdir. altı üstü yoxdur.

-**göz görəni, baş sezsə**, könül çırpar, ayağ çapar, qol çalar.

-göz görəni, baş sezsin.

-göz görər, ürək əsər, **baş tələsər**!..

-**baş çanağı boş qalmasın beyindən**, qaraş olsa, güldə bitər peyindən. (**qaraş**: baxım. muvazibət. muraqibət). (**peyin:** pisgil).

-**baş edmək**: baş açmaq. düşünmək.

-**baş qoymaq**: uğraşmaq. məşqul olmaq.

-**baş verməmək**: saymamaq.

-**bir ağrıdır ağardır baş**, əridir daş!.

-**ilk baş:** ilk kərə.

-**ilki baş**. başlanqıc.

baş kəllə.-**yetənə, bir baş**, yetməzə, bir daş.

baş -könül susmaz, **baş durmaz..**

-çaqqal baş qoparır qurdun adı yamandır, atıb birbirizi ayrılmayın amandır..

-könül qalırsa qırqın, qaş oynamaz, **ayağ gedməz, baş gedməz**. (**qırqın**: küsük. küsgün). (dos kişilər ara, hər nədən öncə, könül alma ilkin önəm daşır. al dosduvun könlünü, düşman könlü partlasın)..

-**baş aşağı:** enikbaş..

-**baş çıxartmaq:** üz vermək. ariz olmaq. zahir olmaq..

-**baş götürmək:** baş qaldırmaü..

-**salıq başı**: xəbər başlıqları (sər xətləri) -**sözbaşı**: yazı, danışıq başlığı, titri..

-**başqa**. şəxsi. xisusi. -**başev**: **başqav: başqa ev:** apartman olmayıb, şəxsi ev. -başyaraq: xisusi vəsayil. -başqab: bir kişiyə özəl, məxsus qab. -başoda: şəxsi otaq. -**başqa** soru: xisusi məsələ. -**başqa sikorta**: şəxsi bimə. -**başqa** işlər: xisusi, şəxsi işlər..

-**baş altı edmək.** bastatmaq. başında, içində, ürəyində olanı, işlədiyində, davranışında göstərməmək, gizlətmək. -**baş altı edmədən (**bastatmadan) üzünə dedi..

-**qazıbaş. azıbaş**: acı diş..

-**baş qaldırıb**, tökmə təni, əli yarağa, ayağ dayağa, qayrat kanı, türk qadını!..

-**qara baş:** qaravı. qul. kölə. nökər. çəkək. keşik. keşikçi. qulluqçu. arançı. yarançı. yançı. yarçı..

-**baş sərkərdə:** bökəbuğ..

-**bəlalıbaş**: qınbaş..

-artıq baylıq, baş carpmaz. (çox sərvət qafa yarmaz, qırmaz. (artıq mal göz çıxarmaz)..

-**baş atmaq:** onaymaq. təsdiq edmək..

-baş aylamaq:baş dolandırmaq. aldatmaq. baş yozdurmaq. baş çaşdırmaq..

-**pisik kişi baş yumaz**, bitdən görər. (**pisik**: kəsif. kifir). (kifir adam başını yıxamaz, biti suçlu çıxarır)..

-göz görəni, **baş sezsin**!. (**sezsin**: anlasın).

baş böyük. -baş **biçi:** böyük hərf.

-**baş ağrısna arnalğan** darı. (**arnalğan**: məxsus). -sizə **arnalğan** sərgə (miz).

(**arnalğan**: məxsus).

-**qızılbaş:** şiə'.

-**baş yıkama:** baş yuyğuş. baş yuma. baş yuğuş.

-**danabaş:** koramal. heçnə qanmayan. qanmaz.

-**üst baş**: **üstbaş.** geysi. qiyafət.

-gözlə qulaq **qorsa baş**, **baş qoruyar** hər kisin. (**kisin**: **ikisin)**

-birlik sözdə isə baş kitirir, işdə isə iş bitirir. (**baş kitirir**: qafa qabardır, yozdurur.).

-**üst baş**: əğin eşik.

-başa yazı yazılmır, qazılır.

-bir yerdə yuxarı baş: çat. köşəbaşı. tör. (# **yat:** aşağı baş.). -buyurun **çata**.

-**salbaş**: ucabaş.

-**yat:** aşağı baş. (**# çat**: köşəbaşı. tör. bir yerdə yuxarı baş). -buyurun **çata**.

baş.

başa (başı cığalı, taclı.). **1**.**paşa**. tajlı. tacdar. başdaq. padşah. **1**. qartal türlü quş.

başa **1**. bir kərəlik. bir dəfəlik. -gəlirsiz **başa** gəlin. **1**. sonuncu. -bu mənim **başa** evliliyim olmayacaq.
-**başa gürəşmək:** birinclik yarışda olmaq. -o çox yarışlara qatıldı, ama **başala** (başa gürəşə) heç çağun çatmadı.
-**başa baş.** başdan başa. başdan sona. başdan ayağa. boya boy. əvvəldən axıra. (**baş:** axır).
-**başa qadanı** satın almaq. (kəlləsi üsdə bəliya gedmək).
-toxun başına bol yağar, **acın başına dol**. (toxun başına yağ damar, acın başına dolu).
-**toxun başına bol yağar**, acın başına dol. (toxun başına yağ damar, acın başına dolu).
-**başdan başa**: (**baş:** axır). başdan sona: başdan ayağa: boya boy. başa baş. əvvəldən axıra.
-**başdan başa**: başdan sona: başdan ayağa: boya boy. başa baş. əvvəldən axıra. (**baş:** axır).
-başa düşməyən, başarmaz.
-**başa, üzə çırpanın:** tanozlunun. minnətlinin. minnət qoyanın. **-tanozlunun bir gün duzun dadsan**, min il tosun çəkərsin (**tosun: pozun**. fosun).
-ağızdan çıxan başa qada, ağızdan girən içə qada.
-başa düşən işi başarmaq gərək, başarmadın daşarcaq **(**gərək). (yüklənirsə bir görəv sənə , başarıqla qılmalısın, yoxsa başından savmalısan). (bildiyin işə keç, bacaran yükə)
-yaşamı satın almamısan, günü günün ölçürsən. **başa gələn çəkilir**!
-bilən başa qalxdı, bilməyən yerdə qaldı (**qalxdı**: çatdı).
-bilməyib yerdə qalma, **bildinsə başa qalxma**.
-baha başa gələr: çoxa baxar.
-başa gürəş: başal. yarışın, yarışların sonuncu bölümü. birinclik yarış. final. -**başala qatılmaq**: baş gürəşə qatılmaq. finalda iştirak edmək.
-quşqun olub quyruq altına keçincə, **yüyən ol, başa keç**.

başa **1.**ağla.**-**dos var aşa, **dos var başa**.(aşados var, başados var). **1.**adama. kəsə. -**dilsiz başa**, necə deyim kişi mən!..

-**bizdə, başa gələnləri** göz görmədi..

-başa düşən iş başardı, **başa düşməyən** işdə batdı. (**iş başarmaq**:işi bitirmək)**.**

-başa gələn, mala gəlsin..
-başa gələni, göz görsün, baş duysun..
-başa qada, ayağa duzağ.(**duzağ**: köstək. bənd).
-bilən başa bir göz yetər. (**yetir** : bəs edir). {görən olsa, bir başa bir göz yetir (**yetir** : bəs edir)}..
-gözün **biri könlə**, **biri başa baxar**, onda iki ürəkli qalar, beləliklə göz qorxaq olar..
-**sözün başa salanmayan:** kütağız. kütağuz. küt ağız..
-az yaşa, ya çox yaşa, **sonunda gəlgir başa**..
-başa düşən iş başardı, başa düşməyən işdə batdı. (**iş başarmaq**:işi bitirmək).
-daşa dedim əridi, **başa dedim səridi**. (batsın belə bir baş ki ağızda dili yoxdu)..
-əğik başa, daş ilişməz.
-görən olsa, **bir başa bir göz yetir** (**yetir** : bəs edir). (bilən başa bir göz yetər) ..
-**işi başa düşüncə**, at suyu gəməli içmiş, iğit suyu çizməli keçmiş. (**işi başa düşüncə**: iş gərəkdiyində)

başa -**boydan başa:** əvvəldən axirə.
-qanığan aldı yolun, **vurdu daşa, çıxdı başa**, qanımaz boynu yoğun, başı qoyun, çatdı aşa. (**qanığan**: düşünən, dərk edən). (**qanımaz**: düşünməyən. dərk edməyən).
-**üç başa:** üçləb. üçləşib. üç baş olub. üç nəfərə. -**üçləb** olub çıx yola.

başa qata. qayta. bada. -bir **qata**. bir bada. bir başa. -bir **qata** içdi: bir bada içdi. bir **başa** içdi: bir **qata** içdi: -bir **qata** evə ged: bir başa ged..
-**baldırda bit, başa çıxar**. (baldırdaki bit başa da çıxar). (içi pis, işi kötüdən iyilik gözlənilməz). domuzu süfrəyə oturtsan, ayaqlarını süfrəyə qoyar)..
-**kişi başa gəldiyin yaşar**, dirənirsə, bükətlər aşar!. (**bükətlər**: (< **bük**) bətlər. mane'lər)..
-**dos başa**, düşman ayağa baxar. (baş ucalığın dosd istər, ayağ qaymasın düşman).

başa **paşa**. başər. baş > şah..
-**boya başa çatsın** (uşağa yarqış sözü)..
-könlə yatan, **başa çatar** (ürək tapanı, baş köklər) (ürək xoşlasa, ağıl köklər (dəlil tapar, müstədəll edər.) (könül sevən göyçək oli)..
-**başdan keçməz**, başa gəlməsin!.(**başdan keçməz**: xiyala gəlməz. ağla sığmaz)..
-**başa gəlməz**, başa gəlməsin!.(**başa gəlməz**: ağla gəlməz).

başa törgə. -**törgə çıxar**.

-**başa baş doldurmaq:** dolşqurmaq. doşqurmaq.

-biləqəy başa çatdı, bilməqəy yolda batdı.

-başa gələn çəkilir, başa düşmədən qaçılsın.

-başa gələn çəkilir, **başa düşmədən qaçılsın**.

-**boydanbaşa**:1. hammısı. -**boydanbaşa** kötülər. 1. tam vicudu. -**boydanbaşa** qın günaq içində.

-tanrı iki əllə **bir başa çırpmaz**.

başacan axıracan. (**baş:** axır).

başaç obaşdan. yasdan. yasdın.

başaçar bilən. başarlı. danişmənd.

başaçıq salmata. açıq. yuçut. sərbəst. salma. salman. səlman. saltabaş. salabaş. azad.

başada -işlək beyin, **dəğər vermiş başada**.

başaq **1**. **aşaq**. aşlıq. taxıl. **1.** basaq. başmaq. basmaq. ötük. **1.** baş. uc. **1**. şəxsi. -**başaq** işlərimə kimsə qarışmasın. **(**şəxsi işlərimə). -**başaq** qoşaqları: şəxsi vəsayilləri. -**başaq** evim: şəxsi evim. -**başaq ev**: şəxsi ev. -**başaq** qoşaqları: şəxsi vəsayilləri.

başaq **1**. hasıl. **1**. **(**başı bağlı**)**. **1**. bikr. bikiz **(**< **bük)**. əl dəğilməmiş. **1**. sümbül. **1**. bədii'. orijinal. -**başaq** əsər. **başaq** yol. **1**. yeni. taza. -**başaq** xəbər. **1**. yaxcı. ali. -çox başaq. -nə **başaq** mallar satan. **1**. hər nəyin ucu. **1**. yumurta. tuxum. -on **başaq**: on yumurta. **1**. (xuşə). **1**. kəllə..

-saman çox, **başağın az olduğu il**: samanili. -**samanilinə** düşdük.

başaqa **başağa**. **başuğ**. öndər.(pişəva. lider. sərdəstə. qaid. fərmandeh. rahnəma rəhbər).

başaqa və hakəza.

başaqçı **1**. xasaxor. hər nəyin yenisin, yaxcısı arayan. **1**. yeni cücərmiş başaq. boğurdaq.

başaqətirən başasalan. -qınc çoğunun **başasalan qınçılıqları**. (kəc fələk **başagətirən dərdsərləri**).

-**sözün demir qulunc olur**, deyir gülünc olur. (**qulunc**: sancı).
-**sözün düzün qalıb kim deyə**.

sözün -soraş, **sözün yarısı**, yanaş, **sözün barısı**. (düz sorqu (sual), cəvabın yarısıdır, düz cəvab, sözün hamısıdır).

sözün -sözdür kişinin gərəki görkü, **tutmasa sözün, yaramaz börkü**. (**görkü**: yaraşığı).

sözün -**sözün tutmaq**: və'dəsinə əməl edmək.

sözün -sözün qaqı qulaq yırtmaz, diş qırmaz. (**qaq:** bərk. möhkəm)
-sözün covhəri: **sözün** çiğrəsi. **sözün** cirgəsi. (**covhər. cövhər** < çiğrə. cirgə).

sözündə -**sözündə düz**: ondaş. düz danışan.

sözünə -qocanın qıçına, **cocuğun sözünə güvənc olmaz**. (qocanın gücü yox, cocuğun güvəni yox).

sözüntə **-**gözü gözündə, **qulağı sözündə**. (vurqun).

sözüntə -**sözündə duran:** aytqanın etgən.

sözüntə -**sözündə duran:** dediyin yapan. qovlun tutan. kəsir.

sözüntə **sözündə.** -**işində, sözündə durmayan**: dəğişən**.** daşınan.

sözüntə **sözündə.**-**sözündə açıq düşman**, yeğ durur, kitoz dosdan. (**kitoz**: iki üzlü)**..**
-sözündə durmaq: anda yetmək.

sözüntən -**sözündən qaymaz:** əhdindən dönməz.

sözüntən **sözündən.** -**kişi sözündən tanınar**, üzündən yox. (üzündən: bəzəgindən).

sözüntən **sözündən**. -kişi yapdığından tutulur, **dəli sözündən**, axmaq duyduğundan. (kişi işindən tutulur, dəli sözündən, axmaq duyğusundan).

sözünü **-**ölç aşıvın duzunu, **bil ağzıvın sözünü**.

sözünü -**"sevirəm" sözünü gətir dilinə**, sevirəm özünü görüt gözümə.

sözünü -**sözünü bilib söyləyən**, üzdən suyu tökülməz, yerin bilib tükətən, əldən malı tökənməz.(**tükətən**: xərcləyən.). (**tökənməz:tükənməz**: qutulmaz)**..**
-hər yetməzə **yazıqlama sözünü**. (**yazıqlama**: açıqlama. heyf eləmə). (**yetməz**: namərd).

sözütür **-**"doğrudur, doğru", **yalançının sözüdür**, "oğrudur, oğru", yalançının özüdür., "oğrudur, oğru", yalançının özüdür.

sözütür -umut dənizi istəkəndədir, **içənlərin sözüdür**, umut dənizi istəkəncədir, **umanların sözüdür. (umanların sözüdür**: umurluların, umutlu olanların, ümidvarların sözüdür) .

sözüvü -**bilən sözüvü ayt** (söylə), bilməz sözdən qayt (qayıd).

sözüvü **-**danışanda susmağı unutma, **susanda sözü**.

sözüvü -**dilivi qoru sözüvü yarat**, yavuz düşmanın bağrın qarat. (**bağrın qarat**: umutsuz, mutsuz eylə)**.**
-qoru gəzəyi dərmanda, **sözüvü demə hər yanda**. (**gəzəyi**: sırayı) (**dərmanda**: dəgirmanda).

sözüvü **-öz sözüvü batman tut**, yüngül otur, ağır uç. (**batman**: ağır). (**yüngül otur**: şişib oturma). (**ağır uç**: ağır, ölçülü davran, təprən).

sözüvü -**sözüvü dəğişmə**!: daşınma!..
-böylə dar tutma, **boğursan sözüvü**, açılıq, söz yaradır, hər gözələ söz yaraşır.

sözüz -**sözüz nə.** aydanız nə. deməliz nə.

sözüz -**sözüz nə:** aytınız nə. degiz nə.
-**arnal** sözüz varmı. (**arnal:** xas).

su **1**.**ək**. dəki. -ev oğru**su** tutulmaz: ev**dəki** oğru tutulmaz.**.**
-dadlı su, daşdan çıxar, yaxşı söz başdan.**.**
-qamış **sudan doymaz**, qadın toydan.**.**
-acı su: acus.araq.**.**
-dadlı su: süyüt.**.**
-suya batıb gedmək: **suya vurub gedmək**: yox olmaq..
-**suya axızmaq**: **suya tökmək**: **suya savmaq**: boşuna itirmək, satmaq.**.**
-suya düşmüş çörək tək: sürnük. bitgin. çox gəvşək, halsız. açıla qalmış.**.**
-suya çəkmək: aruvlamaq.**.**
-suyu başından kəsmək: işi bilənə tapşırmaq. -**suyu başından kəsseydin** işin böylə əngələ düşməzdi..
-**suyu belləmək**: suyun önün açmaq. suyu bıraxmaq.**.**
-sütdən ağ, **sudan tınığ**. (sütdən arığ, sudan duruğ). (tınığ: duru).**.**
-su süzmək: su axıtmaq. yuğmaq.**.**
-şor (**çor**) **su**: şorva. şorağ > şərab. pənir suyu..
-başqasının **suyuna** gedən: yumşaq. uysal..
-**bulağusu**: bulağ suyu. qaynağ usu. qaynağ suyu.**.**
-su götürməz, geri dönməz: üzülkəs. qəti'. kəsin.**.**
-kirtük su: **kirtüs**: pəsab..
-**arıq su**: tə'mid suyu..
-**assular**: yer altı sular. -su **astı** gəmi..
-**aş su**: yeyəcək içəcək..
-**aş su**: yeyim içim..
-**bir içim su**: çox gözəl qız, xanım..
-**su keçirməz**: sızdırmaz..
-**suyun bir yerə girəcək yeri**: suvacağ. **(# suyun bir yerdən çıxacağ yeri**: savacağ**)**..
-**bulğan suya yağ qatmaq**: qarışıq bir durumu, yumuşaq nərsəylə yatışdırmaq..
-**ət suyu**: suyup..
-**su bağajı**: dalba..

-**şor su**: şarov. şərov. acın. -pənir **acını**..

-**yersu**: ab o həva. -oranın **yersu**yu mənə düşmür. -bir **yersuyun** dəğiş, bəlkə ağrın dinləndi..

-**kökün sudan çıxartmaq**: başara bilmək: çöğlənmək. -**çöğlənə** bisən iyi olur..

-**böyük su qabı**: sulav..

-**su yolu**: avqın..

-yeri var **su** ilə **pambıq** olasın, islandıqca ağırlanasın, yerdə var **odla odun** olasın, yandıqca itiləsin**..**

-su : şəpir (şəpər, şəpə). ləpir.

su -dartışla yar seçilməz, **acıqlı su içilməz**. (**acıqlı**: çox şor).
-qar dağın**, su çuxurun tapar**.
-su sığırı: üzücü sığır. camış. (< **çimiş. çimgic**).
-**su damağından ötməmək:** su boğazından keçməmək: çox sıxıntıda olmaq.
-boylun boylun dağları, oylun oylun yolları, **saman asdan su qoyar**, daş altından od qoyar, yalan dunya yaman dünya. (**boylun**: uca. ağır). (**oylun**: buruq. dolambac) (**su qoyar**: su yeridər).
-**acı su**: şor su.
-biri susatır, **biri su satır**. (iş birdirlər).
-**su ilə yel qovuşdu**, dağ ilə daş pozuşdu, bir yağu yad küy saldı, elim elgə boğuşdu. (**yağu yad**: düşman elli). (**küy**: şayiə). {öz ulağun diri tutan, yad söziylə aldanmaz. (ulağun: xəbər yetirmə, ulatma aracların) (diri tutangözdə saxlayan)}.
-**su başdan ötmüş**: iş işdən keçmiş.
-qayğı qalxsa kişi batırar, **su qalxsa qayığ**.
-**lti su axını:** sal**. sel**.
-**su çanın küydürən il acı**, dəğirman çanın küydürən gün acı. (**çanın**: novbətin) (**küydürən**: yandıran).
-usuqmuşa, sağuq qamuğ **su görünür**. (susamışın, tam xiyalları suyu andırar). (**usuqmuşa**: **(us <> su)** susamışa) (**sağuq qamuğ**: tam xiyalları) (öz istəyini hər gördüyündə arayan kimsəyə söylənir).

su -**su axar yolun tapar**, külbaş gəzər çulun tapar. {**külbaş**: alçaq. alşaq (eşşək)}.

-**su daşı oyar, su daşı utar**. (gücün çatmazsa nərsiyə, su kimi çəpərlik, yumuşaqlıq göstər. (dağlar boyda qayalar, suya sığar).

su -**su gəlib axar gedər**, könüklünü yaxar gedər, bu dünya pəncərədir, hər gələn baxar gedər. (**könüklü**: armanlı. arzulu. həsrəti olan. həsrətli)..

-**su ösrür otu**, köçrür odu. (**ösrür**: cücətir. göyərtir). (**köçrür**: keçrir. söndürür). (əlində olan aracın, yaracın bilmək)..

-**ürəyi su üsdə**: ürəksiz..

-**od ilə su, əldə ikən yaradır**, əldən aşdı, biri yaxar, biri boğar. (**yaradır**: faydadı).

-**su hoban: su qıran: su dərən: su hopan: su hoban**: hovlu. hoplu. hoblu. hovul. hopul. hobul. qırım. qurutma.

su -**su görür balığa**, pişik görür, sıçana (çönür)..

-**axar su**, yerin tapar..

-**su kim içmək** (qolayca)..

-**axar su**, yerin tapar**..**

-gün kimi ışıyan, tün kimi yaşuran, **su kimi duru**, topraq kimi yasağun, ölü kimi dincək. nə olursun ol, oldunğn kimi görkən (görsən), görkəzin (görsətin) kimi ol. (**ışıyan**: ışıq saçan) (**yaşuran**: payan. örtən) (**yasağun**: Mütəvaze') (**dincək**: aram.) (**görkən**: görsən) (**görkəzin**: görsətdiyin) (**görsətin**: görsətdiyin)..

-**saman altindan su yeritmək**: eşib işləmək. bildiyin yapmaq. kələkli iş aparmaq..

-**su astıda**, islanmadan duranmaz. (**astıda**. altında**).** (tapmaca) (**daş**)..

-**arxasınca əllərin su atmışdı**.

su **suv**. mərkür yıldızı.

-dövük qab **su saxlamaz**. (dövük qabda su durmaz)..

-kişi dilin dansa, **su çox yatsa acar.**(**acar**: küflənər)..

-**su axar**, daş qalar..

-**su axar**ı ölən balığda gedir, diri balığda. (yaşamda hər üz var)..

-su gəldi çörəgi apardı**..**

-su olub yerə mandı: yox oldu. **(manmq. banmq**: nərsənin içinə qoşulmaq, batılmaq). (qarqış). -böyüdügündə, su olub yerə keçeydin..

-**su göğüsdən aşan son**, öykünüşdə nə kar var. (**göğüsdən**: köksdən. sinədən) .(**öykünüşdə**: peşmançılıqda).

-**ağac dibindən su içər**..

-dəgirman kəzin verən günacı, su kəzin verən, ilacı..

-**dəviyə su gərəkirsə**, boynun əgir..

-**su küzəsi, su sızdırar**. (ot kökündən içər, nə olduğun verər)..

-**su küzəsi, su sızdırar**. (ot kökündən içər, nə olduğun verər).

su -**tanrıdan su diləndik əkinə**, yağış yağdı sel endi yerinə (işlərin uğramazın göstərir)**.**

su **-**yağlı küyzə **su yokmaz**. (**küyzə**: küzə). (**yokmaz**: yoluğdurmaz. sızdırmaz).

-güvən güvəndən su içər, qamış boğundan.

-keçmiş tökülən su, qayıtmır geri, keçmişin yeri yaşamda deyil.

-çoğra su: coşlu. coşğan. qaynar su.

-su görməmiş, dartınma. (soyunma).

-durunmadan iş bitməz, **su yağmadan ot bitməz**. **(durunmaq:** başlamaq. təşəbbüs, iqdam edmək).

-könül başdan, **baş könüldən su** içsin. (sinik sanıq birbirinə yoluxsun. sinik say sana bir birində tam qopmasın, ayrılmasın. (**sinik**: atifə) (**say sana**: hesab kitab) (bir başa maddəçi olmamaq)**.**

-sorulsa söz baş şişər, **sorulsa su, iç şişər**.

su -**birin ötən su arxdan**, mində sonra ötər su. (bir su ötgən arığdan, minğ yıldan sonğ da su ötər). (bir kərə su axan arxdan, genə günü gələr axar su). (uzaq olsada devran dönür, gəzək genə bizə düşür. (**gəzək**: sıra. novbət). (olasıya görə, bir kərə olan nərsə, min kərə ötsədə, minincidə olasıdır, mümkündür). (**olasıya görə**: ehtimalata görə)
-**arxdan su kəsildi** saçaqdan çörək. **(saçaqdan:** süfrədən)
-**arxdan su kəsilməsə** saçaq çörəksiz qalmaz. **(saçaq:** sü'frə)
-aralarından **su sızmaz**, qıl ötməz. (birbirinə çox yaxın olanlar)
-**qaynar su töküb üzdən pişirmə:** frıqlama. pöşləmə.
-**od su**.
-**su daşqını**. sel. -**qıratqan** sel. -**qıratqan** su daşqını.
-**yağtı su**: nazü ne'mət.
-tin tinindən, tən tənindən **aldı su.**

sual -**sorğu sual**: soruşdurma. dindirmə. sorğu sual. təhqiqat..
-**sual cəvab:** sav sov. dindiriş**.** porseş pasox..
-**suval**. **saval**: soray. -savala yarasa yanıt: uyqun cəvab..
-**ələməti sual**: sorğac. sorac. soru **(**sorağ**)** simgəsi, bilgəci.

sual. sorağ: **.-acı sorağ verib**, süycü yanıt qarşama. (**süycü**: gözləmə).

suambari **su ambari**. sutaq. sərdaba.

suambari sutaq.

subar amin.

subaşı subay. subəyi. mirab.

subay : boydaq.

subay **1**. subəyi. subaşı. mirab. **1. (su**: qoşun + **bəy**: rəis**)**. fərmandeh. **1**. boydaq. botaq. bekar. mücərrəd. **1**. boytaq. bekar. mücərrəd. **1**. ərkən (ərlikdə (ərliyə) olan.). qadınsız kişi.

subay açıq. boş. bekar. əşsiz. -**açıqlar**: subaylar. işsizlər. bekarlar. -**açıqda qalmaq**, **yaşamaq**: subaylıq keçirmək. -**açıq tutuq**: evli evsiz**.**

subay ərgən. ergin. bekar.

subay **-subay gözü** pişik tükün xəz görür.

-subay gözü, kor gözü. (subay gözü ilə, qız alınmaz).

subay **suvoy**.

subay boydaq. mücərrəd. əzəb.

subaya **-subaya qarısın** gündə boşar. (subaya boşamaq bilməz nədir).

subəyi subay. subaşı. mirab.

sucarmaq suya düşmək. -yemişlər pişib **sucarıb.**

sucartmaq suya salmaq. -**sucartıb** qaynatamaq.

sucuq süycük. üzüm şirəsi və nişasta ilə hazırlanan bir çeşit dadlı..
-**qızıl sucuq**: sücü. boza. şərab..
-**sucuq ata** (socuq ata): dadlı, şirin, könlük, sevimli ata, dədə.

sucuqmaq **1.** su yığışmaq. **1**. dodaq qırasında çıxan sulu, qaşınan qabar. **1**. (**sulu**: gözəl. dadlı). dadlanmaq. şirinləşmək.

sucuqu -**qurutulmuş ət sucuğu**: kədit. qaqıt.

suç **1**. günək. günə. günah. -**günəm** nə?. -**günəli**. -**günəsiz**. **1.** səkə. günah. -nəyimiş səkəm.

suç **1**. sapat. **1**. yaxal. içi, vicdanı yaxan, incidən nərsə. günah. **1**. bur. burğ. (düz yoldan). sapıq. xəta. yanlış. iştibah. səhv. qələt. -mənim **bur**: mənim günahım. -mənim **burum** nədir: mənim xətam nədir. **1**. çor. cürm. **1**. **azığ**. günah**.**
-ağır suç: qınta. cinayət..
-**çox ağır olmayan suç**: qıntıc. cünhə.

suç saçmalıq. sayalıq. sadəlik. -pulun gücün bax, **elin suçuna**! (**suç**:).

suç -**suç boyuna mindirənlər.**

suç yanqıç. yanılqı içində bulunan**.**
-duyan qulağda **suç olmasada**, suçlanar.

suç yazığ. güna. -**yazığı** keçilməz : günası bağışlanmaz. -**yazığım** nəyimiş mənim: günam, suçum nəyimiş mənim. -**yazığ çevirmək**: günah işləmək. :.

suça -ökünlük duyar **suça yaxılmaq**: peşmanlıq gətirən günaha tutulmaq.

suçal basma. suvat. ırmaqdan, axardan su götürmək, malqara suvarılmaq üçün düzədilən yer. -**suvatda** malqara suvarılar, paltar yuğular.

suçəqən **su çəkən**. sudərən. su qurudan. çıpıt. sorğuc.

suçiçək abiləmurğan

suçlama -ağzıva çatmır, **dişi suçlama**.

suçlamaq **1**. atarlamaq. ayıblamaq. ləkəmək. **1**. burulamaq. burqulamaq. yazğılamaq. müttəhim edmək.

suçlanar -duyan qulağda suç olmasada, **suçlanar**.

suçların -**suçların qabası**, kəndini danmaqdır. kəndivə inan, kəndivi qına, güvəncli ol!.(**qabası**: ən kötüsü)**.**

suçlu azuq**..**

-çox suçlu. kirtük. günəhkar**..**

-suçlunu tapmaq: çəkəvalmaq.

suçlu yanqaç. yanılqıçı. yanlış yapan.

suçlu yazığlı. günalı.

suçlular -**heç doğmamış suçlular** (yoxsullar).

suçlunu -bir suçsuzu tutmaqdansa, **bir suçlunu bıraxmaq yeğdir**. (qanıtlamada aşırçılıq sonucu). (yavaş atıl, o yandan düşərsən).

suçmaq yazmaq. azmaq. günah işləmək.

suçsuzü -**bir suçsuzu** tutmaqdansa, bir suçlunu bırxmaq yeğdir. (qanıtlamada aşırçılıq sonucu). (yavaş atıl, o yandan düşərsən).

suçu **-dilin suçu yox**, dildə yalan yox. (otuz iki qalalı dil var olsun. iki qulaq arasında oturan yalançı baş yox olsun). (**otuz iki qalalı**: otuz iki qapılı. hər diş bir qapı).

suçu -**qoyunluq suçu**, qoyunçuda yox, boyunçudadır.(**qoyunluq**: tabe'lik. müti'lik).

suçuq günah.

suçuşmaq uçuşmaq. buruğ, suç, kötülük, günah, qəbahət işləmək. burquramaq. burqurmaq. **(**doğru yoldan **burulmaq**, **sapmaq)**. çərtmək.

suhan **< süyğan**. türkmənlərdə dadlı türü.

suqab susaq.

suqağ quş yarasa.

suqalan şarlama. şarlavuq. şağıratma. şəlalə. çavlan. abşar. gurgur.

suqar **suğar** < **çuğar** (< **çulqar: çulqayan**). palan. səmər. -**çuğar palan:** çulçuğar.

suqar **suxar**. **soxar**. (< **sox**: şiş). (şişdə pişilmiş, qızarılmış). qızartma. kabab.

suqari **suxari**. **soxari**. (< **sox**: şiş). (şişdə qızarılmış). xasa. qızarıb qurumuş. kəbabi. -**suxari** toyuq. -**suxari** çörək. -**suxari** yemiş. -**suxari yemiş**: ağac üsdə yetişib, qızarmış meyvə.

suqarıtmaq **suxarıtmaq**. **soxarıtmaq**. (< **sox**: şiş). (şişdə pişilmiş, qızarılmış). qızartmaq. kabablamaq.

suqaş **suğaş**. qusl.

suqat **suğat**. yutay. oğtay. yoş (**yoğş**. **yoğuş**: yuvşaq. şol.). > xoş. şən (şəng) < çağ. çanğ. {bu sözlərin hamısında yuuşluğ, yumşaqlıq, oğuqluq, boşluq saklıdırlar}.

suqəri -**suxəri çörək, lavaş:** yala yufa.

suqnak(fars) **< sağınaq**. ağlamalı. ağlanacaq.

suqnaq **suğnaq**. **yuğnaq yunaq**. **sunaq**. hamam.

suqunmaq **suğunmaq yuğunmaq**(yıkanmaq). (suğa sinmək, sınmaq, batmaq). çimmək.

suqur **suxur**. **çuxur**.

suqurutan **su qurudan.** su çəkən. sudərən. çıpıt. sorğuc.

suquşu -**bir su quşu adı**: qaranaz.

suqvari < **sağruq**. matəm. yas. -**sağruq sağmaq**: yas tutub oxşarıb ağlamaq.

sulaq **sulağ**. **şolağ**. boş. kəvək.

sulaqsın **sulağsın**. sulğasın. sulumlu, bərəkətli olsun. bərəkət versin. uğurlasın. uğurlasun. boluğlasın. oluğlasın. -biz yeyib azaltdıq, özü **uğurlasun**.

sulama sudarış. sudartış. abyaryi.

sulamaq tavlamaq**.** tovlamaq.

sulanaraq -**sulanaraq şeh duruma gəlmək**: keşəlmək. -yağışlıqda geyim, parça **keşələr**.

sulanmaq gönənmək. könənmək.

sulanmaq uslanmaq. islanmaq. əzlənmək. yumşanmaq.

sulanmış -**beyinləri sulanmış**, qafaları kütləşmiş, içərləri hislənmiş.

sulanmış -**sulanmış nərsə**: solap (< **sulanmaq**). **1**. -**sulanmış**, **yumuşanmış nərsə**: kövnü. köhnü. kövün. -**kövün qoğun**.

sulantırmaq **sulandırmaq**. **1**. uslatmaq. ıslatmaq. əzmək. öldürmək. yumşatmaq. **1**. öldürtmək. yumuşatmaq.

sular -**ağır sular**, lam axar**..**
-dərin sular, dinc axar**..**
-zinə sular, çay olar.

sular -**axar sular durar olsa ısqanar**. (**ısqanar**: iylənər).

sular -**bulağa varsa, sular dinər**, düğünə varsa, yırlar.(**kütayaq**.pisayaq. ayağı yümlü olmayan. qutsuz. baxsız.). (**yırlar**: çalçağır)**..**
-ağ sular çöndü qara suya, basdı veyranı.

sular -dağları **boylatan sular:** dağları aşan, cumduran, çulqan sular.
-ördək uçar qağıldar, **aşan sular çağıldar**. (**qağ:**ördək səsi).

sular **-**qopun qopsa. -dərya qurur, **sular çəkilir**, ay gün tutulur, ıldız tökülür, yekə dağlar ərir, yer göy yıxılır. (**qopun qopsa**: qiyamət olsa).

sular **-**soyuq girsə arıya, **ipək sular qat olur**, tam istilər yad olur.

sulatı ıslatma. sulatma. işlətmə. işləti. sürgi. müləyyin. müshil.

sulatı surəti. çırğay. çırağuy. çahrayı. üyzün. (> üzün).

sulatma ıslatma. sulatı. işlətmə. işləti. sürgi. müləyyin. müshil.

sulav **1**. böyük su qabı. malqaranın içməyi üçün qoyulan su qabı. **1**. şolba. şolva. tiltə.

sulcuq dadlı yemiş pişmişi. kampot.

sulqasın **sulğasın**. sulağsın. sulumlu, bərəkətli olsun. bərəkət versin. uğurlasın. uğurlasun. boluğlasın. oluğlasın. -biz yeyib azaltdıq, özü **uğurlasun**.

sulqu **sulğu**. hovlə.

sulqu suluq. culqu. qətifə. hovlu. hovlə.

sulluqun **sulluğun**. **-sululuğun (sulluğun. gəncliyin) itirmək**: yavanmaq. xərab olmaq. qocalmaq. -iki ildə nə **yavanmış**. -sən görən indi **yavanıb** gedmiş.

sulu **1**. cıpcıq. cıvıq. sıvıq. suyuq. çox sulu, boş olan. **1**. usarəli. **1**. önlü {< **ön**: üz. **(# önsüz**: çirkin**)}**. gözəl. qəşəng. sövül. sövməli. **1**. yoşaq..
-**sıvıq** danışmaq. **sıvıq** davranmaq. iti, açıq, sinsidici, alçaq söz, qılıq..
-**sulu qar**: çalaqar. alaqar**..**
-sulu üzüm çeşiti: köhnü. kövnü. kövün..
-**içi sulu şiş**: suluğ. qabar.

sulu bulanğır. bulay. bələşgən. yapışqan. -bu **bulay** sorudur.

sulu **-göz giləsinin yerləşən sulu torbası** sökülmüş, tökülmüş kor: soğur. **{-**qara daşdan, **soğur gözdən yaş çıxmaz}**.

sulu ısqın. ıslaq. -**ısqır** bulut. -**ısqır** gözüm qaldı: yaşlı gözüm qaldı.

sulu -**ürəgi sulu:** xoş. arxayın. -belə çox **ürəgi sulu** oturmusuz!. -çoxda **ürəgi sulu** deyiləm.

suluq hovlə.

suluq sulqu. culqu. qətifə. hovlu. hovlə.

suluq **suluğ**. gözəl. xoş. -**suluğ** günlər:. gözəl günlər. xoş günlər. -**suluğ sılığ**. : **suluğ ıslığ**. gözəl sıcaq. -**suluğluq sılığlıq**. gözəllik sıcaqlıq.

suluq **suluğ**. içi sulu şiş. qabar.

sululuqtan **sululuqdan. -sululuqdan, yılılıq:** (üz görkündən, ılıq davranış, yumuşaq, sevik qılış yürüş). (görgü, üz gözəlligindən, qılıq sıcaqlığı yeğdir). (ılılıq, cana qılıq: xuy gözəlligi, can dərmanı). (qılığ gözəlligi (sululuğu, yumşaqlığı) qat qat, üz gözəlligindən xoşdur)**.**

sululuqun **sululuğun**. **-sululuğun (sulluğun. gəncliyin, təravətin) itirmək**: yavanmaq. xərab olmaq. qocalmaq. -iki ildə nə **yavanmış**. -sən görən indi **yavanıb** gedmiş.

sulumlanmaq arımaq. səfalanmaq.

sulumsuz yaramaz. bəğənilməz. xoşa gəlməz. -**yaramaz qılıq**: xoşa gəlməz rəfdar.

sulun -**yazdaki sulun özürgəli**, evdəki toyuq ötürmə. (**özürgəli**: gözürgəli. havasına düşəli.) {çöldəki sonaya (qırqavula) göz tikərkən (istəyib, seçib bəğənərkən), evdəki, əldəi toyuğun ötürmə}.

suluvluq gözəllik. -bir suluvluq sığalar önündən: bir gözəlik oxşanır **(**cilvələnir**)** qabağından.

sumaxbalan savrıc. pişirilən nərsənin suyun savırmaq, ayırmaq üçün deşgig qab. süzgəc.

sumka əl çantası. çanta. əl kifi. bağca.

sun **sun**!. dart!. ver!.

sunaq **yunaq**. **yuğnaq suğnaq**. hamam. < .

sunamaq **<> sunmaq.**

sunca (sunmağa dəğər). nərsənin ən yaxcı tikəsi.

sunculağ daş çanqıllı yer. -sunculağ yerə düşdük axşamıdı.

sunqu **sunğu**. (sunmaq). **1**. mohibət. ne'mət.

sunqur **sunğur** (**sunmaq**). {sunulmuş. göz önünə qoyulmuş}. **1**.vali. **1**.yelli. şişmiş. mütəvərrim. **1**.qurra. **1**.qabarıq. bərcəsdə. **1**.gözəl. şik. **1**.göz tutan. çəşmgir. **1**.mümtaz. **1**.layiq. səzavar. **1**.adlım. ünlü. **1**.(mücəllel. dirəxşan).

sunquş **sunğuş**. (sunmaq). peşkeş.

sunmaq **<> sunmaq.**

sunmaq **1**. {# **sünmək**. (**sümmək**): yığılmaq. daralmaq}. uzanmaq. **1**. qoyulqatmaq.

sunmaq tutmaq. təklif edmək. mə'ruzə edmək. -qonaqlara yemiş **tutun**. -sevən sevilə gül **tutmuş**. -sınağın yazıb sınaçılara **tutdu**.

sunmaq uzatmaq. vermək. təqdim etmək

sunmaq usunmaq. önərmək. pişnəhad emək.

sunulan -**sayılan sunulan.**

sunuluş təqdimat.

sunuş **1**. sərgəş. iraə edmə. numayiş edmə. **1**. təklif.

sunuş usunuş**.** önəriş. pişnəhad ediş.

suot **suvot**. suda bitib yaşıyan göy, göyək.

sup **suyup**. boş yemək.

supaş suyuq yemək.(**qoyaş**: quyuq yemək).

supsıramaq **supasırmaq**. sulanmağa üz tutmaq.

sur **-sur düdüyü, şeypuru**: dur düdüyü.

surax (fars) < **çuvaq (< kov)**. dəlik. hüfrə.

surax **1**. **{surax** (fars)}. **< soxal** (qoxulann yer **< soxmaq**). deşik. dəlik. baca. **1**. < sürək. baca.

suraş **sürəş**. kıronik. müzmin.

suraşmaq **sürəşmək**. **1**. sürsürəşmək. silsiləşmək. ardaşmaq. sıraşmaq. ard arda sürmək, gedmək. dizişmək. düzüşmək. **1**. şənlik, şadlıq edmək.

surat surət. sat. (**sart**). -**satlı**:surətli. -**satsız**:surətsiz. -**satın** gizlət:surətin ört. -**satın** görcək, ürək gedmiş. -**sat surat.**.
-şəkil surat: **şəkil surət**: **şəkil surat**: sın sıyağ.

surət hesab saybat **(say bat** < **say bet)**. **(**< **say**: hesab + **bet**: üz**)**.

surət **sırıq**. nərsənin dış biçimin, görnüşün çəkmək, cızmaq..
-**şəkil surət**: **şəkil surat**: sın sıyağ.

surqa **surğa**. (< sürmək: axıtmaq) ahəng.

surqac **surğac**. ahəngsaz. bəstəkar.

surqatmaq **surğatmaq**. (< sürmək: axıtmaq) ahəng düzəltmək. bəstəkarlıq edmək.

surna **sürüng**. **> zırna**. uzun qollu çalqı aracı.

suru -**sarı suru**.

surur -**cəşni surur**: şölən sürən. coşna sür. toy büsat. toy qonaqlıq.

surut **surud**. aytır. sözlü mahnı.

sus **sust. gəvşək**. **1**.kasad. -**susd** alver: ağır gedən bazar. -**sus** kimilə yola çıxsan, yoldan qoyur.**1**. yavaş. -**sus** kimilə yola çıxsan, yoldan qoyur.

sus **sust**. gəvşək. -**sus** alver: ağır gedən bazar. -**sus** kimilə yola çıxsan, yoldan qoyur. -**sus** boya. -**sus sarı**: açıq sarı.**.**
-sus payı: ağız tutamağı. həqqi sikut.

sus! **1**. tutun!**.** saxlan!. dinmə!. **1**. ust!.

susa -böyü, böyüklüyə tutulma, **susa, dənizlərə utulma**, düşün, düşüncəyə uçunma!. (**böyüklüyə tutulma**: qurralanma). (**uçunma**: məhv olma).

susa **suysa**. (**şüyşə**). dümdüz. düpdüz. düpədüz. samsap. samsaf. sapsaf.

susaç **sasaç**. abbaş.

susaq **1**.**ussaq** > **usaq**. yanğan. təşnə. ətşan. -**usaq** dodaq: təşnə ləb. **1**.suqab.

susamaq yanqamaq.

susamışa **(us <> su)**. usuqmuşa. **-usuqmuşa**, sağuq qamuğ su görünür. (susamışın, tam xiyalları suyu andırar). (**sağuq qamuğ**: tam xiyalları) (öz istəyini hər gördüyündə arayan kimsəyə söylənir).

susan **-**bilib danışan, **bilməyib susan**, qızıla dəğər. (**dəğər**: bədəl).

susan -toprağlıqda əsməyən yel, odluqda **susan yel** yaşasın.

susanta **-**danışanda susmağı unutma, **susanda sözü**.

susar tinər.-könül qanıt bilməz. **könül ya dinər**, ya sevər, ya söyər(könül dəlil, məntiq bilməz, könül ya susar, ya istər, ya nifrət edər).

susar **-**utlu, **utundan susar**, utsuz, susdurdum sanar. (**ut**: **uy**. həya).{əkili, əkidən **susar**, əkisiz, susdurdum sanar. (**əkili: əkitli**: ədəbli. tərbiyətli)}.

susatan susutan. susatğan. yanğıtan. təşnə, ətəşli edən. -**usutan** günəş qapsadı.

susatır **-biri susatır**, biri su satır. (iş birdirlər).

susatqan **susatğan.** susutan. susatan. yanğıtan. təşnə, ətəşli edən. -**usutan** günəş qapsadı.

susav susuz.

susavan **susəpən**.

susəpən **susavan**.

susıq **susığ.** dolça. dolğav.

susqa tişnə.

susluq sölək. çölək. rixvət. -aclıq **çölək**, toxluq törək. (**törək**: dölək. bolaq. gölək. olqun. çıxarlı).

susluq yuxalıq. -**yuxalıq** eləmə.

susmaq **-**əkdim əl verməz əkdisizlik edənə, **susmaq ən gözəl yanıt**, əkdi əldən gedənə. (**əki**: **əkdi**: ədəb. tərbiyət)**.**

susmaq **-**söyləmək gümüşsə, susmaq süm altun. {gəpləməklik gümüşsə, gəpləməzlik süm altun. (**süm**: şümş)}**.**

susmaq **-susmaq danışığa yol açmış**, danışmağa yok.(danışığa: barışa).

susmaq **-susmaq nədir** (nərə çatır) ?: -ölüşgəmək. ölsərmək. ölmək. batmaq. yoxolmaq.

susmaq tısmaq. tıslamaq (nərsiyə qarşı).

susmaq tutulmaq. -**tutulub qalmaq**: susub qalmaq.

susmaqı **-danışanda susmağı unutma**, susanda sözü.

susmaz -**könül susmaz**, baş durmaz.

susmuş -**uysul susmuş**, uysuz susdurub sanmış. (uylu utanıb çəkinmiş, utsuz, çəkindirib demiş). (uylu utanıb susar, utsuz, susdurdum sanar). (ədəbli susmuş, ədəbsiz, susdurdum demiş, sanmış). {**uy**: **ut** (ədəb. utanc. həya)}.

sussam -söyləsəm izgəsi yok, **sussam könül onqay değil**. (söyləsəm tə'siri yok, sussam könül razı değil).

sust **1**. sısqa. **1**. uyuşuq. ıslaq. təmbəl. **1**. ərin (< **ərimək**). kahal (**< kav**). loşağ. halsız. **1**. şol. (**boş**). **1**. **sus**. gəvşək. -**sus** alver: ağır gedən bazar. -**sus** kimilə yola çıxsan, yoldan qoyur. -**sus** boya. -**sus sarı**: açıq sarı.**1**.uyğaş. yuxulu.**1**.yalığ. boş.

sust **sus. gəvşək**. **1**.kasad. -**susd** alver: ağır gedən bazar. -**sus** kimilə yola çıxsan, yoldan qoyur.**1**. yavaş. -**sus** kimilə yola çıxsan, yoldan qoyur. **1.** yayaz. yalkav (yaykav).

sust -**sust təprəşmə:** ərincək olma. (tutarlı, qayın (müsəmməm, ciddi) ol. (batman otur, yüngül dur). (bulut olsan yoldaş olar yel sənə).

sust yuxa. (**yoxa**).

sustalmaq boşaşmaq. gəvişmək.

sustuqumta **-susduğumda içimdəsən**, qonuşursam dilimdəsən, sən ki mənim hər yerimdəsən, arır əllər boş qalır ancaq.

sustuqun **-**danışdığın qanan, **susduğun bilər**.

susturtum **susdurdum .-**utlu, utundan susar, **utsuz, susdurdum sanar**. (**ut**: **uy**. həya).{əkili, əkidən susar, əkisiz, **susdurdum** sanar. (**əkili: əkitli**: ədəbli. tərbiyətli)}.

susturub -uysul susmuş, **uysuz susdurub sanmış**. (uylu utanıb çəkinmiş, utsuz, çəkindirib demiş). (uylu utanıb susar, utsuz, susdurdum sanar). (ədəbli susmuş, ədəbsiz, susdurdum demiş, sanmış). {**uy**: **ut** (ədəb. utanc. həya)}.

susuq **1**. ağız açmaz. ünü çıxmaz. dinməz. **1**. usuq**.** susuz qalmış. təşnə. ətəş.

susuq səssiz. sakit. **-susuq pişik**, avlağan olur.

susursam -söyləsəm daşdı tutamaz, susursam, könül cıdamaz. (**cıdamaz:** dözməz). (deyirəmsə, qanmazdı, anlamır, demirəmsə ürək dözmür). (tanrım kimsəyi düşünməz ilə, küt ilə salmasın, tuş edməsin).

susutan susatan. susatğan. yanğıtan. təşnə, ətəşli edən. -**usutan** günəş qapsadı.

susuz (**su < >**. **us**). **1**. ussuz.usuz. təşnə. **1**. çor. yanıq (yanqılı). **1**. susav..
-**şor, susuz topraq**: kitir. kəvir.

susuz **-susuz yerin otu yiyəsiz**, ərsiz yerin malı yiyəsiz.
-**susuz qalan topraq çatlaq**, gücsüz qalan yaltaq olağay. (**olağay**: ola bilər).

susuztan -üzün saxla **üzü susuzdan**. (utun qoru utsuzdan). (yamandan gördüyün yetər, görkəzməyin istəmə).

sut ısğırıq. sığıl. ısğa. fışqa. ıslıq. səfir.

sut **sud**. asıq**.** qazanc. -**artış asıq**: izafi sud.

suta -**axar suda**, kir qalmaz.

suta **suda.** -otda yanmaz, **suda çaxmaz** (tapmaca) (hələ buracan tapılmayıb).

sutaq **sutağ**. **1**. ədl. -**qutağ sutağ**: ədl fəzilət. **1**. sərdaba. su ambari.

sutan **-**qan sudan ağır basar. (qanla su ölçüştürüləməz).

sutan -**sudan dönmüş, buz olmuşlar**, buz balta kəsik, daş olmuşlar.(bu söz, ürəklərin daşa dönməsindən danışır.).

sutan **sudan.** -qarpuz qabuğuyla böyüyən eşəğin **ölümü, sudan olur**.

sutan **sudan**. **-**varlılıq süt gölündə yüzdürər, **yoxsulluq, acı sudan üzdürər**. (**acı su**: şor su).
(**acı sudan üzdürər**: acı suya nisgilli qoyar, yoxsul qoyar).
-baxma buzun sətliyinə, oda sudan olmuş.
-**balıq küsürsə sudan**, yaşam köçər ondan.
-canı kişinin hovadan, **balığın canı sudan**.

sutan -çalğa sudan balığ tutmaq. (**çalğa** > **çamra.** bullanığ. lil).

sutan -**ölü keçi sudan qorxmaz**, od yanmasa tüstü qopmaz.

sutan -sudan dağsa dayanma, göz yaşına inanma.

sutarış **sudarış**. **sudartış**. sulama. abyaryi.

sutartış **sudartış**. **sudarış**. sulama. abyaryi.

sutatır **sudadır**. -**balığın canı sudadır, ylığun canı dildə**. (**yalığun**: insanın) **(**kişi, içsəl, ruhsal yaşamın, dil ilə, söz ilə yaşadır. dil, söz, kişi üçün, balığa su yerindədir**).**

sutay **tutay**. duruşma. məhkəmə. -**duruşmanı** ertələmək: məhkəməni sonraya bıraxmaq.

sutərən **sudərən.** su çəkən. su qurudan. çıpıt. sorğuc.

sutopu vaterbal

sutul suvul. sətil. dolça. kova.

sutum nərsənin dış böyüklüyü. bədən. tən. gövdə. **(# tutum**. nərsənin iç böyklüyü. zərfiyyət. həcm**)**.

sutun **1**. < **ostun**. (< **osmaq**: qalxmaq. dikəlmək). **1**. çağul. colomn. -üç **çağullu** kağaz. **1**. sökə. söyək. (**< söykənmək**). dayaq. paya. **1.** ardal. arğı. (**arğdal**). (< **arx. ard**). dirək. **1**. dal. -**baş sutun**: başdal. -**yan sutun**: yandal. -**baş sutun**: başdal. **1**. dirkə. dayaq. paya.

sutun batur (yerə batıb düz duran). çadır dirəyi. əmud.

sutun -**kəşov kəşov, sutun sutun edmək:** keçovlamaq. xətləmək. sutun çəkmək.

sutun **sütün**. **situn**. sağa. nərsəyə dayaq olub sağlayan, saxlayan.

sutunu omuru. omurqası. təməli.

sutur **(**< **tutur)**. çalaüz. siluet. nim rox.

sutur **sudur**. **-**biləgi topla, **havadır sudur** oddu topraq işləgin. (**biləgi:** əməli bilgi. təcrübə:). **(biləgi topla: biləgi edin**: təcrübə qazan). (**işləgin**: işlədiyin maddələr).

suv <> **sıv**.

suv **-**əroğlunu söz pozar. donla daşı suv pozar. (kişi sözündə durduqca dəğərlənər, "parça, daş" su altında yeyilib, əriyər, pozular).

suv **su**. mərkür yıldızı

suv **suy.** davranış. tüvarış. xulq. xuy.

suva **sıva**. aralıq. açalıq. məsahət. səth.

suva suva!. sürtə!. sürgə!. sürə!. sürt!. dürtə!**.** yax!. -başıva yağ **dürtə**.

suvacağ suyun bir yerə girəcək yeri. **(# savacağ**: suyun bir yerdən çıxacağ yeri**)**.

suvaq **1**. sivək. > civək. civə. cüvə. **1**. **suvax**. suyuq. ərişgin.

suvaq arx. kanal. gəzit..
-ağ suvağın (**boyanın**) **astından** (**altından**) **qara suvağ**: astar.

suvaq **suvağ** (**su+ bağ**). su bəndi.

suvaqı **suvağı**. **sıvağı**. üzdən. üsdən. üzəki. ələki. yalpaq. səthi. -**üsdən görü**: səthi baxış.

suval **saval**. **sual**. -savala yarasa yanıt: uyqun cəvab.

suvalan su alan. suvarılan. -**suvalan** suvağ pöggürümuş. ().

suvalmasa **-tarla suvalmasa quruyar**, quru qalsa, qurudar. (kişi varlığı tarıq (əkinəcaqdan) asılıdır).

suvam dəvam. -**suvam** verin. -**suvam** olmaz: dəvam olmaz. -yaşamın eygiliklə **suvam** verdi: dəvam etdi. -bu olayın **suvamın** gör. bu hadisənin dəvamın gör. -gec **suvamı**, ertinə ular (gecənin dəvamı, əlbət ki səhərə çıxar). -**suvamında**: dəvamında. -bu yol suvamıynan: bu yol dəvamıynan. -**suvamsız**: dəvamsız. -**suvamlı** olsun: dəvamlı olsun.

suvamı -**gec suvamı**, ertinə ular. (**gec**: gecə). (**suvam:** dəvam). (gecənin dəvamı, əlbət ki səhərə çıxar).

suvan **savan**. **soğan**. {(savan, suvan, soğan)+ daşı}. nərsə savmaqla, gidərməklə itildən arac.

suvantamaq **suvandamaq**. suyun üzünə çıxmaq.

suvar **-**basda yürü, yetirsin, **əkdə suvar, dərirsin**.

suvar -dil çiçəkdirsə **solmadan suvar**.

suvar. sivir sever.

suvarlatmaq arnattmaq. təhzib edmək. təshih edmək. əl gəzdirmək. virastarlıq edmək.

suvarmaq -**yapcağız suvarmaq:** keşləmək. şehləmək. üzdən suvarmaq.

suvart **1**. çox iti, zirək. zivit. zivirt. **1**. su ardı saman yerdən. mızi.

suvasti **suv asti**. **su altı**.

suvaşqan cıvıq.sıvıq. -**cıvıq** saqqız olub, yapışdı.

suvat > **suat**. **1**. göl, çayda malqara suvarma, su götürmə, paltar yuma üçün düzəldilən yer. su başı. **1**. sulu yer. **1**. qazanc qaynağı. **1**. nərsənin su içən, baş alan, gücalan yeri, qaynağı.

suvat basma. suçal. ırmaqdan, axardan su götürmək, malqara suvarılmaq üçün düzədilən yer. -**suvatda** malqara suvarılar, paltar yuğular..
-**suvatda, dayaqlıq olaraq taxılan dəğənək:** basma**.**

suvatı -**küzənin yüzü, suvatı**. (yüz küzədən su içir). **(suvatı**: mal qaranın su içən yeri).

suvcuq tərlək.

suvla yağmır, aralıq sularını ağdıran arx. qənov.

suvlu -**ürəyi suvlu**: arxayın. dinc. xoş görkülü. -işində, bolşunda ürəgi suvlu.

suvluq hovlə (< **hopmaq**). -**yunaq suvluğu**: böuyük hovlə. -**əl suvluk**: kiçik hovlə.

suvluq dəsmal. hovlə. hopla.

suvot **suot**. suda bitib yaşıyan göy, göyək.

suvoy **subay**.

suvtaşar **suvdaşar**: tavtuşar. tüvtəşər**. -**atı at yanında bağlasanğ, soydaşmazsa, **suvdaşar**. (**suv**: **suy.** davranış. tüvarış. xulq. xuy).

suvul ritubətli. nəmli. şehli.

suvut ab o həva. abhava. əhval. -**şabalıt <u>suvutlu</u>, boyalı. açıq ala qoyuq, qəhveyi**: alsıq. -iyi **suvutlu**.

suy -**qaynar suyun səsi**: bor bor -**bor bor** qaynadı..

-**qaynar suyun burulması**: bur bur.

suy **suv.** davranış. tüvarış. xulq. xuy.

suya -ağ sular **çöndü qara suya**, basdı veyranı..

-**suya batmama üçün, boğulmamaq üçün geyilən geyim**: çökətə**.**

suya -**bulğaq suya dalınma, qulağ duysa, gözün ilə qapınma**. (bilinməz yerə soxulma, sevgivi qulağla seç, göz görən gözəlliklə yox). (**bulğaq**: bulanıq)**.**
-fala inanan, **suya dayanan**, nəyimə (s imə) dönər.
-**toruvu sal suya ki**, var balığı.
-**toruvu sal suya ki, var balığı**. (qaranquluqda yeriş yaramaz). (**qaranquluqda**: zil qaranlıq).

suya **-ətə suya gəlmək:** dolsumaq**.** ətlənmək.

suya **-umatlı suya düşdü**, ağzında balıq çıxdı. (**umatlı**: şanslı).

-**suya manıb** boğuldu. **(manmq. banmq**: nərsənin içinə qoşulmaq, batılmaq).

suya -suya girmədən üzüvü bil. (**üzüvü:** üzməyi).

suyımqıl sımqıl. (su. us. sı. ıs). sulu olan. dımqıl. dəmli. nəmli. ritubətli.

suyolu bir yerdən ged gəl haqqı.

suyu **-acı çayın suyu getdi**, acısı qaldı..

-işi başa düşüncə, **at suyu gəməli içmiş**, iğit suyu çizməli keçmiş. (**işi başa düşüncə**: iş gərəkdiyində)**.**

-ağız suyu: şoğurt. silik. tüpürcək..

-sözünü bilib söyləyən, **üzdən suyu tökülməz**, yerin bilib tükətən, əldən malı tökənməz.(**tükətən**: xərcləyən.). (**tökənməz:tükənməz**: qutulmaz).

suyu -**burnun quyuq suyu**: fırtıq. süymük. sümük..

-**suyu səp sinər yergə**, sözü qoy sığar elgə.

suyu **-xınası boyadan, suyu kovadan düşmüş..**

-süzmə. suyu çəkitilmiş yoğurd: kəşik. çəkik..

-**sıx, quyuq, ət, sümük suyu:** tingo. cirgə.

suyu -**izi suyu**: izi kökü. izi qoxusu.

suyu -**qar suyu**: su olmuş qar. ərik qar. (**ərik**: əğik:ərimiş).

suyu **-suyu büksən** göl olur, **suyu dərsən** çöl olur. (**suyu büksən**: suyu yığsan, toplasan) (**suyu dərsən**: suyu çəksən).

suyu -**suyu səp** sinər yergə, sözü qoy sığar yergə.

suyuq **1**. cıpcıq. cıvıq. sıvıq. sulu. çox sulu, boş olan. **1**. üt. məni'. bel suyu. **1**. **sıvıq**. **cıvıq**. yoşaq..
-**sıvıq** danışmaq. **sıvıq** davranmaq. iti, açıq, sinsidici, alçaq söz, qılıq..
-**qatıq suyuq**: bərk boş.

suyuq suvax. ərişgin.

suyuq -**suyuq aşdan aş bolmaz**, qudadan qarındaş. (**quda**: ərkək dişi almaqla oluşan qohum. səbəbi qohum). (**qarındaş**: doğma qohum. nəsəbi qohum).

suyuq **-suyuq aşdan aş bolmaz**.

suyuq **-suyuq aşın**, dəni az olar. (**suyuq**: sulu. boş).

suyuq -**suyuq, boş yemək**: çalqı. çalxama.

suyuq -**suyuq sabın**: **donuq olmayan sabın:** kəsək olmayan sabın.

suyuqlatmaq **cıpcıtmaq**. **cıvqıtmaq**. **sıvqıtmaq**. **1**. suyun çoxaltmaq. **1**. iti, açıq, sinsidici, alçaq sözlər, qılıqlar taxınmaq.

suyuqluqu **-aş suyuqluğu** dən azlığındandır. (**aşın suyuqluğu** dənin azlığındandır).

suyumsuz yaraşıqsız.

suyun **(su < > us)**. **usun**. sel. -**suyna avtalmaq**: selə qapılmaq.**.**
-suyun işi aparmaq, suyun işi aparmaq, odun işi yakarmaq.

suyun **-**göyçək duyqular axarı, söz bulağı, **qopuşan suyun calağı**. (**calağı**: calanması. tökülməsi. şırrası. sırıltısı).

suyun -**suyun çəkib şeh duruma gəlmək**: keşəlmək. yaş nərsənin quruyaraq yığılması, çəkilməsi. -(yuğulmuş) palatarlar **keşəldisə,** yığ..
-**suyun şoru dadlanmaz!.**

suyun **-suyun qamçısı yel.**

suyuna gedmək nərsiyə çəkilmək, dartılıb oxşamaq.

suyunc usarə. üsarə.

suyuntan -**odundan suyundan olmaq**: yaşamından olmaq.

suyup **1**. **sup**. boş yemək. **1**. ət suyu. **1**. hər nəyin qaynatılaraq, sıxılara, damıtaraq **(**təbxir edmə**)** çəkilən suyu **(**cirgəsi, şirəsi). cirgə. **1**. şorba. **1**. şərbət.

suyutə **suyudə.-**ağzı pişib süytdə, **üfləp içər suyudə**.

suyuz! (canıza su).nuş!. -**suyuz olsun**: nuş olsun.

suznaq **suznak** (fars) **< sıznaq**. (**sızlayan**. yaxnaq. yaxınqan. yaxınan. dərdli).

sücü -dos söyləyirsə acı, uzaq durmaz tapaçı, **yov söyləyirsə sücü**, uzaq durmaz toraçı. (**tapaçı**: dərman. ilac. tədbir). (to**r**açı: duzağı. gizli qurulan toru, tələsi).

sücü qızıl sucuq. boza. şərab.

sücü **sücük**. şirin. dadlı.

sücü **süycü**. şirin. -**süycü**, **söz**: duzlu söz..
-acınmadan, **sücü** (boza. şərab) olmaz, utanmadan kişi olmaz. (utanmaq, həyalı olmaq kişiyə gərəklidir).

sücüq **sücük.sücü**. şirin. dadlı.

süfrə < **sürvə**. dəstərxan. dəsdərxan < dusturxan. (< **düz**). yemək düzlən yayıq. saçaq. -**saçaqlar (**süfrələr**)** yazılmış, qonaqlar düzülmüş.

süqan **sükan.** burman. fərman.

süqan **sükan.** domac. fərman.

süqrüq **süğrük**. **sağrıq**. körpə bitgi, əkin.

süqsün **süksün**. ənsə, peysər, boyun kökü.

süqürmək **süyğürmək**. söğməyin bildirmək.

sülgün **sülgün**. **sülün.** qırqavul. qırtavul (qırtavuq). toranğ.

sülü (incə) mil. toxu mili.

sülüq **sülük**. **süvlük**. qan soran qara qurdcuğ. zəli.

sülüq **sülük**. zəli.

sülün qırqavıl.

sülün **sülgün**. qırqavul. qırtavul (qırtavuq). torağ.

süm şümş. teyxa. **-**gəpləməklik gümüşsə, **gəpləməzlik süm altun**.

süm **tüm**. teyxa. şüms. -gəpləməzlik **süm altun**.
-gəpləməklik gümüşsə, gəpləməzlik süm altun. (**süm**: şümş).
-söyləmək gümüşsə, susmaq süm altun. {gəpləməklik gümüşsə, gəpləməzlik süm altun. (**süm**: şümş)}**.**

sümbə < **sürbə**. oyuq nərsənin içinə soxulub sürülən ox. dalac.

sümqa **sümka**. buxca. kif.

sümlü dırqan. dırnaqlı. -**bitgə dırqanlar**: bir parça dırnaqlılar. -**aça** (**haça**) **dırqanlar**: iki parça dırnaqlılar.

sümmək **sünmək**. daralmaq. yığılmaq. (# **sunmaq**: uzanmaq). -yayda günlər **sunar**, qışda **sünər**. -yun geyim yuğulduqda **sünər**. **sünər** qumaş.

sümrə **sürmə**. zümrə.

sümsüqmək **sümsükmək**. **sürnükmək**. **sürsünmək**. vırnığmaq. avara avara dolanıb, ora bura baş çəkmək, baş soxmaq.

sümüq -ət dırnaqdan olur, **sümük ətdən** (**olur**: ayrılır). {+**dan olmaq**: +dən ayrılmaq}.

sümüq **-**itin gövnü **bir sümük**. (**sümük**: gəmik)

sümüq **sümük**. **1**. söyək. **1**. **sünük**. incə, uzcun, bərk sərt nərsə. **1**. **süyək**. (gəmik). söykək. dayaq. isqilet**..**
-qabırqa sümükləri, dəndələr: əğsi. kürsi. küsri. qayağ. ayağu..
-**sümüyü ağarmaq**: **(**qarqış**)** ölmək. gəbərmək. -yamanın **sümüyü ağarsın**. -**sümüyü ağarmış**.

sümüq **sümük**. **süng. -**qat **süng**: bərk sümük.

sümüq **sümük. süngük**. gəmik. -sütlə girən, **sümük bolsun!** (aynası. -uşaq böyüdükdə, doğma anasının dilin danmasın). (**aynası**: anlamı. açıqlaması)..
-**sıx, quyuq, ət, sümük suyu:** tingo. cirgə.

sümüq **sümük**. **süymük.** fırtıq. burnun quyuq suyu.

sümüq -**sümük, gəmik sarı:** sümüğü. sümüğsüqoyumtul, bozarmış sarı.

sümüqlü -**sümüklü böcək**: əkəm tökəm. hələzon..
-**sümüklü dil**: acı, yoğun söz.

sümüqsü **sümüğsü**. **sümüğü.** sümük, gəmik sarı. qoyumtul, bozarmış sarı.

sümüqsüz **sümüksüz**. söyəksiz. (**< söykənmək**).

sümüqsüz -**teyxa**. **yağsız, sümüksüz ət:** sal. sam.

sümüqtən **-**it yaza çıxsam **sümükdən dam salarım** deyərmiş.

sümüqü **sümüğü. sümüğsü**. sümük, gəmik sarı. qoyumtul, bozarmış sarı.

sümürmək **somurmaq**.

sümürüş **somuruş**.

sümüyə -**edim qılım sütlə sümüyə girir**, qanla canla çıxır. (**edim qılım**: xulq xəsiyət) (**sümüyə**: gəmiyə).

sünbülü -bağda gülün bülbülü, ev bəyinin **sünbülü**.

sünq **süng. -**qat **süng**: bərk sümük.

sünqü **süngü**. soxu. neyzə.

sünqüq **süngük**. sümük. gəmik. -sütlə girən, **sümük bolsun**! (aynası. -uşaq böyüdükdə, doğma anasının dilin danmasın). (**aynası**: anlamı. açıqlaması).

sünqüləmək **süngüləmək**. neyzələmək. acuğlamaq. ucuğlamaq.

sünmək **sümmək**. daralmaq. yığılmaq. (# **sunmaq**: uzanmaq). -yayda günlər **sunar**, qışda **sünər**. -yun geyim yuğulduqda **sünər**. **sünər** qumaş.

sünüq **sünük**. **sümük**. incə, uzcun, bərk sərt nərsə.

süpqə **süpgə**. süprüntülərin atıldığı yer. küllük. aşqalaq. zibilxana.

süpqü **süpgü**. püsgü. sıpıq. ispireypüs. püsür. çıp (nərsəni atan, saçan, fışqırdan ayqıt).

süpqüc **süpgüc**. arğıc. silgic. təmizləyən. pak edən.

süprəq **süprək**. **sürpək**. sürərək silip süpürən arac. silgəc. dəsmal.

süprülmək birdən tökülmək, düşmək, götürülmək.

süprülmək **sıyrılmaq**. **sıprılmaq. -**dərisi **sıyrıldı.**

süprüntü **süpürüntü.** çöprüntü. çöpürüntü.

süpüqəçi **süpügəçi**. **süvürçi**. çöpçü. zibilçi. süpügəçi.

süpürqə **-**kimsələri qaldıran süpürgədi, **endirən süpürgə sapı**.

süpürqə -**saçın süpürgə edmək**: çox güclüklə çalışmaq.

süpürqə -tülkü quyruğu, **süpürgə kötüyü buğlar**.

süpürqəti **-kimsələri qaldıran süpürgədi**, endirən süpürgə sapı.

süpürmək çalqılamaq.

süpürmək **sıyırmaq. sıpırmaq**. -ilan kov **sıyırdı**(saldı, dışladı, tökdü). (**kov**: yufa, incə dəri, qabıq).

süpürtmək **söpürtmək**. **höpürtmək**. birbaşa içəri çəkmək. içmək, yemək, döşə vurmaq.

süpürüntü **süprüntü.** çöprüntü. çöpürüntü.

süpürüntü süpüt. daşqal (< **dışqal**: qışa atılan). urdas (< **vuruntuğ: uruntuğ:** çıpıntığ). tullantı. süpürərək çıxan tullantı. su basqını üzərində gələn çərçöp, tullantı. (fizulat. xakrubə. zubalə. zibil).

süpürüntü **süpüt**. **pox**. **boğ**.

süpüt **1**. aşqal. zibil. çöp. dəğərsiz. **1**. **süpürüntü**. **pox**. **boğ**.

süpüt süpürüntü. daşqal (< **dışqal**: qışa atılan). urdas (< **vuruntuğ: uruntuğ:** çıpıntığ). tullantı. süpürərək çıxan tullantı. su basqını üzərində gələn çərçöp, tullantı. (fizulat. xakrubə. zubalə. zibil).

süpütən çıpıtan. çırpıtan. sıpıtan. sıypıtan.: rədd edən.

sür **1**. (**sürənmək**: gözəl bir nərsiyə çəkilmək). ləzzət. həzz. {> **sirur** (fars)}. **1**. bəzm. -**bəzm o ziyafət**: sıy sür. **1**. say. sır. saf. hamar**..**
-bir keçidi sürünü sürən, keçisiz, sürü qalmamış. **sən ol keçi, sürünü sür**, sürüdən ayrılan, gücü almamış (qalmamış). (necə ki, bir ambar benzin, bir qığılcım önündə gücsüz, bacarıqsız, alız qalır. tarix boyuda, kimsə öndə olmayınca, axın, təprəş (hərəkət) olmamış). (tarixi, kişilərin tutquları, keyişləri, kişləri etgilir)**.**
-kötü qoş, sür, ruh: aza. qaza. çılqı. cin. çapıt. çıpıt.

sür -**coşna sür**: (cəşni surur). şölən sürən. toy büsat. toy qonaqlıq.

sür **-**yeri güz sür, **güz sürmədin yüz sür**. (yem acanda, iş çağında gərək).

sürahi sağır. sağrığ. sağrağ. sağrağı. sağdırıq. sağındırıq.

sürbə > **sümbə**. dalac. oyuq nərsənin içinə soxulub sürülən ox.

sürc təqsir.

sürcəq **sürcək.** gərçək. gerçək. geçrək **(< keç).** yumşadıcı. müshil. -**geçrək yağ**: sürdürmə yağı. müshil yağ.

sürcəmək büdrəmək. bürdəmək. (< **bur**).

sürcmək aldıdmaq. yanılmaq. -dilim **aldıdı**.

sürçəq sürçək. hikayə. -**sürçəyi**: hikayəsi.

süret sürət. tezlik. yügüt. tov. itilik. -bu **tezliklə** çatmaq güc. bu sürətlə. bu itiliyə. -**tezlik ölçər:** itilik ölçər: sürət ölçər.

sürə **1**. ara**.** çağ. zaman. -bu **arada**: bu **sürədə**. -o **aradan** çox keçmiş. **1**. əcəl. və'də. -**sürəsi** gəlmiş. **1**. müddət. -**yarıtlıq sürə**: qabili istifadə (sürə). -**yarıtlıq sürəsi**: işdəlik (işlək) sürəsi. -iki il **yarıtlığı** var. **1.**möhlət. -**sürə** uzun değil**..**
-qıssa sürə: arça..
-**oğtun** sürə: çox qıssa zaman.

-yelmayaqca gəlib keçər evrən, **qomaz kimsə sürə, uzun devrən**. (**yelmayaqca** yel kimi iti, çapıq olan).

sürə -**itilmiş sevginin unutmasına gərəkən sürə** başqasın tapıncaqdır.

sürə sürə!. sürtə!. sürgə!. sürt!. suva!. dürtə!**.** yax!. -başıva yağ **dürtə**.

sürəc **1**. maşın. dırayver.

sürəcə müddətcə. -: faş edilmədiyi müddətcə.

sürəcəqsin **-**uyar isən doğuya, **sən sürəcəksin ona**. (təbiətin qanunların bilməklə, onu sürə bilirsin).

sürəciməz sürmənət. sürəməz. dəvam edəməz.

sürəcin -**hər sürən sürəcin sürür**, evirən öz yolun yürür. (**evirən: evigən:** evrən. çevrən. ozun. acun. aşun. dünya). (**sürəcin** : öz devrəsin, möhlətin). (yaşam olayla doludur, səndə çalış, özün üçün bir olay ol).

süräq **1**.**sürəğ**. iz. əsər. nişanə. -**sürəğ** sormaq.**1.sürək** (> **surax**). baca.

süräqli **sürəkli**. tınımsız. dinimsiz. dəvamlı.

süräli **1**. çağlı. çalı. ərzində. mütdətində. can.-on ay **çalı** yalığ (maaş) almamışan. (on ay **can**).**1.**dəvamlı. **-**üzüz güləri, **yoluz süräli olsun**.

süräli çaklı. dəvamlı. müstəmərr.

sürəməz sürmənət. sürəciməz. dəvam edəməz.

sürəmik : {. seramik. kirəmit. kaşı. saval. soval > saxsı suval. suğal. > sofal}. suyu, suyuğu özündən sızdırmayan.

sürən **1**. **çağ** < met > **qaç**. qaçan. durmayan. **1**. şənlik. sala. toy.

sürən **1**. tərh tökən. tərrah. nəxşə çəkən. nəxşəçi. **1**. uzun tə'til. **1**. yaşam. durmuş. **1**. qoşun. -**qaraqoşun**: qarasürən. qarada (yerdə) çalışan döyüş gücləri.**.**

-hər sürən sürəcin sürür, evirən öz yolun yürür. (**evirən: evigən:** evrən. çevrən. ozun. acun. aşun. dünya). (**sürəcin** : öz devrəsin, möhlətin). (yaşam olayla doludur, səndə çalış, özün üçün bir olay ol)..

-**bir keçidi sürünü sürən**, keçisiz, sürü qalmamış. sən ol keçi, sürünü sür, sürüdən ayrılan, gücü almamış (qalmamış). (necə ki, bir ambar benzin, bir qığılcım önündə

gücsüz, bacarıqsız, alız qalır. tarix boyuda, kimsə öndə olmayınca, axın, təprəş (hərəkət) olmamış). (tarixi, kişilərin tutquları, keyişləri, kişləri etgilir)**.**

sürən dəvam edən.

sürən -**şölən sürən**: toy büsat. toy qonaqlıq. coşna sür. (cəşni surur).

sürən qatar. tirən. çəkib uzanan.
-**ilkin eşək sürən** at minsə, özün bilməz, hovalanıb, göt atar.
-**yıkan sürən:** düşə qalxa. -izindən **yıkan sürən** ılqab. (dalından düşə qalxa qaçıb).

sürənlər -boş verərnlər, üz verərnlər, **batmağa yol sürənlər**. (boş verərnlər: vaz keçənlər). (üz verərnlər: kimsənin suçun undanlar). (davranışda, çəki səki, həddi hudu saxlamaq gərək.).

sürənmək (gözəl bir nərsiyə çəkilmək). **1**. ləzzət, həzz almaq.**1**. seyr, tamaşa edmək. **1**. xımır çımır qımıldamaq. bala bala sürmək, dəvam edmək.

sürər **-**acı yardan ayrılan, **sürər yaşam dad ilə**. (**dad ilə**: ləzzətlə)**.**

sürər -ağasız yeri, **domuz sürər.**.
-yaşam sürər, durar deyil, gerini daşla, yenidən başla.

sürər **-**iş bilməyən **xınanı götnə sürər**. (hər ayağın qabı var).

sürər -itginin ağrısı başqasın **tapınca sürər**.

sürər **-kişi qılığı ölünə sürər**, gülüşlü dodağ könülə. (**ölünə**: ölənə dək).

süreş **suraş**. kıronik. müzmin.

süreşləmək olan bir nərsəni olduğu kimi sürmək, idamə vermək.

süreşmək **suraşmaq**. **1**. sürsüreşmək. silsiləşmək. ardaşmaq. sıraşmaq. ard arda sürmək, gedmək. dizişmək. düzüşmək. **1**. şənlik, şadlıq edmək.

sürət **1**. atım. atam. **1**. tezlik..
-**tezlik ölçəği**: sürət əndazəsi.

sürətlə -**çox iti, yeyrək, sürətlə**: çalavaz. çalağuz.

sürətlənmək çalvanmaq. çağlanmaq. çalağanmaq. (> **çalak**). çapğanmaq (> **çapuq**). itinmək.

sürətli yügrük. tezli. tovlu.

sürqə sürgə!. sürtə!. sürə!. sürt!. suva!. dürtə!**.** yax!. -başıva yağ **dürtə**.

sürqən **sürgən. dürgən**. (# **durğan:** kasad. rakid)

sürqən **sürkən**. saykən. sayalım. tutalım. fərzən.

sürqənmək **sürgənmək**. yürgənmək. keçğinmək. keçinmək. yaşamaq. mudara edmək.

sürqəş **sürgəş**. **1**. çalasər. **1**. bulaşıq, batığ yuğunan yer. (zərfşuy. dəstşuy).

sürqətmək **sürgətmək**. idamə vermək.

sürqi **sürgi**. işlətmə. işləti. ıslatma. sulatma. sulatı. müləyyin. müshil.

sürqü **sürgü**. **1**. **(**bağlı nərsənin açılmaması üçün salınan toqqa, tikə). {gələn gedən. toxnaq. tutqa. tutqoy. çaqtoy. qaptaq. mandal. kulun. rəzvə. rəzə. cəfdə. zamin}. **1**. uruğ. cücəri. cəvanə.**1.** buçun. -**asma** (möv) **buçunu** (sürgünü): sarmu.

sürqüc **sürgüc**. **1**.mala. -**yekə sürgüc**, **mala**: sərəsov.**1.sürtov** (**sürmə**: yaşama). yaşama gücü.

sürqül **sürgül**. (> **sərgül**). pişahəng.

sürqüləmək **sürgüləmək.** uruğlanmaq. cücərimək. cəvanə vurmaq.

sürqün **sürgün**. **1**. fışqın (**fış <> dış**). cəvanə. **1**. yeni sürmüş dal. beçə.**1.** mütəhərrik. (# **durğun** ğeyri mütəhərrik).

sürqünə -**sürgünə sürülmüş qutluq**: özləyiş.

sürqünmək **sürgünmək**. **(**bir işdən, nərsədən**)** qaytınmaq. qayçınmaq. qaçınmaq. yana çəkilmək. təfrə gedmək.

sürqüş **sürgüş**. **1**.**sərgiş**. **əsriş**. xoşhallıq. şadlıq. şənlik.**1**. təbi'd.

sürqüt **sürgüd** (sürü başçı). çoban. rəhbər.

sürqütmək **sürgütmək**. itib yönətmək. zorla aparmaq.

sürqüzçü **sürgüzçü**. **sürücü.** şofer.

sürlü **sürül**. əlvan. alavan.

sürmə **1**. pırosə. **1**. **sümrə**. zümrə.**1**. uzunlamasına qoyulan dirək, nərsə. **1**. quş sürüsü. **1**. yazı çəkidə nərsənin altına, yanına çəkilən cızığ, xətt. **1**. səyyar. portativ. **1**. mütəhərrik. -**sürmə qat**.**1**.ğeyri təbi' olan. məsnovi. **1**.iki rəgə. **1**. incik, yumşaq, gözəl toxunaqlı uzun şal. ipək şal..

-**kökdən sürmə**: kökdən çəkmə. qondarma (saxda) olmayan. hərcayi olmayan**..**

-sürmə dartmaq: sürmə sürmək.

sürmə çəkməcə. kəşov..

-**at sürmə öğrəşən uşaqları, ata bağlama biçimi:** çalbət..

-**sürmə çəkdi gözünə**, çıxdı çölün düzünə.

sürmə **-**davar yığma yığraşu, oyun qılma qarğaşu, **yaşam sürmə dartaşu**. **(davar**: mal. devlət) **(yığraşu**: birbiri üsdə yığma) (**oyun**: beynin. fikrin) (**qarğaşu**: qarma qarışıq) (**dartaşu**: çəkişlə. mücadilə ilə.)**.**

sürməc **sürməcə**. **çəkməcə**. kəşov. çəşov.

sürməcə **sürməc**. **çəkməcə**. kəşov. çəşov.

sürmək **1**. gütmək. **1**.otlatmaq. **1**.sərf edmək

sürmək **1**. nərsəni dolandırmaq. aparmaq. idarə edmək. -işləri **sürmək**. **1**. nərsədən atmaq. qavqamaq **(**qoğmaq**)**. boşaltmaq. çıxarmaq. ixrac edmək. -işdən **sürmək**. **1**. aydamaq. -iti **aydan**: iti **sür**. -biraz yavaş **aydat**: biraz yavaş **sür**. -biraz asdaraq **(**yavaşraq**) aydat**. **1**. tərh tökmək. **1**. yaşamaq. aşırtmaq. keçirtmək. keçəritmək. savırtmaq. (> sipəri edmək). tey edmək. -günlərin xoş **aşır**. **1**. yürsüləmək. yaşamaq. **1**. dartmaq. -**sürmə dartmaq**: sürmə sürmək..

-**yer sürmək**. -ətəyin ucu **yer sürdü**: yerə dəğdi..

-**yaşam sürmək**: durmuş keçirtmək**..**

-yaşayıb sürmək: durqalmaq**..**

-iləri sürmək: önə sürmək.

toslaşlaşar -**İki qoç toslaşlaşar**, qurdun qarnı acığar. (**toslaşlaşmaq**: çarpışmaq. savaşmaq. burnuzlaşmaq). (iç savaşda, qayın ölkələr toy tutar). (**qayın ölkələr**: rəqib ölkələr. yad ölkələr).

toslaştı -**yad yanaşdı doslaşdı**, dos yolaşdı, yadlaşdı. (**yolaşdı**: uzaqlaşdı).

toslqun **doslğun.** -**doslğun dilin bil**, düşmanın dilin öğrən.

tosluq **dosluq. 1.** ısınşıq. səmimiyyət. **1.** ısnışıqlıq. (yaxın) arxadaşlıq. könüldaşlıq. ürəkdaşlıq. ürkədaşlıq.

tosluq **dosluq**. aşutluq..
-**dosluq düşlük**: dostluq düşmənlik. alqadaşlıq arxadaşlıq.

tosluq **dosluq**. osmanlıq. **-osmanlıq qarır**, ocmanlıq qarımaz. (**ocmanlıq:** düşmanlıq). (bir kişi yaşamında dosluqlar azıb uza bilir, qırılıb yaxşılaşa bilir, ama düşmanlıq unudulmaz).
-el birikib, ağız birləşsin, **elizə dosluq yerləşsin**.
-**dosluq düşmanlıq**: barış buruş. barış bürüş.

tosluqa -**dosluğa butum**: dosluğa sədaqə.

tosluqu **-bir itin dosluğu**, bir dosdun itiligindən min yaxşı. (**itiligindən**:itligindən).

tosluqun **-bir el ki dosluğun** (**dosların**) dərəkin bilmiyə, pis günə qalar.

tosluquta **-**pişiklə sıçan tanışlığı danılmaz, **dosluğuda alınmaz**.

tosluquva -qamu ilə tanış qıl, **dosluğuva ərdəm bul**.

tosman **dosman** # **düşman**.

tosman **dosman .-dosman üzündə aydar**, düşman izində. (**dosman**: dosd olan) (**aydar**: söylər) (**izində**: dalında. arxanda).

tosman **-dosman tavça:** dosyana verilən tovsiyə.

tossevər **dossevər**. dostcanlı. -**dostcanlı**, dostuna qıymaz.

tossuz **-**(haq qapısı, el qapısı). -bu qapıdan qolba qanat qırılmadan keçilməz, **əşsiz dossuz, arman amac tutulmadan girilməz**. (**qolba qanat qırılmadan**: qurralıq, kibir atından enmədən). (**arman** : dalıcan gəzilən amac). (bu qapıda mənlik adı oxunmur, kimi kimə toxunmur, əldə ürək, içdə dilək, yürür gedir yorulmur). {bu qapıda gəzən, güdüsüz durur. (**güdüsüz:** təmənnasız)}.

tossuz -dossuz başım, duzsuz aşım.(yaşam belə gətirir ki, bir əl suyun tökür, bir əl duzun!. tək qalmaq, kişiyə uymaz).

tossuzta **-**dosda bağlanma, dossuzda qalma. (dosda bağlan qapılma, dossuzda qalma).

tost olmaz **dosd olmaz** -**acun eldən dosd olmaz**, öcü qalsa, dinc almaz.

tost **dosd (< tutmaq. tusmaq).** birbiylə tutşlu, tutan.
-**dosd edinməyə** bax, düşmanını anan belə doğurur. (**edinməyə:** qazanmağa).
-bu tavcanı sox qulağan, eski düşman dosd olmaz, quşun gönü post olmaz. (**tavcanı**: tovsiyəni. məsləhəti) (**qulağan**: qulağıva) (**gönü**: köynəgi. dərisi) (post: kürk)**.**
-domuz dərisi post olmaz, **əsgi yağı dost olmaz**.
-**dost aşna**: tanış biliş..
-**min dosdu** olan qaldı, min öküzü olan aldı**..**
-ata düşmanı, **dosd olmaz**.
-düşmanın qoğ, **dosd özü gələr**. (düşmanın qoğ, dosdun gəlsin).(düşmanın qoğ, dosd özü gəlməz, dalıca ged)**..**
-hamıya dos, **kimsiyə dosd olmaz**.**.**
-qara gecə ağ olmaz, **yalançıdan dosd olmaz**..
-oğru oğrudur, **dosd olursa belə**..

-**dos var aşa**, dos var başa.(aşados var, başados var). (**başa**: ağla)**..**
-uzansa söz, us batar, uzansa yol, **dos batar**. (**us**: ağıl). (**batar**: itər). (uzun sözdə ağıl çaşır, uzun yoldan, dosd ayrılır)..
-qara keçə, ağ bolmaz, **yalançıdan dos bolmaz..**
-bağdalı dos, illər ötər, üzün görməz, yad olmaz. (**bağdalı** : bəfalı)**..**
-dos yaxşısı uzaqda..
-**hamıya dos**, kimsiyə dosd olmaz**..**
-çindos: doğru dos**. -çindos**, qıyın günü bəllənir. (**qıyın günü**: çətin gündə). {çindəş, qıyın günü bəllənir. (**çindəş** düz tuxum. içi düz. hələlzada. içi üzü bir olan)}.

tost (**tutmaq**. tosmaq. tusmaq). torba. -yumurtları **kəndi tostuva yığ,** dostunkuna yok!.
-**dosd odunu yaşda olur tüstülü**, tanozluda üstülü. (**tanozluda üstülü**: minnətlidə üstəlik). (tanışla alver iyi gedməz)**.**
-**olmaz kişi dosd olmaz**. (**olmaz kişi**: uyqarsız, əktisiz, kültürsüz olan)
-**dosd odunun tüstüsü**, korluq verməz gözüvə. (sıxıntı kimdən gəldiyinə salmıq kəsəlir). (**salmıq kəsəlir**: dartılır. önəm verilir)

tosta **dosda .-**düşman anlar gizim, **dosda desəm sözüm**..
-**dosda aytdım sözümü**, düşman bildi sirrimi, söz aytmadım dosduma, dərdlər yedi içimi. (**aytdım**: dedim)
-atalarsözü, **dosları, dosda eşir**, düşmanın bağrın deşir.
-dosda bağlanma, dossuzda qalma. (dosda bağlan qapılma, dossuzda qalma).
-dosda uyan çöldə qaldı, oynaşa guman evsiz. (**guman**: gumanı gedən).
-qalxıb durar kişi yıxılsa özü, **yıxıldı duranmadı, dosda yıxılan**.
-dosda qıymamağı, yağuya qıymağı öğrəş!. (**qıymamağı**: acımağı). (**yağuya**: düşmana) (**qıymağı**: acımamağı).

tosta **-**nə dosda, nə gözüvə , özüvə inan!.

tostan **-**azcaq olursa oğul uşağın, **dosdan atadan baydan gör**. (**azcaq**: azmış. pozuq) (gənclərin pozuğluğu devlət, dos, evdən asılıdır).
-bilməz dosdan yar olmaz, gəngəşli don dar olmaz. (qanmazdan, dos çıxmaz). (**bilməz**: qanmaz. cahil).
-birgün belindən gəlirsə daş, **yaxın dosdan gəlir arxadaş**.
-sözündə açıq düşman, yeğ durur, **kitoz dosdan**. (**kitoz**: iki üzlü).

tostcanlı **dostcanlı**. dossevər. -**dostcanlı**, dostuna qıymaz.

tostluq -**dostluq düşmənlik**: dosluq düşlük. alqadaşlıq arxadaşlıq.

tostoqan **dosdoğan**. tanış tunuş. qovm o xiş. qohum əqrəba.

tostoqru **dos doğru**. 1.lap düz. qoni düz. ox yalı. 1. dalay. hər yanından açıq olan. düz.**1.**doğru dos, yoldaş.

tostu **-**demə gizin dosduna, **dosdun belə dosdu var**..
-**dosdu iş başında gör**..
-**dosdu yoxun**, düşmanı yoğun..
-**dosdu tülkü olanın**, qapanı qurulu gərək. (**qapanı**: tələsi)..
-gizin vermə dosduva, **dostun ötə dosdu var**. (**gizin**: sirrin). (gizin vermə dosduva, dosduvunda dosdu var).
-iştə kitosların işi bu, tikən kimi gülə batmaq, **yılan kimi dosdu soxmaq**..
-iştə kitosların işi bu, tikən kimi gülü saşmaq, yılan kimi dosdu soxmaq**.**
-yolu doğrunun, yükü ağır olsada, **dosdu dağdırsa**, kolay çəkilir.
-qurdun qudası, **tilkinin dosdu**. (**qudası**: qohumu).
-gecənin qara olduğun danan, **yalan dosdu yalanoğlu yalan**.

tostuma **-**dosda aytdım sözümü, düşman bildi sirrimi, **söz aytmadım dosduma**, dərdlər yedi içimi. (**aytdım**: dedim)

tostumuztan -ilkin özümüzdən, evimizdən, dosdumuzdan başlıyalım.

tostun **-**bir itin dosluğu, **bir dosdun itiligindən** min yaxşı. (**itiligindən**:itligindən).

tostun **-dosdun yaman**? bəkləmə uğur, yoğur ha yoğur . (**uğur**: xeyir) (**yoğur!** : yasa. yağla)**.**
-dostun yoğun, üstələr yovun. (**yoğun**: güclü). (**yovun: yağun**. düşmanun). (çevrən güclü olursa, düşmanıvın boynun, qıl kimi üzər) **..**
-demə gizin dosduna, **dosdun belə dosdu var**..
-**dosdun pullu olsun**, yoxsullar yad olsun..
-düşmanın qoğ, **dosdun gəlsin**.(düşmanın qoğ, dosd özü gələr). (düşmanın qoğ, dosd özü gəlməz, dalıca ged)..
-gizin vermə dosduva, **dostun ötə dosdu var**. (**gizin**: sirrin). (gizin vermə dosduva, dosduvunda dosdu var)..
-**tülkü olursa dosdun**, qurulu qapanın olsun.
-**dosdun ürəyin, düşmanın dilin bil.**
-düşman duysa dərdivi, sevincindən çatlayır, **dosdun bilsə dərdivi**, dədin alar azaldar.
-özüvü süt bilsən, **dosdun qaymağ bil**. (dosduvu alçaq görmə, alçaq görürsənsə, dos olma).

tostun **-**yıxıldınsa gülən çox olar, eşitmə, **dayandınsa dosdun çox, güvənmə**!.

tostuna **dosduna**. **-demə gizin dosduna**, dosdun belə dosdu var.
-de dosduva desin dosduna, bilik gəlsin bilik üstünə.

tostunu **dosdunu .-dosdunu əkmə**, işdən qalmasın, yağuna güləmə, sirrin almasın. (**əkmə**: boşuna saxlama, gözətlətmə, mə'təl eləmə). (**yağuna güləmə**: düşmanıva üz vermə)
-dos özünün ağası, **dostunun qulluğunda olur**.

tosturmaq **tosdurmaq. tutdurmaq**. dəsqah qurmaq. tikələri birbirinə tutdurmaq, qoşaraq bir bütün qurmaq.

tostuva **dosduva**. **-aytma gizin dosduva**, verər anı düşmana.
-de dosduva desin dosduna, bilik gəlsin bilik üstünə.
-**gizin vermə dosduva**, dostun ötə dosdu var. (**gizin**: sirrin). (gizin vermə dosduva, dosduvunda dosdu var).

tostuva torbava**.** -yumurtları **kəndi tostuva yığ**, dostunkuna yok!.

tostuvu **dosduvu.** -yalnız qalmaq heçin yaxşı deyir. başıvı topla, könlüvü aç, dosduvu tap!. (**heçin**: əslən).
-dosduvu bəklətmə işdən qalur, düşmənlə uğraşma, sirrün alur.

tosuq **tusuğ**. {**tut**. **toz**}. **1**. tor. örç. hörç. **1. (**tutmaq**)**. əngəl. mane'. **1**. (tutqun). **tutsu > tuvsi**.1. xiyalatlı. mütəxəyyil. rəvani. pisik.**1.** şişik. qabarıq.

tosuqlanmaq **toslanmaq.** tulğanmaq. asqaşmaq. salqaşmaq. sərkeşlik edmək. asaylanmaq. saçaylanmaq. saçqaylanmaq. gərtginmək. dartqaymaq. qayqurmaq. qaytqırmaq.

tosuqlanmaq **tulğanmaq**. toslanmaq. tosğunlanmaq. sərkeşlik edmək: < asqaşmaq. salqaşmaq. saçaylanmaq. saçqaylanmaq. asaylanmaq. gərtginmək. dartqaymaq. qayqurmaq. qaytqırmaq.

tosuqmaq **toxsuqmaq**. səkdə edmək.

tosun **1**. **toysun.** naşı. əcəmi. iş görmədik. pişmədik. bərkiməmiş. təcrübəsiz. xam. -**tosun** uşaq. -**tosun** kişi. mən bu işin **tosun.** (**tosun:** naşı. pişmədik). **1**. **toxsun. tuxsun.** yağlı. şişman. ətli. toxlu.**1. pozun**. **fosun**. **-**tanozlunun bir gün duzun dadsan, min il tosun çəkərsin. (**tanozlunun**: minnətlinin. minnət qoyanın. başa, üzə çırpanın) (**tosun: pozun**. fosun).**1. tovsun** (odlu). (< **tov**). sərkeş.

tosunluq naşılıq. əcəmilik. pişmədiklik. təcrübəsizlik. xamlıq.

tosunmaq **1**. itinmək. yügürmək. (# **tusunmaq**: tutunmaq). **1**. tezinmək. tezgişmək. itinmək. itikləşmək. atıqlaşmaq.**1.** atılmaq. (# **tusunmaq**:tutunmaq).

tosunsan -**tosunsan çox hələ** pişmək üçün işlər gərək.

tosuş təxəyyül.

tosuşmaq təxəyyül edmək. xiyalında qurmaq.

tosyana -**dosyana verilən tovsiyə**. dosman tavça.

toş > **loş**. tutuq. qaranlıq. tünd. -**toş** gecələr: qaran gecələr. -**toş** boya. (# **yoş**: açıq.).

toşqan **(**uşaq ağzı**)**. dovşan.

toşqurmaq **doşğurmaq < toxşurmaq**. **dolşurmaq.** nərsənin için başacan doldurmaq. -evi mal davarla **doşğurmuş.**

toşqurmaq **doşqurmaq**. **dolşqurmaq.** başa baş doldurmaq.

tot **1**. **tut**. pas. -altına **tut** qapınmaz: qızıl pas götürməz. -işləyən balta **tot (**pas**)** tutmaz. **1**. bir kərədə alınan, işlənən topa (miqdar). doz.

totaq **dodağ.** aldığ. alığ. arın. yarın. irin. ərin. yalaq. (< **yarmaq**). bir nərsiyə ağız yapmaq üçün açılan yarıq. -**aldığı** yarığ. -**irnin** belə qımıldatmadıh dodağın belə təprətmədi. ağzın belə açmadı, qonuşmadı. -**irin turşatmaq**: dodağ büzmək.
. -qurumuş **dil dodağ**.
-kitaba tərs baxanın, **qaçsada dodaq** gülməz üzü.
-kişi qılığı ölünə sürər, **gülüşlü dodağ könülə**. (**ölünə**: ölənə dək).
-**usaq** dodaq: təşnə ləb.
-**dil dodağ çeynəmək**.
-**dodağ enligi:** dodağ boyası.

totaq **dodaq.** irin. erin**. (yarın < yarmıq).** bir yırtığın qıraqları. -**erin boya:** matik.

totaqda **dodaqda**. -ürəkdə olan, dodaqda səslənsin.

totaqı -**dodağı yarıq, yırtıq**: yırıq. -**yırıq** məmi.

totarmaq **dodarmaq** qurralanmaq. mütəkəbbir olmaq.

totuq güclü. igid. iğid. yigit.

toturqa **dodurqa**. **dodurqay**. dəğmə düşər. ərköyül. nonor. bulhəvs.

toturqay **dodurqay. dodurqa**. dəğmə düşər. ərköyül. nonor. bulhəvs.

tov (**> tab**.). **{qor**. **od}** (**< tovmaq**). **1**. kəlmə. luğət. **1**. enerji.**1**. şovq. **1**. hərarət. **1**. qeyrət. -**tovlu**: qeyrətli. **1**. enerji. fişar. zor. güc. qudrət. quvvət. ruh. ərkə. quvveyi fe'liyyə. **1**. **> dağ**. istidən, oddan qalan iz.. **1**. **tovuş**. **tav**. **tavış**. alğı. duyu. duyur. sezi. hiss. **1**. davranış. rəfdar. -bu **tovun** dəğiş. **1**. tav töv. tövüş. yalğun. yalğın. hiddət. **1**. tova. {hovu. hov. döğ. döğü. qov. qovu. qoğu. qor. qoğ. sov. sovu. öpgə}. coşqu. həyəcan. **1**. **dov**. (**tuğ**: bağlı). bağlaşda (qumarda) ortaya atılan (bağlı qoyulan) para, nərsə. mərc. **1**.qız. isti. **1**. isti. mehriban. **1**.istilik dərəcəsi. **1**. qızmır. qırmız. **1**. gərgin. buruşuq. tir. iti. **1**. qatağ. burqunu (pinci) bərk saxlamaq üçün ücundan bağlanan tikə. **1**.**kuf**. -**tov** (küf) **gedmək üçün, ağacdan, uca yerdən asılıb, iki qat ip**: çöncələ. **1**. **tav**. dövr.**1.** güc. zor. -**tov qıyır**: güc qıyır: zor qılır, rəva bilir.

-**od tovu**: odu tovlayıb tutuşdurmaq üçün kiçik dəmir səbət, tor. -**tov tovlamaq**: ara qızışdırmaq.

-çənçəkin olmasa bir işdə balam, qırılar incə belin, **tov gətiməz dayanmağa. (çənçəkin:** ölçü ölçəyin). (duruma görə uyum bəsləməli).

-qanmazları, qanandaki, tov bassın! (**tov**: güc).

tov **1**. tovlu. güclü. **-bilsən, biləyin tov**, bilməsəng, diləyin. **1**. tezlik. yügüt. sürət.

-tov vermək: döğütmək**.** tovlamaq. -**döğlü** qılınc: -**döğülü** qılınc: **tovlu** qılınc.

tov **dov**. yügrü. qoşuş. qaçış.

tova **1**. (**tovağ < tovmaq**). kəlam. **1**. tov. hovu. hov. döğ. döğü. qor. qoğ. qov. qovu. qoğu. sov. sovu. öpgə. coşqu. həyəcan. **1**. **tava**. tavlama (tovlama), qızartma, qızdırma üçün qab.

toval **1**. istov. istixana. sera. parnik. gül, gövərəniti becərilən yer. **1**.malqaranı qoruyub, isti saxlamaq üçün dam. tövlə.

tovamaq **tovlamaq.** bükmək**.** eşmək. neçə nərsəni birbirinə burmaq, keçirtmək, toxumaq.

tovan {> **təvan** (> fars)}.1.bacarıq. ilik. ilmək. ləyaqət. -**ilik gücü, bilikdən**. (bilik: bilim. ilim). **. 1**. (**< tov**. **tab**). şovq. iştiyaq. **1**. **toğan**. kuf.

-qorxu gücü bel bükər , **qoymaz tovan uçmağa**. (**tovan**: güc).(qorxunu tanı, qorxunu yen)**.**

tovanlamaq **tovlanmaq**. bir ox, dartı **(**cazibə**)** etgisi altında dolanmaq. dartınmaq. gravitate.

tovanları -başlı olan, tovanları dindirməz. (**tovanları**: ahmaqları).

tovansız gücsüz.

tovansızam **-tovansızam**, dizlərimin gücü yox. (**tovansızam**: tabsızam).

tovarmaq qızarmaq. **tov**\.

tovaş **1**. (# **yavaş**). **1**. **hovaş**. iti. yeyin.

tovaşmaq **1**. **dovaşmaq**. mərcləşmək. bağlaşda (qumarda) ortaya atılan (bağlı qoyulan) para, nərsə ilə qumar oynamaq. **1**. qızışmaq.

tovat güclü. tovlu.

tovatmaq qızdırmaq.

tovca yaşaq. bərq. enerji. niru. -**yaşaq bakanlığı**: **tovca bakanlığı**: vəzirliyi.

tovqa məhləkə.

tovqac **tovğac**. batur. cəsarətli. **(duyğac**. ehtiyatlı. düşüncəli). bu söz kişini könül sevər xoş olurluğa çağırıb, ardındanda, başı untmamağa yönəldir. könül saysana (hesab kitab) bilməz, başda tutduğun verməz.

tovqal tavqal. iti. ürəkli. -**tavqal** kişi dağ oyar.

tovqın taqətli. sərgin. dözgün. (şəkiba. səbur. burdbar).

tovquc **tovğuc**. **tovuc**. **1**. qızqın. **1**. güclü. zorlu. **1**. ərəkin.

tovqun qızarıq. odlu. müştəil. iti. itik. yeyin. sürətli.

tovqunmaq **tovğunmaq**. taqət gətirmək. eşiginmək. qızğışmaq.

tovla **1**. aylat. fırlat. -**aylatıb** yerə vurdu. **1**. **davla**. **dovla**. **dolav**. **tələ**. üzəri bəzənmiş av toru.

tovla aldat: . -evrənidə aldat, al, dad. (**evrənidə**: dünyanıda) (**al, dad**: dadın çıxart.yiyənib dadın al).

tovla -**dəmir, tovla bəkiyər**.

tovlaq eşək (< **eşmək**). eşici. kələkçi. hoqqaçı. **-eşəklə eşək gərək**. kopoyoğlu ilə kopyoğluluq gərək).

tovlaq **tovlağ**. **1**. (tovlanmış). quşanmış. mücəhhəz. **1**. qıyşıq. əğri. əğri. düz olmayan. -**qıyşıq** yol: əğri yol.

tovlaq **tovlu.** eşili. kələkçi **.-**eşili dünya tərsə fırlanır.

tovlamaq **1**. eşləmək. -aylayıb, **tovlayıb**, tulladı. **1**. əğirmək. eşmək..
-**tov tovlamaq**: ara qızışdırmaq.

tovlamaq **1**.eşmək. iğşəmək. əğirmək. bükmək. **1.**tovamaq. eşmək**.** dolamaq. fırlamaq. çevirmək. əyirmək. əğirmək. burmaq. bükmək. sarmaq.

tovlamaq döğütmək**.** tov vermək. -**döğlü** qılınc: -**döğülü** qılınc: **tovlu** qılınc.

tovlamaq **tavlamaq. 1.**hazırlamaq. **1**.mö'tədillətmək. **1**.mulayimlətmək. **1**.miyzanlamaq. darağlamaq. **1**.qayırmaq. yoluna qoymaq. **1**.hal vermək. **1**.qatmaq. məxlut edmək. **1**.sulamaq.

tovlamaq **tovamaq**. bükmək**.** eşmək. neçə nərsəni birbirinə burmaq, keçirtmək, toxumaq.

tovlanan aldağın. aldatılan. məğbun.

tovlanıb -**tovlanıb tavlanmaq:** toğalanmaq. burçalmaq. burşqalmaq. burulub qıvrılmaq. lovalanmaq.

tovlanmaq **1**. alsığmaq. alsığmaq. alşığmaq. aldanmaq. **1**. qayışmaq. əğrişmək. münhərif olmaq. **1**. **tovanlamaq**. bir ox, dartı **(**cazibə**)** etgisi altında dolanmaq. dartınmaq. gravitate. **1**. **toğlanmaq**. yalğışmaq. aldanmaq.

tovlaşdırar -yağcarlı buğların **tovlaşdırar**. (**yağcarlı**: yağlı).

tovlaştırmaq **tovlaşdırmaq**. eşib tovlamaq, tov vermək. -yağcarlı buğların **tovlaşdırar**. (yağcarlı: yağlı).

tovlatılmaq aldığanmaq. aldatılmaq.

tovlatmaq qayrıtmaq. əğritmək. münhərif edmək.

tovlayanın -bağ salan, bağvan olur, **tovlayanın tovun alın**, dağ salmasın. (ara qatanın aracın alın, yara vurmasın) (**tov: > dağ**: od)

tovlu **1**. **> tablı**. tovat. dartıq.**1**. (tovlanmış) ip. bükük (bükülmüş) ip. əğrik**.** (əğrilmiş, rişdələnmiş sap). **1**. enerjili. **1**.eşili.-**çox tovlu**: tirtov. **1**.**tavlı**. burama. -dəmiri **tovlu**, təndiri isti saxla.

tovlu 1. eşli. burqulu. 1. yügrük. tezli. sürətli. **1**. tov. güclü. **-bilsən, biləyin tov**, bilməsənğ, diləyin.

tovlu **tovlaq.** eşili. kələkçi **.-**eşili dünya tərsə fırlanır.

tovlu **tovuq. tavlı. tavıq.** eşik. aşıq. qızıq.

tovmaq **1**. **tabmaq**. **təpmək**. **davmak**. hərəkət edmək. **1**. dönüb öz üzərinə gəlmək. girdələnmək. **1**.qızarmaq. hirslənmək. əsəbiləşmək. **1**.qızmaq.

tovman > **təvanmənd**.

tovranmaq qurşanmaq. mücəhhəz olmaq. -silahına **tovrandı**: çeviklikle silahını aldı.

tovsalanmaq (< **tov. tav**). hovsalmaq. hövlənmək. ürəgi yellənmək. quruntalmaq. qərarsız olmaq. əndişələnmək. anğaşmaq. həyəcanlanmaq. talaşlanmaq.

tovsalmaq ürək coşmaq : ruhu götərilmək.

tovsalmaq ürək coşmaq. ruhu götərilmək.

tovsən {**tovsən** (fars)} **< tozan. tosan**. ürkün. qoşqun. (< **tozmaq. tozamaq**). {>)}.

tovsun **tosun.** (odlu). (< **tov**). sərkiş.

tovşaq **tovşaq**. iradəsi bərk. iradəli. (# **lavşaq**).

tovşan **dovşan** -**dovşan yavrusu:** qaylaq. daylaq.

tovşan **-dovşan yolu** daşqa qırar. (hər yolun yolçusu var).

tovşan **dovşan**. **1**. **doğşan**.qoğun. -**sarığ**, **uzunsov** (**uzuncaq**) **doğşan** (**qoğun**) **türü**: topatan (top atan). **1**. qoşan.

tovşan -tülkü salar xolları, **dovşan alar kolları**. (**xol**: zincir. tələ) (tülkü nəqədərdə hüqqa vurarsa dovşan kolu seçib ona sığınar).

tovtələb **dovtələb. 1**. çalğan. adan. **1**. könüt. amator.

tovtələb **dovtələb.** isilgən. talib.

tovtələb **dovtələb.** könüz. könüllü. amator.

tovtur tovuq. buyra. buruq. qıvrıq. mücəəd.

tovu -**gün tovu:** günəşin odu, sıcağı. -**gün tovunda** qızarmış yemiş**.**

tovu -**çəkişik tovu:**dartışıq gücü.

tovuc **tovğuc**. **1**. qızqın. **1**. güclü. **1**. ərəkin.

tovuq **1**. (**< tovmaq**) ibarət. **1**. yelli. badlı. qabarıq. qobarıq. mütəvərrim.

tovuq **tovlu. tavlı. tavıq.** eşik. aşıq. qızıq.

tovuq tovtur. buyra. buruq. qıvrıq. mücəəd.

tovuq **toyuq**. **-toyuq kimi olma yesiri**, **pətəyin**, dənləyib doldurur, tökür təzəyin. (**pətəyin**: çinəligin. qarnın). (yemək düşgünü olma).

tovuqluq qızıqlıq. istilik.

tovun **1**. iti. itik. yeyin. sürətli. **1**. isti.

tovun -bağ salan, bağvan olur, **tovlayanın tovun alın**, dağ salmasın. (ara qatanın aracın alın, yara vurmasın) (**tov: > dağ**: od)

tovunc -**tovunc ürəkli** tünc ürekli. od ürəkli.

tovunqa (tovun, eşin, itiliyi alınma yeri, aracı). **1**. qayınqa. sapıq işlər, yüngül suçlar işləyənlər üçün dustaq. **1**. iti gedən nərsənin yeyinliyin sındırma üçün, yol üstü qoyulan hörgüc. (sürətgir).

tovunma **tovunuş**. qızığış. qızışma. istiniş. istinmə. küyğüş. küyünüş.

tovunuş **1**. **tovunma**. qızığış qızışma. istiniş. istinmə. küyğüş. küyünüş.**1**. {şurlanış. şəəfləniş. şəhvətləniş. vəcdləniş. həyəcanlanış}.

tovur yanar. məştəil.

tovurçu eşirçi (< **eşmək**). qurucu. təşgilatçı.

tovuş **1**. {şur. şəəf. şəhvət. vəcd. həyəcan}. **1**. **tov**. **tav**. **tavış**. alğı. duyu. duyur. sezi. hiss. **1**. **deviş**. hərəkət. **1**.istilik. məhəbbət..
-**tovuş ayqıtı**, **üzvü**: alğıc.

tovuş alış. pasyon. tutqu. iştiyaq. odlu ısıq. qızıqlıq. coşqu. coğuş.

tovuşqan **tabışqan**. **tavışqan**. çok davınan, devinən, dövünən, təprəşən. tavşan. dovşan. doğşan.

tovuşmaq **tavışmaq**. **tabışmaq**. mütəhərrik, hərəkətli olmaq.

tovut təhyic.

tovutmaq eşmək. qızışdırmaq. təşviq edmək.

tovuzmaq **tozmaq**. {**tovmaq** (**tov**: od. iti)}. coşub atılmaq. cummaq.

toy **-aşıq toyda**, xoca gorda**..**

-qamış sudan doymaz, **qadın toydan**..

-yentik **toy**: doğum **toy**..

-**toy şənlik**: çaldurum.

toy **-boyun toy:** bodun toy. milli şənlik, cəşn. milli bayram.

toy **-**gecəni tanıyaq, **günüzə toy tutaq**.

toy sala. sürən. şənlik.
-sağ canlıya **gündə toy**.
-indiki evlənmələr **toy** tutmaq yok, **tor** qurmaqdırlar.
-toy bayram **düzdülər**. -şanlı bayram **düzmək**.(**düzmək:** tərtib vermək).

toy şad. -**toy qalmaq**: şad olmaq.

-**toy büsat**: şölən sürən. toy qonaqlıq. coşna sür. (cəşni surur).

toy -**toy yeri**: toyxana. toykona. avulqa..

-dəgirman gəzəklə, toy bəzəklə. (**gəzəklə**: sırayla)**.**

toy -**utanmaza gündə toy**..

-**toy busat qurmaq**: bayrınmaq..

-**arvada toy**, kişiyə tor.

toy -**toy yas.**

toya -yaramaz olsa yasa, yasa ha yasa, **nə toya yarır**, nə yarır yasa. (uyarıq olmayan qanun sınası olacaq).

toyağa **toyağa**. toybaş. toybaşı. toyçu. toybay > tobay.

toyaqana **doya qana**. doya doya. doyuncaya dək.

toyamaz -**acgöz doyamaz dünyanı versən**, toxgözdə nəvar, əksiyi bilməz.

toyan **-**biri doğan, biri duran, **biri doyan** yerinə bağlı. (**duran**: yaşadığı) (**yerinə bağlı**: yerin bəğənmiş).

toyan **-**bu dünyanı alan oldu, **doyan yox**.

toyan **doyan**.gönən.-acgöz yesə dünyanıda, **gönən** deyil.

toyan -kişi var doğan yerin, kişi var doyan yerin özləmiş.

toyar **doyar.** toxlanar. yorular. -**əllə ayaq tez doyar**, gözlə damağ, heç doymaz (**damağ**: boğaz)**.**

toyar -qarnı ac gözü acdan tez doyar.

toyatoya: **doya doya**. doya qana. doyuncaya dək.

toybaş **toybaşı**. toyağa. toyçu. toybay > tobay.

toybaşı **toybaş**. toyağa. toyçu. toybay > tobay.

toybay **> tobay**. toybaş. toybaşı. toyağa. toyçu.

toyçu toybaş. toybaşı. toyağa. toybay > tobay.

toyqa **toxqa. toqqa**. zopa. çomaq. başı şişik, topuzlu dəğənək.

toyqamaq **toyğamaq**. qutamaq. bayramlamaq. bayram tutmaq. cəşn tutmaq.

toyqan **toyxan** > tuğan. toğan. sərdar. sərdəsdə.

toyqana **toyxana**. **toykona**. toy yeri. avulqa.

toyqapa qapqa **(böyük qapı)**. dayqapa **(< dayı**: **böyük)**. dərvaza.

toyqona **toyxana**. **toykona**. toy yeri. avulqa.

toyqun **doyğun**. qane'.

toyla **-**aldış atışı, qınasız olmaz, **toyla düğün** zırnasız. (**aldış**: alışqanlıq. adət). (**qınasız**: zəhmətsiz. çorsuz, korluqsuz) .

toylamaq şadlıq qeyd etmək.

toylamaq ziyafət vermək.

toylan -ilkin oylan, **sonra toylan**. (əvvəl düşün, sonra toya, yığvaya qarış).

toylanıb -**toylanıb oylanmaq:** yığışıb düşünmək, fikirləşmək.

toymab **doymab**: doymayan.**-yeyib doymab**, yalab doymaz.

toymab **-yeyib doymab**, yalab doymaz.

toymaq **-doymaq bilməz:** hopur. opur. (hopmaq) korboğaz. yərdoymaz. doyumduymaz.

toymaq **doymaq. 1.** bükmək**.** -acgöz maldan **bükməz**. **1. doyunmaq.** bükünmək. -yaşamında səni **bükütən** nərsə varınmı. -içgidən **bükülən** olur, **bükünən** yox: içgi içəni büksədə (yıxsada), içən içgiyə doymaz.
-**doymaq bilməyən**: arantay ağzın açmaq. (nəhəng kimi ağzın açmaq).

toymaq **doymaq**. **1**. **toxmaq**. **toqmaq**. **tuqmaq**. dolmaq. **(# doğmaq**. **koğmaq**. **kovmaq**. boşalmaq). **1**. gönənmək. könənmək. -yemək **könünməyən**, yalamaqla **könəğiməz**..
-**könül doymaq**: məmnun qalmaq.

toymaqur **doymağur** doymaz. obur.

toymamış **doymamış**. çala. yanıq. umadın. nərsədən bitinməmiş, kamilləşməmiş.

toymamış -kişi yaşdan, **od odundan doymamış**. (bu söz, kişini, yaş sürəsinə, günvənlə yanaşmasına çağırır).

toymamış **-**quduran yemiş yatmış, **dadanan yemiş doymamış**.

toymasa **-yer doymasa**, ər doymaz. (yer işləyib əkməklə doyar).

toymayan **doymayan.** çiğməgən. çiyməgən. umud kəsməz. -**çiyməgən candan**: doymayan candan.

toymayan **doymayan.doymab**: .**-yeyib doymab**, yalab doymaz.

toymayan **-yağla doymayan**, ətlə doymaz.

toymayır -**göz doymayır gözəllikdən**, könül qanmır sevidən. (**qanımır: qanımır**: **qanıqmır**. doymur). (**sevidən**: məhəbbətdən).

toymaz **doymaz**. **1**. doymağur. obur. **1**. qanmaz. -gözü **qanmaz**.

toymaz **doymaz**. -əllə ayaq tez doyar, gözlə damağ, **heç doymaz** (**doyar**: toxlanar. yorular) (**damağ**: boğaz).

toymaz **doymaz**. -min qapıda gəzən, bir qapıda durmaz, min qapıdan uman, **bir qapıdan doymaz**.

toymaz **doymaz**. -**ölü aytdan doymaz**, diri daddan. (ölü addan doymaz, diri daddan). (**ölü addan doymaz**: ölüyə hər ad taxmaq olar). (**aytdan**: söz sav. danışıq). (ölüdən danışıdıqca söz uzar, diri grünməmiş daddan, yaşam dadından doya).

toymaz **doymaz**. **-**yeyib doymab, **yalab doymaz**. (**doymab**: doymayan)**..**
-yıxılan, **gürəşdən doymaz**. (öc isi (hissi) için oyar)**..**
-göz görməkdən, kişi **bilməkdən doymaz**.

toymaz **-**könül dolmaz, **qarın doymaz**. (qısmasan boğazı, dəvəni utar). (həvəsdi, bəsdi).
-yağla doymayan, **ətlə doymaz**.
-**göz doymaz** sevi qanmaz. (**sevi**: məhəbbət).
-qurd arxansından **quş doymaz**. (yem qalığı güdər).
-**diri daddan doymaz**, ölü aytdan. (**aytdan**: duadan. virddən).
ürək dolar, **könül doymaz**. (güc bitər, istək (həvəs) bitməz, razı olmaz).
-tox çalxanmaz, **ac doymaz**. (**tox**: dolu).
-yeyib doymab, **yalab doymaz**.

toymaz **-**qınçalar qıyından **dolub daşmayan doymaz**. (**qınçalar qıyından** : əzablar məşəqqətindən).

-yer doymasa, **ər doymaz**. (yer işləyib əkməklə doyar).

-başçılar doymaz, savaş durmaz.

-yalğu yaşad olar **yaşdan doymaz**.

toyn **doyn**. (**< doy**). həlqə. -qapının **doynası** qırılmış.

toynalamaq **doynalamaq** (**< doy**). həlqələmək. -qapını **doynala**.

toynuq **tuynuq. tünlük**. alaçıq, çadır kəlləsində yerləşən girdə bacalıq, açıqlıq.

toyraq **doyraq**. **1**. bərcəstə. **1**. gözün ən ıraqı seçə bildiyi alan. üfüq.

toyran dövrbər. yaxın ətraf.

toytaq **toydağ**. **tavdağ**. **taydağ**. rəqib. hərif.

toytu -bitin nəyinə **toydu, yas**!.

toytumaşa **toy tumaşa**: **toy yumaşa**: böyük şölən, bayram, çalıb oynama yığıncağı.

toytun əbləh.

toyturar -kişi var **doydurar**, kişidə var **doldurar**.

toyturmaq -**cana doydurmaq**: canqıtmaq. bezarıtmaq.

toyu **-**dəli hoyu, **qız toyu sevər**.

toyu **-**oğulsuzün toyu olmaz.

toyub **-doyub bıqmaq:** bükmək**.** -çox yemə **bükərsin**.
-**yaşamdan doyub**, ölümə qaçmaq. (özün öldürmək, öldürtmək).

toyuq **doyuq**. **1**. gönən. işba' olunmuş. -**gönən** topraq: suya doymuş topraq. **1**. qabarıq. (bərcəstə). **1**.bold. highlight. -**oyuq toyuq**: qazıq qozuq. **1**. həcim. həcmli. **1**. doyuran. qanıtan. qane' edən. **1**. malik. ərbab. hakim. karfərma. işverən. usdabaşı. şef. bos. **1**. kamil. **1**. mümtaz. **1**. ali. **1**. üstün. (piruz)**..**
-qara toyuğda ağ yumurtlar..
-toyuq **sada**..
-**dağ toyuğu**: **dağ toxusu**. altın tavuq.

toyuq **-toyuq kimi olma yesiri**, **pətəyin**, dənləyib doldurur, tökür təzəyin. (**pətəyin**: çinəligin. qarnın). (yemək düşgünü olma).

toyuq -yazdaki sulun özürgəli, **evdəki toyuq ötürmə**. (**özürgəli**: gözürgəli. havasına düşəli.) {çöldəki sonaya (qırqavula) göz tikərkən (istəyib, seçib bəğənərkən), evdəki, əldəi toyuğun ötürmə}.

toyuq -**urmu toyuq**. (**urmu**: (vurulu. çırpılı. çıplı) çilli).

toyuqların -**toyuqların pipiyin qaraldıb, öldürən kəsəl** adı: qarapapaq.

toyuquna **-toyuğuna** tavuq deyən yox.

toyulan **-**doğulan yerin əri ol, **doyulan yerin iti yox**.

toyulur **doyulur** .-**hər nədən doyulur** aşqdan başqa, könül baş çevrilir aşqdan aşqa.

toyum **doyum**. işba'.

toyumsuz **doyumsuz**. həris. təmma'.

toyumtuymaz **doyumduymaz**. hopur. opur. (hopmaq) korboğaz. yərdoymaz. doymaq bilməz.

toyun **-**eldən atılmış, külsıra qalmışlara. **elinlə olsun toyun bayramın**, görən desin doğan elin var olsun. (**külsıra**: külbaşlı. kimliyi alçalmış).

toyuna -aban düşmə toruna, **oyun var çulqamış toyuna**. (evrən bir tor durur) **(aban**!: sakın!. çəkin!. uzaq dur!. ehtiraz ed!).

toyunca **doyunca**. doluq. -allah bol eləsin, **doluq** yeyib içdik.

toyuncaya -**doyuncaya dək:** doya qana: doya doya.

toyunqa **doyunqa**. nərsənin bolluğu, doyulan yeri.

toyunmaq **doyunmaq. doymaq.** bükünmək. -yaşamında səni **bükütən** nərsə varınmı. -içgidən **bükülən** olur, **bükünən** yox: içgi içəni büksədə (yıxsada), içən içgiyə doymaz.

toyur **-**özündən ön **pişiyin doyur**.

toyuran -ayran! ayran! ayrandan için, somusuz, çörəksiz doyuran.

toyuran **doyuran**. **1**. qanığay. razı salan. -**qanığay** qulluq. **1**. toyuq (doyuq). qane' edən.

toyuran **-qarın doyuran aşın** , yağu yıxan daşın olsun.

toyurmaq **doyurmaq**. **1**. inandırmaq. iğna' edmek. toxlatmaq. qanığdırmaq. **1**. qandırmaq.

toyurmaq **doyurmaq.** qanıratmaq. boşluğu, yoxluğu gidərmək.

toyurmaz **doyurmaz**. -çiy yumurta soyulmaz, **qonşu payı doyurmaz**. (kişi umağı, kəndi dumağı). (**umağı**: ümüd yeri). (**dumağı**: damı).

toyurmaz **doyurmaz**.-**qarın doyurmaz**, boğaz isladar.(qarın doyurmaz, boğaz isladandır). (bu söz, olanı, adıyla, ölçüsüylə tanımağa çağırır.).

toyuru **doyuru.** kökəti. təqviyəti.

toyyumaşa **toy yumaşa**: **toy tumaşa**:: böyük şölən, bayram, çalıb oynama yığıncağı.

toz **1**. çan. -**toz topraq**: çan tozan. **1**. şəkər. **1**. pudr. **1**. barıt. **1**. nərsə üzrə incə səpilən nərsə. -göy **tozlu** ağ. **1**.ələs. -**altın ələsi**: qızıl tozu**..**
-altun ələs: qızıl toz..

-**toz tüs**: rəh ruf..
-**toz topraq**: çanğ tozaq.

toz -**al boya, toz**: enlik. -**enlik kirşan.**

toz çanğ**.** xəkə..
-**toz kimi uçub**, yox olan.

toz **-toz kimi uçub**, yox olan.

toz -**toz oturur**: çan yukur.

toz -**toz salmaq**: tozanlamaq..
-**qoyu, tünd toz, boya: qonqur**. qonğur. qonur. qoğur. qoyu qumral..
-**toz basmaq:** tozaşmaq. əsgişmək..
-**toz topraq savrulmaq, qalxmaq**: tozumaq. tozanmaq..
-**toza gedmək**: tozmaq. məhv olmaq. dağılmaq. batmaq. nabud olmaq. -tüm varım **tozmuş.** uçmuş. çökmüş.

toz çiçək. darı. -**gügürd çiçəyi**: gügürd
-**toz topraq:** çanğ. çan. çən (< **çalmaq**. **çəlmək**). ğubar.

toza -**taza toza**: həm yeni həm əlvan. -**taza toza** sav söz.

toza -**toza dönmək:** çanlamaq. çanğamaq. tozanmaq. oğulmaq.

tozaq -**çanğ tozaq**: toz topraq.

tozaq **tozağ**. **tozuğ**. **1**. əsgi. köhnə. -**tozuğ** parça. **1**. bit bazarı. -əsgi qalaların **(**şəhərlərin**)**, özəlliklə balığların **(**böyük şəhərlərin**)**, **tozuqlarında** yaxcı ətiqələr tapılır..
-**çan tozaq**: toz topraq. gərd o xak.

tozaqıc **tozağıc**. toz alan.

tozalan **toz alan.** tozağıc.

tozan tosan. ürkün. qoşqun. (< **tozmaq. tozamaq**). {> **tovsən** (fars)}.

tozan **tozanğ**. **1**. nazik. incə. yumşaq. boş. -**tozanğ** parça. -**tozanğ** topraq. -qum **tozanğ**. **1**. tozlu boran, yel. -**tozanğ** hava. **1**. topraqlı. topraqdan olan. -yağış çiləsə, **tozanğ** yollar toz qoparmaz. **1**. çox iti keçən. dəvamsız. -**tozanğ** yaşam.

tozan **tozun**. **tor**. **1**. tələ. -**tor** qurmuş yolunda: **tozun** yapmış yolna. **1**. yuxa **(**yoxa**)**. çox incə, nazik olan..
-**çan tozan**: toz topraq.

tozanaq çanğıt.

tozanatmaq çanlatmaq. çanğatmaq. tozatmaq. toza döndərmək. oğutmaq. oğmaq.

tozanq **tozanğ**. **tozan**. **1**. nazik. incə. yumşaq. boş. -**tozanğ** parça. -**tozanğ** topraq. -qum **tozanğ**. **1**. tozlu boran, yel. -**tozanğ** hava. **1**. topraqlı. topraqdan olan. -yağış çiləsə, **tozanğ** yollar toz qoparmaz. **1**. çox iti keçən. dəvamsız. -**tozanğ** yaşam.

tozanlamaq toz salmaq. sözlərin duyqudan, etgidən sınıxıb: düşüb.

tozanmaq tozumaq. toz topraq savrulmaq, qalxmaq.

tozanmaq çanlamaq. çanğamaq. toza dönmək. oğulmaq.

tozar ölər. heç olar. yox olar.-oxuyan el uzar, **oxumaz el tozar**. (**uzar**: yaşar. durar).

tozar **1**. ərir. sınar. -əməgin pozar, ərinən **tozar**. {çalışqan **(**zəhmətkeş**)** əridər, sındırar, əringən, təmbəl ərir, sınar}. **1**. tor. -gəlin gələr başında var ağ **tozar**..
-**toptozar**: (> **tup o təşər**). hədə qorxu.

tozar məhv olar.**-**başda dursa bir alçaq, dağar gedər, **tozar pozar** bir ölkə. (**başda dursa**: hakimiyyət edsə) (**alçaq:** əksik**).**

tozasan -**üstözingə dik qarasan, tozasan**, sılağ qılsan, asta asta ozasan. (kəndindən yuxarıya dik baxsan, nabud olarsan, ayqı ilə baxsasan, gündən günə ucalarsan)

tozaşmaq əsgişmək. toz basmaq.

tozayan -**bolayan tozayan**: olayan solayan.

tozayan **xozayan**. çoban çubuğu.

tozçu çançı. ev işçisi, qulluqçusu.

tozqa **1**. polen. çiçək tozu. **1**. hər nəyin ən kiçik böləki durumu. -qar tozqasın səpələb.

tozqan **tozğan**. **tazğan**. tazı. çalıt. iti.

tozqar **tozğar**. sınğar. ərgin. şikəs pəzir.

tozlamaq incə, azca səpmək. -düğünü sarı yağla **tozlamaq**.

tozlu -**tozlu boran, yel**: tozan (**tozanğ**). -**tozanğ** hava.

tozmaq **tovuzmaq**. {**tovmaq** (**tov**: od. iti)}. coşub atılmaq. cummaq.

tozmaq toza gedmək. məhv olmaq. dağılmaq. batmaq. nabud olmaq. -tüm varım **tozmuş.** uçmuş. çökmüş.

tozturmaq **tozdurmaq**. dağıtmaq.

tozturmaq **tozdurmaq**. dağıtmaq. dağdırmaq. qaldırmaq. yox edmək. -yaxşı söz ev saldırar, yaman söz ev dağdırar..
-**boran tozdurmaq**: fırtına qoparmaq.

tozu -xalça dövülər **tozu çıxar**, un ələnər çöpü çıxar. altun ərir özü çıxar.

tozu -**xalça dövülər tozu çıxar**, un ələnər çöpü çıxar. altun ərir özü çıxar..
-**çiçək tozu:** .tozqa. polen.

tozu -**qulaq tozu:** qulaq dibi.

tozuq filu. mübhəm. qalar yadımda bir tozuq çəkin, sürüb gedən gündən gördüyün çəkin. (gördüyün çəkin: gördügüvü çək, nəqqaşlıq ed).

tozuq xayalı. ovhamlı. zehni.

tozuq **tozuğ**. **1**. halı əhvalı yerində olmazlıq. nasaz. **1**. şəffaf olmayan.

tozumaq **1**. (tozulmaq). pozumaq (pozulmaq). yıpranmaq. əsgimək. **1.** tozanmaq. toz topraq savrulmaq, qalxmaq.

tozumaq əsgimək. köhnəlmək. -ipək çox tez **tozur**.

tozumaz. -bilik atı arımaz, **donu tozumaz**.

tozun **tozan**. **tor**. **1**. tələ. -**tor** qurmuş yolunda: **tozun** yapmış yolna. **1**. yuxa **(**yoxa**)**. çox incə, nazik olan.

tozuntul tünərgən. boğumtul. tünrək. tüstünül. -**tünərgən** boya.

tozunuşmaq məhv olmaq. tələf olmaq.

tozutmaq yox edmək.

töbən (< töb. dib). alçaq. şərəfsiz.

töbtöbə başbaşa.

töbtüb **töb tüb**. başayaq. -**töb**ündən **tüb**ünnə.

töçüb -sayın sıra **hər kəs köçüb baracaq**. (**sayın sıra**: novbət novbət) (hamı köçməlidir).

töhlüm məni (şəhvət). kişinin suyu.

töhmə > **löhmə**. -**löhmə** tənli: **töhmə** tənli: boy buxunlu.

töhül -anlayana sıvri sinək, saz gəlir, **anlamaza döhül zırna az gəlir**. (iş uzmanı, əlindəkindən yararlana bilir, iş bilməz, işin harda olduğun nə bilir).

töhül **döhül**. tübür. təbil **(**< **döğmək**. **təpmək)**.

töq **döğ**. **döğü**. **{**hovu. hov. tova. tov. qov. qovu. qoğu. qor. qoğ. sov. sovu. öpgə}. coşqu. həyəcan.

töqcələmək **döğcələmək**. **döğsələmək**. (dalbadal təpmək). təpsəmək.

töqcələmək **döğcələmək**. toxcalamaq.

töqə -**çapa döğə:** taptapa. dəbdəbə. təntənə. çav çov. -**taptapa** ilə girdi: şişəşişə. -**taptapalı** yürüş. -düşərsə **taptapadan**, açar qulağın, duymamış sözlər girər qulağına.

töqə **tökə**. -(ağı). **bacım yoxdur sızıldıya yaş tökə**, saçın yolub, sinə sökə, singirimə taş tökə. (**singirimə**: məzarıma).

töqə **tökə**. -(ağı). bacım yoxdur sızıldıya yaş tökə, saçın yolub, sinə sökə, **singirimə taş tökə**. (**singirimə**: məzarıma).

töqə **tökə**. **döğə**. qoğa. öğə. cüz'. ünsür. element.

töqə **tökə**. -qızıvı vermə erməni sikə, yurduva, dilivə **qənimin tökə**.

töqəc **döğəc**. **1**. toxac. döğnə, vurma aracı. **1**. **toxac**. kir yuma toxmağı.

töqəc **döğəc**. **dövəc**. əmək. iş. zəhmət.

töqəci **döğəci**. **dövədən**. açar. təhrik edən.

töqəçi **döğəçi**. **döväçi**. əməkçi. zəhmətkeş.

töqəq **döğəq**. **döyək**. **dayaq**. soba. çomaq. -**döyəkləmək**: döğəqləmək: dayaqlamaq. -**döyəkitmək**: döğəkitmək: dayaq atmaq.

töqəqər **döğəgər**. **döğərək**. döğrə. döğrəbər. ətraf. -bu döğərgə bax gör hardadır.

töqələq **dögələk.** dığırlaq. tumru. girdə. müdəvvər.

töqəliq **döğəlik. dövəlik.** çalamığ. yalamığ. çaxmıq. tanamığ. həqqüzzəhmə.

töqəlmək **tökəlmək.** boşalmaq. (xali olmaq).

töqəmə **tökəmə.** zinazadə.

töqən **döğən**. -**döğülən varsa, döğən var**, yıxılan varsa!, yıxan var!. (nədənsiz heç nə olmaz, su gəlib nola dolmaz).

töqən -**kül tökən**: (ərə görə) əş. arvad. qarı. qadın..
-qayğısın çəkən, **dadlı dil tökən**.

töqənəq **döğənək**. **1**. pinə. çapağ. -**çapağ əllər**: işdən çap çap düğün qoymuş, qaba dərili əllər. pinəli əllər. **1**. qasmıq. qasrıq. qurut. qobar. pinə. kübək. kibrə. **1**. kitik. pinə. **1**. kitmək. kitmən (**kitmənğ**). pinə. -əlləri **kitmənli** işçi.

töqənəq **döğənək. döğnək.** bunğuz**.** bunğuzaq. bıxca. bükcə. pinə.

töqəni **tökəni**. -**anası tökəni**, balası yığar (qız anasından öyrənər).

töqənməz **tökənməz. tükənməz.** qutulmaz.-sözünü bilib söyləyən, üzdən suyu tökülməz, yerin bilib tükətən, **əldən malı tökənməz.** (**tükətən**: xərcləyən.).

töqəntiqcə -**tökəndikcə tükənmiyən** varlığımız, sevgidir. (**tökəndikcə**: xərcləndikcə).

töqər **döğər**. **dövrə**. civar. -bu **döğərdə**. -otuziki **döğərində** bir gənc.

töqər **-**qınçıların əlləri, **yerə döğər belləri**. qara topraq gül açar, uğur bular elləri. (**qınçıların**: zəhmətkeşlərin).

töqər **tökər .-**sormaz adın, sormaz yaşın alır canın, sən yığdığın, **tökər dünya**, səpər dünya.

töqər **tökər.** -**anası tökər**, balası yığar. (bu söz ana ilə balanın tzm əməkdaşlığın bildirir.) (bu söz iki kişini birbirinə uymağı bəlgitir). (ananın qılığın, ülgüsün, qızı yiyələnər).

töqərəq **döğərək**. **döğəgər**. döğrə. döğrəbər. ətraf. -bu **döğərgə** bax gör hardadır.

töqərmən **tögərmən**. **dəğirman**. -yel **tögərməni**. -su **tögərməni**.

töqəsiz -**əkəsiz tökəsiz**: anasız oğulsuz.

töqəş **döğəş.** singir. muzahim. qonqur. qondur. qurqa.

töqətaşlamaq **tökədaşlamaq.**dağıtlamaq. pəxş edmək.

töqəver **tökə ver.** -yatma, irtin urğun əkə ver, **canın qanlı tərin tökə ver**, dirən gücal, yağı öndə dura ver, çökər yağun, ötməz artuğ yaş belə. (**irtin urğun**: yarın tuxumun) (üşünüb, təmbəllik edib, yarın bitcək tuxumu indi ək, canla çalışıb, acı təri tök gil, güreş, güclən, düşman önündə dayan, düşmanın dizə gələr, yaşam dəğişər, daha belə sürməz. (gələn, sənlədir)

töqəzləmək **tökəzləmək**. **(**tökülən, sallanan kimi olmaq tökülesi sallanası olmaq). sürüşmək. züvmək. sürcəmək. -bir **sürcəyən** atın başı kəsilməz.

töqqən **döğgən**. təcrübəli. mücərrəb. əşib eşmiş. dünya görmüş.

töqqüq **döğgük**. **devgük**. (sınğıq. (şikestə).

töqlü **döğlü**. tovlu. -**döğlü** qılınc: **döğülü** qılınc: qılınc.

töqlüq **döğlük. dölük. doluq**. iki, neçə nərsənin birbirinə döğülən, dəğilən, toxuşan, dolan yeri. -dağ **doluğu**.

töqmə -baş qaldırıb, **tökmə təni**, əli yarağa, ayağ dayağa, qayrat kanı, türk qadını!.

töqmə **tökmə**. axtarış. axıtma. boşaltma. endərmə..
-**döğmə** başı, **tökmə** yaşı, götür daşı. **(**deyinmə, zırıldama çalış**)**..
-**tökmə dəmir**: çoğun. çuğun. çönğür..
-**qan tökmə**: salağlıq. sallağlıq. qırmaş. öldürüş..
-**qapı döğmə həlqəsi, toxmağı**: çalasun.

töqmək **1**. **döğmək.** bataqlamaq. (**batdırmaq**). **1. tökmək**. calamaq. yığmaq. **-**günü günə **caladıq..**
-dil tökmək: dönməzcəsinə istəmək, rica etmək.

töqmək **1**. **döğmək.** çalbamaq. savaşmaq. **1**. təpsimək. atmaq. -canı, damarı təpsiməyə düşdü.**1**. **döğmək**. **dövələmək töpələmək**. -baş gözünə **töpələdi**. **1**. **tökmək.**

(para**)**. qoymaq. yatırmaq. **1**.**döğmək**. taklamaq. -qapını **taqlab** durdü**..**
-suya tökmək: **suya axızmaq**: **suya savmaq**: boşuna itirmək, satmaq..
-**dışarı bıraxmaq**, **tökmə**: püsgütmək. pısqıtmaq. fısqıtmaq. fışqıtmaq. içərdən dəf' edmək..
-yazın əkər, güzün biçər, yayın **tökər**, qışın içər..
-**yığıb bir yerə tökmək**: bükdələmək.

töqmək **-daşıyıb tökmək**: daşıyıb axıtmaq. daşanmaq.

töqmək -**dil tökmək:** rica etmək.

töqmək **döğmək.** basmaq**.** -uşağı yaman **basdı**.

töqmək **döğmək.** çağışmaq**.** soxuşmaq. əzmək. -daş duz **çağışmaq**. -buğda çağış. -dğşin yoxsa əlində **çağış**.

töqmək **döğmək**. -qohumluq daşın **köksünə döğmək**: quda quda demək..
-**yaş tökmək**: yaşıytmaq. ağlamaq. yağmaq. -günük tünük **yaşıytıb** durur: gecə gündüz ağlayır, yağır, yaş tökür.

töqmək **döğmək. 1.**çarpmaq. çırpmaq. qırmaq. qırpmaq. -on casut boynun **döğdü**. 1. soxmaq. -dəmir **soxmaq**: dəmir **döğmək**.

töqmən **döğmən**. dəğirman.

töqməyə **tökməyə.** -içimin nisgilini, **tökməyə dildir**, könülün sırlarını açmağa dildir.

töqnəq **döğnək. döğənək.** bunğuz**.** bunğuzaq. bıxca. bükcə. pinə.

töqrə **döğrə** gərvə**..**
-döğrə vurmaq: devikmək.mirur edmək.

töqrə **döğrə**.**dəğrə**. çevrə. civar. yovar.

töqrəbər **döğrə bər**. **1**. çevrə bər. kəmbər. **1**. döğərək. döğəgər. döğrə. ətraf. -bu döğərgə bax gör hardadır.

töqrəmək **döğrəmək**. **1**. dövrəsin, təkrəsin, çevrəsin qapalamaq, qurşamaq, almaq. əkrəmək. əğrəmək təkrəmək. dəğrəmək. dayirələmək. -(düşmanı) təkrə alıb əkrədi (döğrün alıb qurşadı), atdan düşüb yügrədi, arslalyu (kimi) kükrədi, döğdü gücün kövləsi (yağını gücdən düşəli çırpdı). **1**. təğrəmək. çönmək. fırlanmaq.

töqrər **döğrə**. **döğərək**. **döğəgər**. döğrəbər. ətraf. -bu döğərgə bax gör hardadır.

töqsələmək **döğsələmək**. **döğcələmək**. (dalbadal təpmək). təpsəmək.

töqsələmək -**döğsələyiib əzmək**: bastağlamaq. **1**. bastağ (bastağ) düzəltmək. bastağlamaq.

töqsüq **döğsük**. əksik. kəssik. naqis.

töqtürmək **tökdürmək**. **sökdürmək**. açıqlamaq. -pambıq **tökdürmək**.

töqü **döğü**. **döğ**. **{**hovu. hov. tova. tov. qov. qovu. qoğu. qor. sov. sovu. qoğ. öpgə}. coşqu. həyəcan.

töqüb -bel külük bizdən, **tər töküb işləmək** sizdən. (bel külük bizdən, bel büküş sizdən).

töqüb **-döğüb əzmək:** basağlamaq**.** basalamaq. döğüb leh edmək.

töqüb **töküb.** -bel külük bizdən, **tər töküb işləmək sizdən**.

töqüb -**qaynar su töküb üzdən pişirmə:** frıqlama. pöşləmə.

töqüq **1**. **döğük**. **devik**. sınıq. -**döğük** ayaq: ayağı **döğük**: ayağı **sınıq**. **1**. **tökük**. -çökük, tökük, sökük.

töqüq **döğük**. təpik (təpilənmiş). yumşaq. -**təpik** yer. -**təpik** yol : işlək yol.

töqüq -**tökük saçıq**.

töqül **tögül** simgəsəl ödünc olaraq işlənilən, tökülmüş dəmirsi parça. midal.

töqülən **döğülən**. -**döğülən varsa**, **döğən var**, yıxılan varsa!, yıxan var!. (nədənsiz heç nə olmaz, su gəlib nola dolmaz)..
-acatıq cocuq hırsız, **döğülən cocuq, arsız olur**.

töqülən **-keçmiş tökülən su,** qayıtmır geri, keçmişin yeri yaşamda deyil.

töqülər -**biri döğülər**, mini döğünməz, **mini döğülər**, biri döğünməz. (**döğülər**: vurular. kötəklənər) (**döğünməz**: narahat olmaz. inciməz).

töqülər **tökülər**.-qaşıqla yığılar, çanaqla **tökülər**. (qaşıqla yığılar, çanaqla yıxılar**).**

töqülqən **tökülgən**. ağnaq. ağnağan.

töqülmədən **döğülmədən**. -bu qapı könül alanı, **çağrılıb, döğülmədən girilir**.

töqülmək -ayran kimi tökülmək, kül kimi saçılmaq.

töqülmək **döğülmək**. açılmaq. (# **düvülmək**:düğülmək. qapanmaq).

töqülmək **döğülmək**. təpilmək. yumşatılmaq. sürülmək. -**təpilmədən** əkilməz. sürülmədən əkilməz. soxumlanmamış (şuxumlanmamış) topraq tuxum götürməz. -əkilən topraq **təpilsin**.

töqülmək **tökülmək.** -ağlayıb ağlayıb, **gözü tökülmək** (gözü kor olmaq).

töqülmək **-törülüb döğülmək: darılıb dağılmaq**. məhv olmaq.

töqülməz **tökülməz**.-sözünü bilib söyləyən, **üzdən suyu tökülməz**, yerin bilib tükətən, əldən malı tökənməz.(**tükətən**: xərcləyən.). (**tökənməz:tükənməz**: qutulmaz).

töqülmuş -**çalınmış, tapdanmış, döğülmuş dəmir:** çəlik. (< **çal**). polad.

töqülmüş **-**göz giləsinin yerləşən **sulu torbası sökülmüş, tökülmüş kor**: soğur. **{-**qara daşdan, **soğur gözdən yaş çıxmaz}**.

töqülsün -**ətiniz tökülsün**!: yerə girəsən. biri anlamsız söz danışanda, yersiz-düşük qılınanda deyilir. utan, xəcalət çək, həyan olsun. -**ətiniz tökülsün**, bu nə işdir, bu nə sözdür. (bu yersiz sözlə, işlə, hərəkətlə bizi utandırma.

töqülsün **tökülsün.** -**üzün, qeyrətin tökülsün**: damızlığın kəsilsin.

töqültü **tüküldü**. **-**dil qırıldı, **can tüküldü**, sevgi dildə, oldu tapmaz öz sözün.

töqültü -göydən yerə pay tüküldü, **bir neçə tuxum əkildi**.

töqültüm **tüküldüm**. -ağlaram ağlar kimi, toğluyam toğlar kimi, soğur urdu, urğana **bağlar kimi**. (**toğluyam**: dağlıyam. dərdliyəm) (**toğlar:** dağlar**).** (**soğur**: xəzan. (savır. üzün: üyzün < üzmək) (**urğana**: vırğana. xaraba).

töqülü **döğülü**. tovlu. -**döğlü** qılınc: **döğülü** qılınc: qılınc.

töqülür **-**qopun qopsa. -dərya qurur, sular çəkilir, ay gün tutulur, **ıldız tökülür**, yekə dağlar ərir, yer göy yıxılır. (**qopun qopsa**: qiyamət olsa).

töqülür **tökülür**-**çalxoyluqdan köynək əğnimdən tökülür**. (**çalxoyluqdan**: böyüklükdən, loşluqdan. şolluqdan).

töqülüş **tökülüş**.izmihlal.

töqüm **töküm**. -ağır **töküm**. -**tökümü** önləmək..
-**doğum töküm**: çoğuş. zadi vələd.

töqüm -**tuxum töküm: toxum töküm:** bir kimsə ilə tuxum töküm ilişgidə (qan ilişgidə, evləniş). bulunan kimsə.

töqümü -**yapraq tökümü**: xəzan çağı.

töqün -**doğun tökün**: olum ölüm..
-**əkin tökün**: ilkin tükün: başdan sona.

töqün **döğün. -türkce düşün, türkce, türkce sev.**

töqünər -çilənsən yov **sevinər**, **dos döğünər**. (**çilənsən** : çiğin söyləsən. çiğin desən. şikayət edsən). (**çiğ**: dərd). (**yov**: yavuz. düşman).

töqüngən **döğüngən**. döğülə bilir. yumşaq. üzü yola. uysal. əmçil. işləngən. iş, tərbiyət götürür.

töqünmək **döğünmək**. **1**. soxmaq. atmaq. -**soxur** ürəyim. **1**. təpsinmək. -**təpsinər** ürək, hər duyan savdan.

töqünmək **döğünmək**. çəpsinmək. təpsinmək. çıpsınmaq. nəbzi döğmək.

töqünmək **döğünmək**: narahat olmaq. incimək. -sən **döğünmə.**

töqünmək **döğünmək**. 1.çapınmaq.**1.**urunmaq. vurunmaq. peşman olmaq. -dos tutdun, yarımadı (yaxcı çıxmadı), **döğünmədən** atqınan.

töqünməz **döğünməz**: narahat olmaz. inciməz. -biri döğülər, **mini döğünməz**, mini döğülər, **biri döğünməz**. (**döğülər**: vurular. kötəklənər).

töqüntü **döğüntü.** çaranağ. çalanağ. çərənək. saçanağ. səçənək. çaxanaq. çağanaq. çeğənək. qırıntı.

töqüntü **töküntü.** qayqı. tədirginlik. çapqınlıq. niyarançılıq. təşviş. iztirab.

töqüntü **töküntü.** oğuntu. qalan qaçan. darğaşıq. qalıntı. daşlantı. çıprıntı. çaprıntı.

töqüntü **töküntü**. yıxıntı. sıyıntı (sıymaq: sındırmaq). xərabə.

töqüntülü **töküntülü**. çalbasıqpərşan.

töqünür **döğünür**. qınanır. üzülür. **-**cocuq könlüm aldanır, alanına bəğinir, **verəninə qınanır**. (**bəğinir**: sevinir).

töqür 1. **döğür.** mizrab. 1. **döğür.** dövül çubuğu. **1**. **tökür**. yağatır. -**yağış yağatır**: rəhmət tökür.
-toyuq kimi olma yesiri, pətəyin, dənləyib doldurur, **tökür təzəyin**. (**pətəyin**: çinəligin. qarnın). (yemək düşgünü olma).

töqürlənmək **döğürlənmək**. yuvarlanmaq. öz çevrəsinə dığırlamaq, fırlanmaq.

töqüş **döğüş .** dirəniş. çəling. -qurd yarşağı **dirəniş**, tilki yarşağı dilәniş. (**dilәniş**: yalvarış. iltimas).

töqüş **1**. **döğüş**. cıdaş. savaş. mubarizə. çalğış. **1**. **döğüş**. çəliş. mubarizə. **1**. **töküş**. qayış..
-çərik döğüş: (çevik döğüş).qaçatgizlən (**qaç at gizlən**)..
-dəğiş töküş: atar tutar. ötüş töküş. aşıt daşıt. gedər edər. rədd o bədəl..
-ötüş töküş: atar tutar. dəğiş töküş. aşıt daşıt. gedər edər. rədd o bədəl..
-döğüş meydanı: uralca..
-**döğüş qoğuş:** savaş. qağış qapış. çandış. çanğış. çaldış. çalğış. cəngiş. çanğ. cəng. (çındış)..
-**döğüş alanı**: batalan.

töqüş -**döğüş alanı**: gəringə.

töqüş **-döğüş toxuş:** (cəng o qoriz).

töqüş **-döğüş yolu min olsada**, qaçış yolu çox deyil.

töqüş **döğüş.** bulğa. bulğay. qavqa. dağva. döğvə.

töqüş **döğüş**. -sevişlə söğüş, **soxuşlu döğüş.** (**soxuşlu**: birbirinə keçmiş, ayrılmaz. əşdoğarlı. doğaşıq. toxuşlu. ekizli).

töqüş **-iş döğüş dəğil**, tələsmək nəyə gərəkdir.

töqüş: -**qatıq döğüş**: şədid savaş.

töqüşcan **döğüşcan**. uruşun da'vaçı.

töqüşçü **döğüşçü**. **1**. batalan. **1**. urğan. orxan. (**< ur**: **vur**). mubariz. cəngəvər. **1**. boğadur. bağadur. > bahadur. (< **boğuşmaq**: savaşmaq). mubariz. **1**. çavuş **(çaxuş** < **çaqmaq)**.

töqüşçü **döğüşçü. -**çalış **döğüşçü** ol, söğüşçü yox. (**döğüşçü**: nərsəni oğub yox eləyən, qaldıran). (acı sözlə, yamanl ilə başa çıxmaz işlər, baş açılmaz işdən!). (**iş**: bəla).

töqüşə -**yürün bəylər döğüşə**, yollar düzün günəşə.

töqüşqən **döğüşgən**. yarqaçı. savaşgən. qavqacan.

töqüşlü -**kişi, insan töküşlü, törəli nərsə:** qul yapılı.

töqüşmə **döğüşmə**. kürəşiş. kürəşmə. güləşiş. çarpışma. mubarizə.

töqüşmək -**dəğiş töküşmək:** çalnışmaq. alış veriş, muavizə edmək.

töqüşmək **döğüşmək.** düşmək. düğüşmək. düşmanlıq edmək. -güclüylə **düşmədən**, düşün.

töqüşsəm **-**bölüşsəm malda göz qalmaz, **döğüşsəm canda**.

töqüştə **döğüşdə.** -**döğüşdə işlənən**, üç uclu cıda, neyzə: qadalqa. qazalqa.

töqüşü **-çəri döğüşü: çərik döğüşü:** qaçaquça uruş. qaça uruş. çiriki döğüş. cumub izə (dala) dururaq savaş. cumuş cimiş döğüş. gah öndən, gah izdən, soldan sağdan çıxıb, çalıb qaçıb gizlənərək davranış, döğüş.

töqüşü **-kor döğüşü.**

töqüşüb **-döğüşüb yencişmək:**. savaşıb söküşmək, əzilmək.

töqüşüntə **-qoyun döğüşündə**, **qoç** olma gilən.

töqütmək **döğütmək.** tovlamaq. tov vermək. -**döğlü** qılınc: **döğülü** qılınc: **tovlu** qılınc.

töqütmək **döğütmək**: narahat edmək. incitmək. -səni çox **döğütdük.**

töqvə **döğvə**. qavqa. dağva. bulğa. bulğay. döğüş.

töl **döl**. nəsil. zürriyət. əvlat.
-**döl ötürmək**: quşaq (nəsil) yaymaq.

töl nütfə. tuxum. -**döl döş**: cocuq torun. uşaq quşaq > uşaq muşaq..
-**döl almaq**: oğul uşaq yiyəsi olmaq. -ir **(**tez**)** evlənən **döl alır**, erkən qalxan yol alır.

töləc **töləğcək**. malı alıb, gələcəkdə, sonrası ödənən para. borc. nisyə.

töləq **dölək**. dək. dinc. sakit. aram. -təpik atma, dölək durana. -**dölek dur, dölek dur**: (örnəyin. süt sağılırkən inəyə deyilir). -**dölək** uşaq: dinc uşaq.
(təpgi aldıda, dölək qaldı.

töləq **dölək**. törək. bolaq. gölək. olqun. çıxarlı. -aclıq çölək, toxluq **törək**. (**çölək**: **sölək**: susluq. rixvət)..
